# Hz. İsa (ə.s) gələcək

O zaman mələklər dedilər: “Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən, bir kəlmə ilə müjdələyir. Belə ki, bu Məryəm oğlu İsa Məsihdir. O, bu dünyada və axirətdə “seçilən, şərəfli, mötəbər” və Allaha yaxınlaşdırılmış insandır. (Ali İmran surəsi, 45)

## Harun Yəhya

## (Adnan Oktar)

# İçindəkilər

**Yaradılış həqiqəti**

**Giriş**

Allah qatındakı din İslamdır

Çətinlik çəkən qövmlərin "xilaskar" istəmələri

Quranda Məryəm oğlu İsa Məsih

Hz. İsa (ə.s)-ın yer üzünə qayıtması

HƏDİSLƏRDƏ HZ. İSA (Ə.S)-IN İKİNCİ DƏFƏ YER ÜZÜNƏ GƏLMƏSİ

Risale-i Nurda HZ. İSA (Ə.S)-IN İKİNCİ DƏFƏ YER ÜZÜNƏ GƏLMƏSİ

Hz. İsa (ə.s)-ı necə tanıya bilərik?

**Nəticə**

**TƏKAMÜL YANILMASI**

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür.

Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

## Giriş

Hz. İsa (ə.s), digər bütün peyğəmbərlər kimi, Allahın insanları doğru yola dəvət etmək vəzifəsini verdiyi seçilən bir quludur. Lakin hz. İsa (ə.s)-ı digər peyğəmbərlərdən fərqləndirən, Rəbbimizin təqdir etmiş olduğu bəzi xüsusiyyətlər var. Bunlardan ən əhəmiyyətlisi onun hələ də ölməmiş, Allah qatına yüksəldilmiş və yer üzünə təkrar geri qayıdacaq olmasıdır.

Bir çox insanın zənn etdiyinin əksinə, hz. İsa (ə.s) çarmıxa çəkilərək öldürülməyib, başqa səbəblə də ölməyib. Quranda **"onu asa və öldürə bilmədikləri"** qəti şəkildə bildirilir və Allahın onu Öz dərgahına yüksəltdiyi xəbər verilir. Bunlarla yanaşı, Quranda hz. İsa (ə.s) barəsində elə məlumatlar verilir ki, bunlar tarixdə hələ gerçəkləşməmişdir və bu hadisələrin gerçəkləşməsi ancaq hz. İsa (ə.s)-ın yer üzünə geri qayıtması ilə mümkün olacaq. Quranda bildirilən hadisələrin gerçəkləşəcəyinə dair isə, heç bir şübhə yoxdur.

Həmçinin Peyğəmbərimiz (s.ə.v)-in bir çox səhih (etibarlı) hədisində də, hz. İsa (ə.s)-ın Allah qatında diri olduğu, yenidən yer üzünə qayıdacağı, ikinci dəfə gələndə Quranla hökm verəcəyi, xristian aləminin İslama yönəlməsinə vəsilə olacağı və hz. Mehdi (ə.s)-la birlikdə İslam əxlaqını yer üzünə hakim edəcəyi bildirilmişdir. Böyük İslam alimləri də hz. İsanın ölmədiyi və yenidən yer üzünə qayıdacağı mövzusunda həmfikirdirlər. Buna baxmayaraq, bəzi insanlar hz. İsa (ə.s)-ın keçmişdə "müəyyən şəkildə" öldüyünü və bir daha yer üzünə geri qayıtmayacağını zənn edir. Bu inanc, Quranı və hədisləri tam bilməməkdən qaynaqlanan mühüm yanılmadır.

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. İsa (ə.s)-ın göndəriləcəyi dövr olan "Axırzaman"da bütün yer üzünün sülh, ədalət, dinclik və rifahla dolacağı xəbər verilmişdir.

"Axırzaman" ifadəsi məna cəhətdən son dövr, son vaxt deməkdir. İslama görə Axırzaman anlayışı, qiyamətə yaxın bir zamanda, Quran əxlaqının üstün olacağı, insanlar arasında geniş şəkildə yaşanılacağı bir dövrü ifadə edər. İnsanların xəyalında həmişə daha gözəl və daha yaxşı olana istiqamətli bir həsrət var. Daha gözəl bir mənzərə, daha gözəl yeməklər, ictimai problemlərin yaşanmadığı dincliklə dolu bir həyat, bolluq, gözəllik...

Məhz Axırzaman da, bütün bu "daha yaxşı" və "daha gözəl" məhfumlarına malik bir dövrü ifadə edər. Axırzaman, sıxıntının yerini bolluğun və bərəkətin, ədalətsizliyin yerini ədalətin, əxlaqsızlığın yerini gözəl əxlaqın, qarışıqlığın yerini sülh və əmin-amanlığın aldığı və bütün iman sahibi qulların illərdir ki, həsrətini çəkdiyi, İslam əxlaqının yaşandığı müqəddəs bir dövrdür.

Bu kitabda hz. İsa (ə.s)-ın ölmədiyinin, Allah qatına yüksəldildiyinin və Axırzamanda yer üzünə yenidən qaytarılacağının dəlillərini Quran ayələri, hədislər və İslam alimlərinin açıqlamaları əsasında araşdıracağıq. Lakin əvvəlcə bilavasitə bu mövzuyla əlaqədar bəzi təməl məlumatları xatırlamaqda fayda var.

# Allah qatındakı din İslamdır

Tarix boyu müxtəlif qövmlərə peyğəmbərlər göndərilmişdir. Allahın elçiləri, göndərildikləri qövmləri doğru yola dəvət etmiş və onlara haqq dini təbliğ etmişdirlər. Bəzi insanlar isə, keçmişdə elçilərlə birlikdə bir-birindən fərqli bir çox dinin göndərildiyini düşünürlər. Halbuki bu olduqca yanlış bir düşüncədir. Çünki Allahın müxtəlif dövrlərdə müxtəlif qövmlərə göndərdiyi din əslində təkdir. Məsələn, hz. İsa (ə.s)-a vəhy edilən dinlə, ondan əvvəlki dinin bəzi qadağaları aradan qaldırılmışdır. Lakin təməldə Allahın göndərdiyi dinlər arasında çox böyük fərqlər yoxdur. Keçmiş peyğəmbərlərə göndərilən də, hz. Musaya, hz. İsa (ə.s)-a vəhy edilən də və son peyğəmbər olan hz. Məhəmməd (s.ə.v)-ə endirilən də, Allah qatında haqq olan tək dindir. Bu həqiqəti xəbər verən ayələrdə belə buyurulur:

**De: "Biz Allaha, bizə nazil edilənə, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil edilənlərə, Musaya, İsaya və peyğəmbərlərə öz Rəbbi tərəfindən verilənlərə iman gətirdik. Biz onların heç birinin arasında fərq qoymuruq. Biz təkcə Ona təslim olanlarıq!" İslamdan başqa bir din axtaran şəxsdən, o din heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar. (Ali İmran surəsi, 84, 85)**

Ayədə bildirildiyi kimi, Allahın insanlara göndərdiyi haqq din, əlbəttə ki, İslamdır. Quran ayələrində bildirildiyi kimi, bütün peyğəmbərlər ortaq bir dini qövmlərinə təbliğ ediblər. Başqa bir ayədə isə: **"...bir din olaraq sizin üçün İslamı bəyənib seçdim..."** deyə buyurulur (Maidə surəsi, 3). Allah Öz qatında seçib bəyəndiyi bu dini zamanla bütün qövmlərə göndərmiş və elçiləri vasitəsilə bütün insanları xəbərdar etmişdir. Haqq dinin təbliğ edildiyi hər insan, Allahın elçiləri vasitəsilə dəvət etdiyi bu dinə tabe olmaqla məsul tutulmuşdur. Lakin özlərinə haqq dini təbliğ edən elçilər gəldikdə bəzi qövmlər onlara tabe olmuş, bəziləri isə inkar etmişdirlər. Bəziləri də, peyğəmbərin ölümündən bir müddət sonra degenerasiyaya uğramış və haqq dini tərk edərək bəzi azğın inanclara üz tutmuşdurlar. Bu həqiqət Quranda belə bildirilir:

**Həqiqətən, Allah qatındakı din, İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı həsəd və haqqa baş qaldırmaq üzündən ixtilafa düşdülər. Kim Allahın ayələrini inkar edərsə, bilsin ki, Allah tez haqq-hesab çəkəndir. (Ali İmran surəsi, 19)**

Haqq dini tərk edib uzaqlaşdığı bildirilən qövmlərdən biri də bəzi İsrail oğullarıdır. Allah İsrail oğullarına çox peyğəmbər göndərmiş və peyğəmbərləri onlara haqq dini təbliğ etmişdir. Lakin bəziləri hər dəfə peyğəmbərə baş qaldırmış və ya peyğəmbərin vəfatından sonra haqq dini təhrif edib, azğın inanca döndərmişdirlər. Hətta Quranda hz. Musa hələ həyatda olarkən, aralarından qısa müddət üçün ayrıldığı vaxt belə, İsrailoğullarının bir hissəsinin bütlərə tapınmağa üz tutduqları bildirilmişdir (Taha surəsi, 83-94). Allah, hz. Musadan sonra da haqq dindən uzaqlaşıb azğın yola daxil olan İsrail oğullarını xəbərdar edib qorxutması üçün, müxtəlif peyğəmbərlər göndərmişdir. Bunlardan biri də hz. İsa (ə.s)-dır.

Hz. İsa (ə.s), həyatı boyu İsrail oğullarını və içində olduğu cəmiyyəti, Allahın endirdiyi dinin əslini yaşamağa və səmimi qul olmağa dəvət etmişdir. Onlara, təhrif edilmiş Tövratın həqiqi hökmlərini təsdiqləyən İncili öyrətmişdir. Haqq dini əlləriylə yazıb təhrif etmiş bəzi hahamların, qəlibləşmiş və yeknəsəq batil təlimlərini tənqid etmişdir. Bəzilərinin mənfəət əldə etmək üçün, dinə daxil etdikləri yanlış qanunları ortadan qaldırmışdır. Bütün insanları tövhid inancına, səmimiyyətə və gözəl əxlaqı yaşamağa dəvət etmişdir. Bu həqiqəti Allah Quranda bizə belə bildirir:

**Məndən əvvəl nazil olmuş Tövratı təsdiqləyici kimi və sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün, Rəbbinizdən bir əlamət gətirdim. Artıq Allahdan qorxun və mənə itaət edin. (Ali İmran surəsi, 50)**

Lakin hz. İsa (ə.s)-ın dünyadan ayrılmasından bir müddət sonra, bu dəfə onu qəbul edən İsəvilərin bir hissəsi dinlərini təhrif etməyə başlamış və bəzi bütpərəst inanclardan təsirlənərək əsil İncildə qeyd olunmadığı halda, "təslis" (Ata, Oğul və Müqəddəs Ruh) (Allahı tənzih edirik) azğınlığını ortaya atmış və "xristianlıq" adı altında, tam fərqli bir din yaşamağa başlamışdırlar. Hər nə qədər içində haqq dinin qorunmuş bəzi inanc və tətbiqləri olsa da, hz. İsa (ə.s)-a vəhy edilən din, özündən sonra bəzi insanlar tərəfindən təhrif edilmişdir. Bu gün əlimizə çatan İncillər isə, hz. İsa (ə.s)-dan çox uzun illər sonra kimliyi naməlum insanlar tərəfindən yazılmış və sonrakı dövrlərdə yaşamış tarixçilər tərəfindən toplanmışdır. Dolayısilə xristianlıq, Allahın hz. İsa (ə.s)-a endirdiyi haqq dindən böyük ölçüdə uzaqlaşmışdır.

Allah, hz. İsa (ə.s)-dan sonra haqq dini yenidən bütün dünyaya təbliğ etməsi üçün, başqa bir qövm arasından bir peyğəmbər göndərmiş və ona qiyamətə qədər əsla dəyişilməyəcəyini vəd etdiyi haqq kitabı nazil etmişdir. Allahın insanlar üçün seçib bəyəndiyi dini yer üzünə təbliğ etmək üçün göndərdiyi bu son peyğəmbər hz. Məhəmməd (s.ə.v), ona vəhy etdiyi kitab isə Qurandır. Quran bütün insanlara göndərilmiş, şərqdən-qərbə, şimaldan-cənuba bütün ölkələrdəki insanların məsul

olduğu və haqq-hesab günü sorğu-sual ediləcəkləri kitabdır. Xüsusilə hazırkı dövrdə inkişaf edən texnologiya ilə bütün dünya ölkələri birləşmiş və müəyyən mənada tək bir qövmə çevrilmişdirlər. Buna görə də, bu gün yer üzündə Quranın varlığından xəbərdar olmayan, onunla bildirilən İslamı tanımayan insan demək olar ki, yoxdur. Lakin bütün bunlara baxmayaraq, insanların yalnız müəyyən hissəsi Qurana iman gətirir.

Məhz xristianların içində olduğu bu ziddiyyətli vəziyyətin düzəldilməsi üçün, hz. İsa (ə.s)-ın dünyaya bir daha gəlməsi və insanları haqq kitab olan Qurana dəvət etməsi Qurani Kərimdə xəbər verilən, hədislərdə ətraflı şəkildə bildirilən bir müjdədir. Hz. İsa (ə.s), kitabın irəliləyən hissələrdə də görüləcəyi kimi, Allah qatına ölmədən yüksəldilmişdir. Həmçinin müəyyən vaxtdan sonra təkrar gələrək, hədislərdə təsvir edildiyi kimi, hz. Mehdi (ə.s)-la birlikdə, İslam əxlaqını yer üzünə hakim edəcək. Bütün xristian və müsəlman aləmi, əsrlərdir ki, bu müqəddəs qonağı ən gözəl şəkildə qarşılamaq və onun üstün əxlaqına layiq ola bilmək üçün hazırlıq görür.

## Çətinlik çəkən qövmlərin "xilaskar" istəmələri

**Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi xalqı zalım olan bu ölkədən çıxart, bizə Öz tərəfindən bir himayəçi göndər, bizə Öz tərəfindən bir yardımçı göndər!" deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda mübarizə aparmırsınız? (Nisa surəsi, 75)**

Quranda bildirilən hekayələrdə, Allahın elçi göndərdiyi bölgələrdə, elçinin gəlməsindən əvvəl ictimai və əxlaqi cəhətdən böyük degenerasiya yaşandığı bildirilir. Elçinin gəlməsiylə birlikdə isə, ona itaət edib tabe olan insanlar din əxlaqını yaşamağın gətirdiyi bolluq, bərəkət və əmin-amanlığı yaşayarkən, elçidən sonrakı dövrlərdə insanların bir hissəsi getdikcə din əxlaqından uzaqlaşaraq inkara üz tutublar. Allahdan başqa ilahlar qəbul edərək özlərinə zülm ediblər.

Allah, Məryəm surəsində elçilərin Allaha olan bağlılıqlarını, səmimiyyətlərini və ixlaslarını nümunə göstərdikdən sonra, onlardan sonra gələn bəzi cəmiyyətlərin bu inanclarını tamamilə itirdiklərini xəbər verir. Bu insanlar şəhvətlərinə uymuş və əxlaqi əsaslara olan həssaslıqlarını itirmişdirlər. Bu insanlarla əlaqədar olaraq ayələrdə belə buyurulur:

**Onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlərdən, Adəmin və Nuhla birlikdə gəmidə daşıdığımız kimsələrin nəslindən, İbrahimin və İsrailin (Yaqub) nəslindən seçib haqq yola yönəltdiyimiz kimsələrdəndir. Onlar özlərinə Mərhəmətli Allahın ayələri oxunduğu zaman səcdəyə qapanıb ağlayanlardır. Onların ardınca namazı (qılma həssaslığını) tərk edib şəhvətə uyan bir nəsil gəldi. Beləliklə də, onlar azğınlıqlarının cəzasını alacaqlar. (Məryəm surəsi, 58, 59)**

Allah Öz dinindən uzaqlaşan, niyə yaradıldıqlarını, özlərini Yaradanın qarşısındakı məsuliyyətlərini heç düşünməyən bu insanları müxtəlif fəlakətlərlə xəbərdar etmişdir. Bu əməllərinin əvəzi olaraq onlara verdiyi nemətini dəyişdirmiş: **"Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq..."** (Taha surəsi, 124) ayəsinin tələbindən ötrü, sıxıntılı və çətin bir həyat vermişdir.

Allah "sıxıntılı həyat"ı, iman gətirdikdən sonra küfr edən bu xalqlara çox müxtəlif şəkillərdə yaşatmışdır. Mallarda və məhsullarda yaşanılan qıtlıq, bərəkətsizlik, əxlaqi degenerasiya və degenerasiyanın gətirdiyi mənəvi sıxıntı, siyasi qeyri-sabitlik nəticəsində yaranan iqtisadi və ictimai problemlər bunlardan təkcə bir neçəsidir.

Bu cəmiyyətlər din əxlaqına uyğun olmayan sistemlər üzündən də, müxtəlif təzyiq və əziyyətlərə məruz qalmışdırlar. Quranda bu cür ədalətsiz zülm sisteminə nümunə verilən dövrlərdən biri Firon dövrüdür. Firon çox ehtişamlı zənginlik və bolluq içində yaşadığı bir halda, xalqına çox böyük əziyyətlər vermiş və fitnə-fəsad törətmişdir. Bu vəziyyət bir ayədə belə bildirilir:

**Həqiqətən, Firon yer üzündə (Misirdə) təkəbbürlük göstərib onun xalqını zümrələrə bölmüşdü. Firon onlardan bir zümrəni zəiflədir, onların oğlan uşaqlarını boğazlayır, qadınlarını isə sağ buraxırdı. Çünki, o, fitnə-fəsad törədənlərdən idi. (Qəsas surəsi, 4)**

İqtisadi və ictimai problemlərin yaşandığı, ədalətsiz bir rəhbərliyin hakim olduğu bu cür dövrlərdə, insanlar həmişə bir xilaskara ehtiyac duyarlar. Bu xilaskar, içində yaşadıqları mövcud sistemin mənfi tərəflərini düzəldəcək, ədaləti, sülhü, təhlükəsizliyi təmin edəcək və özlərini doğru yola yönəldəcək.

İsrail oğulları da hz. Musadan sonra eyni çətinliklərlə, zalım rəhbərlərlə qarşılamış, çox böyük zülmlər çəkmişdirlər. Yurdlarından çıxarılmış, evlərindən sürgün edilmiş və özlərini, içində olduqları bu vəziyyətdən nə şirk qoşduqları ilahlarının, nə mallarının, nə də atalarının xilas edə bilməyəcəklərini anlamışdırlar. Bunun nəticəsində isə, Allahdan bu zalım rəhbərliyə qarşı mübarizə aparmaq bir rəhbər istəmişdirlər.

## "Allahın qanununda qətiyyən bir dəyişiklik tapa bilməzsən"

Quranda təsvir edilən keçmiş qövmlərə aid hekayələrdə diqqətçəkən xüsuslardan biri də, hər qövmün başına gələnlərin bir-birinə böyük ölçüdə bənzər olmasıdır. İnsanların yaşayışları, içində olduqları vəziyyət, xəbərdaredici olaraq elçilərin göndərilməsi və sonunda isə, bəzilərinin həlak olması bənzər şəkildə yaşanmışdır.

Müasir cəmiyyətlərdə də çox sürətli pozulma, korlanma və degenerasiya yaşanılır. Kasıblıq, səfalət, zülm mühiti içindəki insanlar, gözəl əxlaqın yaşandığı, dinc həyatın həsrətini çəkirlər. Mövcud sistemin, təkcə bu əxlaqla birləşdiyi zaman ədalət təmin edə biləcəyi, pozuqluqların ancaq bu əxlaqa sahib insanlar tərəfindən düzəldilə biləcəyi artıq açıqca görülür.

Necə ki, Allah əvvəlki qövmlərə də, eyni ictimai tənəzzüldən sonra xilaskarlar göndərmiş və çətinliyin ardından çox böyük bolluq, bərəkət və zənginlik vermişdir. Allah qorxub çəkinən cəmiyyətlərə bolluq və bərəkət verəcəyinə bir ayəsində belə işarə edir:

**Əgər o ölkələrin xalqı iman gətirərək, qorxub çəkinsələrdi, həqiqətən, Biz onların üstünə göydən və yerdən bərəkət qapılarını açardıq. Lakin onlar yalan hesab etdilər. Biz də onları qazandıqlarına görə yaxaladıq. (Əraf surəsi, 96)**

Ayələrdə bildirildiyi kimi, sülhə, əmin-amanlığa, bolluğa və bərəkətə nail olmağın tək yolu, İslam əxlaqının yaşanmasıdır. Bu, keçmiş qövmlərdə belə olmuşdur, bundan sonrakı qövmlərdə də bu cür olacaq. İslam əxlaqının olmadığı yerdə, ədalətin, təhlükəsizliyin, sabitliyin əsil mənada hakim olması qeyri-mümkündür. Bu, Allahın bir qanunudur. Allahın qanunlarında heç bir dəyişiklik olmadığı isə Quranda belə bildirilir:

**"...Onlara qorxudan və xəbərdar edən gəldikdə isə, bu, onların ancaq nifrətini artırdı. Həmçinin onlar yer üzündə təkəbbür göstərib, pis əməllər törətdilər. Halbuki hiylələr isə, təkcə öz sahiblərini bürüyüb əhatə edər. Artıq onlar əvvəlkilərin qanunundan başqasınımı gözləyirlər? Sən Allahın qayda-qanununda heç bir dəyişiklik tapa bilməzsən. (Fatir surəsi, 42, 43)**

## Qurana görə İslam əxlaqının yaşanması

Əvvəlki hissədə ifadə etdiyimiz kimi, Quran ayələrində, keçmiş qövmlərdə yaşanılan degenerasiya, azğınlıq və əxlaqi tənəzzüldən sonra Allahın həmin qövmlərə bir “xilaskar” göndərdiyi xəbər verilir. Bu xilaskar, insanları Allaha şirk qoşmadan iman gətirməyə və qorxub çəkinməyə yönəldər. Qövmlərin inkarda israr etməsindən sonra, bu dəfə də onları əzabla xəbərdar edər. Bu xəbərdar edib qorxutma olmadan Allah heç bir qövmü məhv etməyəcəyini, Quranda belə bildirir:

**Biz heç bir ölkəni onu xəbərdar edən olmadan məhv etmədik. Onlara xatırladılmışdır. Biz zalım deyilik! (Şuəra surəsi, 208, 209)**

Yaşdığımız dövr, hər cür pozulmanın hakim olduğu maddi-mənəvi pozulmanın artdığı, azğınlığın yaşandığı, siyasi və iqtisadi cəhətdən böyük qeyri-sabitliyin hökm sürdüyü, varlı-kasıb arasında çox böyük uçurumların yarandığı bir dövrdür. Bütün bu hadisələr, çox yaxın gələcəkdə mühüm hadisələrin yaşanlacağına işarə edir. Allahın icazəsi ilə bütün bu çətinliklərdən sonra, hz. İsa (ə.s)-ın yenidən yer üzünə gəlməsi və hz. Mehdi (ə.s)-ın zühur etməsiylə birlikdə, İslam əxlaqı bütün dünyada mütləq yaşanılacaq və haqq din digər batil dinlərə üstün gələcəkdir.

Allah Tövbə surəsində iman gətirən qullarını bu həqiqətlə belə müjdələyir:

**Onlar ağızları ilə Allahın nurunu söndürmək istəyirlər. Halbuki, kafirlər istməsə də, Allah təkcə Öz nurunu tamamlamaq istəyir. Müşriklər istəməsə də, o dini (İslamı) bütün dinlərdən üstün etmək üçün Öz Elçisini doğru yol göstəricisi və haqq dinlə göndərən Odur. (Tövbə surəsi, 32, 33)**

Allah Nur surəsində də, şirk qoşmadan Özünə qulluq edən və "yaxşı əməl" işləyən (Onun hökmlərini qoruyan, yolunda səy göstərən) möminlərin özlərindən əvvəlkilər kimi, yer üzündə güc və hakimiyyət sahibi olacağını belə xəbər verir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri "güc və hakimiyyət sahibi" etdiyi kimi, onları da "güc və hakimiyyət sahibi" edəcək, özləri üçün seçib bəyəndiyi dinlərini özlərində hakim edib möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar təkcə Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra inkar edənlər – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

Burada mühüm bir xüsus var: Yuxarıdakı ayədə yer üzündə din əxlaqının yayılmasının şərti bildirilir belə ki, bu, şirk qoşmadan təkcə Allaha ibadət edən və Onun yolunda yaxşı əməl işləyən möminlərin varlığıdır.

Buraya qədər bəhs edilən mövzulardan çıxan nəticə budur: Allah hər dövrdə zülmə qarşı kömək istəyən qullarına cavab vermişdir. Keçmişdə olduğu kimi, dövrümüzdəki (həmçinin gələcəkdəki insanları) dinsizliyin zülmündən xilas edib, onlara İslam əxlaqını yaşamağın gözəlliklərinin təqdim ediləcəyi bir mühit yaşanacaq.

Xüsusilə İslam aləminin düşdüyü çətinliklərdən xilas olması da Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bildirdiyinə görə yaxındır. Əlbəttə, bunun üçün Allahın hər dövrdə olduğu kimi, bir xilaskar göndərəcəyi ümid edilir. Məhz yaşadığımız dövrdə insanları

"zülmətdən nura" çıxardacaq bu xilaskar, İslam əxlaqıdır. Bu üstün əxlaqın yaşanmasına vəsilə olacaq hz. İsa (ə.s.) və hz. Mehdi (ə.s) isə, Allahı inkar edən ideologiyaları fikirlə məğlub edəcək və yanlış din anlayışlarını təsirsiz hala gətirəcəklər.

Bir sözlə, Allah hər xalqa kömək etdiyi kimi, bundan sonra da yer üzündəki insanlara kömək edəcək. Allah ixlasla və səmimiyyətlə Özünə yönələn qullarına bunu vəd etmişdir. Ayələrdə belə buyurulur:

**Onlar ancaq "Rəbbimiz Allahdır" dediklərinə görə haqsız yerə yurdlarından çıxarıldılar. Əgər Allah insanların bəzilərini, digərləri ilə dəf etməsəydi (məlubiyyətə uğratmasaydı), monastırlar, kilsələr, sinaqoqlar və içərisində Allahın adı çox zikr olunan məscidlər dağılıb gedərdi. Allah, Özünə (dininə) yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah Güclüdür, Əzizdir.**

**Əgər onlara yer üzündə hökmranlıq versək, onlar dosdoğru namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allaha aiddir. (Həcc surəsi, 40, 41)**

# Quranda Məryəm oğlu İsa Məsih

Kitabın bu bölməsindəki məqsəd, hz. İsa (ə.s)-ın keçmiş həyatına və yenidən yer üzünə qayıdacağıyla bağlı bütün təfərrüatları, ən etibarlı mənbədən çatdırmaqdır. Bu mənbə, əlbəttə ki, heç bir dəyişikliyə uğramamış və Allahın: **"...Heç kəs Onun sözlərini dəyişə bilməz..."** (Ənam surəsi, 115) şəklində ifadə etdiyi Quran və səhih hədislərdir. Doğumundan Allah Qatına yüksəlməsinə, yer üzünə təkrar qayıtmasından əsil ölümünə qədər hz. İsa (ə.s)-ın həyatının bir çox mərhələsi Quranda bildirilmişdir.

Hz. İsa (ə.s) bundan təxminən 2000 il əvvəl yaşamış, Allahın dünyada və axirətdə seçdiyi bir elçisidir. Ona vəhy edilən haqq din bu gün adı ilə yer üzündə olsa da, əslində bir çox təhrifə məruz qalmış və əslindən uzaqlaşdırılmışdır. Allahdan vəhy yolu ilə aldığı haqq kitab da eynilə əslindən uzaqlaşdırılmışdır. Xristian mənbələri müxtəlif dəyişikliklərə məruz qalmış və təhrif edilmişdir. Dolayısilə bu gün hz. İsa (ə.s) ilə əlaqədar həqiqi məlumatları bu mənbələrdən əldə etməyimiz qeyri-mümkündür.

Hz. İsa (ə.s) barəsində mütləq doğru məlumatı əldə edə biləcəyimiz yeganə mənbə, Allahın qiyamətə qədər qoruyacağını vəd etdiyi Quran və hədislərdir. Quranda, hz. İsa (ə.s)-ın doğumu, həyatı, yaşadığı müddətdə qarşılaşdığı hadisələrdən nümunələr, ətrafındakı insanların vəziyyəti və daha bir çox mövzudan bəhs edilmişdir. Hətta hz. İsa (ə.s)-ın dünyaya gəlməsindən əvvəl anası hz. Məryəmin necə bir həyatı olduğu, necə möcüzəvi şəkildə hamilə qaldığı, necə doğduğu və bu vəziyyət qarşısında necə imtahan olunduğu kimi, bir çox mövzu da yenə ayələrlə bildirilmişdir. Üstəlik, Quranda, hz. İsa (ə.s)-ın Axırzamanda ikinci dəfə dünyaya gələcəyinə işarə edən ayələr də var. Bu bölmədə, hz. İsa (ə.s) barəsində Quranda bildirilən məlumatları çatdıracağıq.

## Hz. Məryəmin dünyaya gəlməsi və böyüməsi

Hz. İsa (ə.s)-ı dünyaya gətirmək məqsədiylə, seçilmiş hz. Məryəm, qarışıqlıqların hökm sürdüyü bir dövrdə dünyaya gəlmişdi. Allah hz. Məryəmi bu müqəddəs vəzifə üçün xüsusi olaraq seçmiş və böyütmüşdü. Hz. Məryəm, Allahın seçib aləmlərdən üstün etdiyi bir nəsildən, İmran ailəsindən gəlirdi.

İmran ailəsi, Allaha könüllü şəkildə iman gətirən, hər işlərində Ona üz tutan və Onun qoyduğu hədləri diqqətlə qoruyan, ətraflarında da bu üstün xüsusiyyətləriylə tanınan bir ailə idi. İmranın həyat yoldaşı, hz. Məryəmə hamilə qaldığını öyrəndiyi zaman, dərhal Allaha yönəlib dua etmiş və dünyaya gətirəcəyi uşağı Allaha nəzir vermişdi. Bu mövzu Quranda belə bildirilir:

**Bir zaman İmranın arvadı demişdi: "Ey Rəbbim! Mən bətnimdəkini "hər cür bağlılıqdan xilas edilmiş şəkildə" sənin üçün nəzir etdim. Məndən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Biləndir". Lakin onu dünyaya gətirdikdə (Allah onun nə dünyaya gətirdiyini bildiyi halda) belə demişdi: "Ey Rəbbim! Doğrusu bir qız (uşağı) dünyaya gətirdim, oğlan isə qız kimi deyildir. Mən onun adını Məryəm qoydum, onu və onun nəslini daşa tutulmuş (qovulmuş) şeytandan Sənə sığındırıram". (Ali İmran surəsi, 35, 36)**

Hz. Məryəm dünyaya gəldikdə, İmranın yoldaşının rəftarı yenə Allahı razı salmağa istiqamətli oldu. Həm hz. Məryəmi, həm də onun mübarək nəslini şeytanın şərindən qoruması üçün Allaha yönəldi. Allah, İmranın yoldaşının özünə qarşı bu səmimi yönəlişini qəbul etdi və duasına cavab olaraq, dünyaya gətirdiyi uşağa çox üstün əxlaq bəxş etdi. Quranda, hz. Məryəmin, Allahın qoruması altında nə qədər diqqətlə və həssaslıqla yetişdirildiyi: **"Bundan sonra Rəbbi onu yaxşı tərzdə qəbul etdi, onu gözəl bir bitki kimi yetişdirdi və onu Zəkəriyyaya həvalə etdi..."** (Ali İmran surəsi, 37) ayəsiylə bildirilmişdir.

Hz. Zəkəriyya, hz. Məryəmi yetişdirdiyi vaxt, onun digər insanlardan daha üstün şəkildə yaradıldığını görmüşdü. Çünki Allah hz. Məryəmə, Öz lütfündən bir çox nemət vermişdi. Bu mövzudan Quranda belə bəhs edilmişdir:

**...Zəkəriyya hər dəfə onun yanına ibadətgaha daxil olduqda, onun yanında ruzi olduğunu görərdi. O dedi: "Ey Məryəm! Bu, sənin üçün haradandır?" Məryəm dedi: "Bu, Allah tərəfindəndir. Həqiqətən, Allah istədiyi kimsəyə hesabsız ruzi verir". (Ali İmran surəsi, 37)**

Allah, İmran ailəsini aləmlərdən üstün etdiyi kimi, bu ailənin üzvü olan hz. Məryəmi də seçmiş, xüsusi şəkildə yetişdirərək təmizləmiş və onu bütün aləmlərin qadınlarından üstün etmişdir. Quranda onun bu üstünlüyü belə bildirilir:

**Bir zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni seçdi, təmizlədi və seçib aləmlərin qadınlarından üstün etdi". Ey Məryəm! Rəbbinə könüllü surətdə itaət et, səcdə qıl və rükuya gedənlərlə birlikdə rükuya get! (Ali İmran surəsi, 42, 43)**

Hz. Məryəm, yaşadığı cəmiyyətdə, həm ailəsinin, həm də özünün Allaha qarşı olan bağlılığı və səmimiyyəti ilə, tanınan bir insan olmuşdu. Ən yaxşı bilinən xüsusiyyətlərindən biri isə, **"namusunu qorumuş olması"**, yəni iffətiydi. Bu mövzu Təhrim surəsində belə bildirilir:

**Həmçinin İmran qızı Məryəmi də. Belə ki, o, öz namusunu qorumuşdu. Beləliklə, Biz ona Öz ruhumuzdan üfürdük. O da, Rəbbinin Sözlərini və Kitablarını təsdiq etdi. O (Rəbbinə) qəlbən bağlı idi. (Təhrim surəsi, 12)**

## Hz. İsa (ə.s)-ın Atasız Dünyaya Gəlişi

Rəbbimizin hz. İsa (ə.s)-da təcəlli etdirdiyi ən böyük möcüzələrdən biri, hz. Məryəmin ona hamilə qalma formasıdır. Quranda bu mövzu ilə əlaqədar bir çox təfərrüat verilir. Məryəm surəsində Cəbrailin hz. Məryəmə belə göründüyü bildirilir:

**Kitabda Məryəmi də yada sal. O zaman o, ailəsindən ayrılıb şərq tərəfdə olan bir yerə çəkilmişdi. Sonra isə, onlardan ötrü (özünü gizlədən) bir pərdə tutmuşdu. Biz Öz Ruhumuzu (Cəbraili) onun yanına göndərdik. O, Məryəmin qarşısında kamil bir insan surətində peyda oldu. (Məryəm surəsi, 16, 17)**

Yuxarıdakı ayələrdə bildirildiyi kimi, hz. Məryəm, həyatının bir mərhələsində şərq tərəfində bir yerə çəkilmiş və həyatının bir hissəsini burada keçirtmişdir. Cəbrail ona bu dövrdə kamil bir insan surətində görünmüşdür. Ayələrdə diqqət çəkilən digər mühüm mövzu isə, hz. Məryəmin iffətli rəftarı və güclü Allah qorxusudur. Hz. Məryəmin Cəbraili gördükdə söylədiyi ilk sözlər belə olmuşdur:

**O (Məryəm) dedi: “Həqiqətən, Mən səndən Mərhəmətli Allaha sığınıram! Əgər təqva sahibisənsə (mənə yaxınlaşma)”. (Məryəm surəsi, 18)**

Cəbrail hz. Məryəmə özünü tanıtmış və təkcə Allahın vəzifə verdiyi bir elçi olduğunu və ona Allahdan bir müjdə ilə gəldiyini bildirmişdir. Ayələrdə Cəbrailin verdiyi cavab belə bildirilir:

**O dedi: "Mən sənə ancaq pak bir oğlan bəxş etmək üçün Rəbbinin elçisiyəm". (Məryəm surəsi, 19)**

**O zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən, bir kəlmə ilə müjdələyir. Belə ki, bu Məryəm oğlu İsa Məsihdir. O, bu dünyada və axirətdə "seçilən, şərəfli, mötəbər" və Allaha yaxınlaşdırılmış insandır. (Ali İmran surəsi, 45)**

Bu əhəmiyyətli müjdəni alan hz. Məryəm, özünə başqa bir insan toxunmadığı halda, necə bir övladı ola biləcəyini anlamaq üçün Cəbrailə bu sualı vermişdir:

**O dedi: "Mənə bir insan toxunmadığı və özüm də zinakar olmadığım halda, necə mənim oğlan övladım ola bilər?" O dedi: «Bu belədir, lakin Rəbbin buyurdu: "Bu, Mənim üçün asandır. Biz onu insanlar üçün bir möcüzə və Öz tərəfimizdən bir mərhəmət edəcəyik"». Nəhayət iş bitdi. Beləliklə uşağa qaldı və bətnindəki ilə birlikdə gedib tənha bir yerə çəkildi. (Məryəm surəsi, 20-22)**

**O dedi: "Ey Rəbbim! Mənə bir insan toxunmadığı bir halda necə övladım ola bilər?" Bu belədir, lakin: "Allah beləcə istədiyini yaradır. O, bir işin olmasını istədikdə ona ancaq "Ol!" deyir, o da olur". (Ali İmran surəsi, 47)**

Yuxarıdakı ayələrdən də göründüyü kimi, Cəbrail hz. Məryəmə hamilə qaldığını müjdələmiş və **"Allahın "Ol" deməsiylə bunun dərhal olacağını"** xəbər vermişdir. Hz. Məryəmə heç bir insan əli dəyməmişdir, yəni hz. İsa (ə.s) dünya həyatındakı səbəblərdən müstəqil şəkildə bir atası olmadan dünyaya gəlmişdir. Bu, Allahın bir lütfü olaraq, hz. İsa (ə.s)-ın bütün həyatı boyu yaşadığı və dünyaya ikinci dəfə gəlməsiylə yaşayacağı möcüzələrdən təkcə biridir.

Cəbrailin özünə hamilə qaldığını müjdələməsindən sonra hz. Məryəm, tənha bir əraziyə çəkilmişdir. Allah bu dövrdə də hz. Məryəmi hər cəhətdən dəstəkləmiş, Öz himayəsi altına almışdır. Bir insanın hamiləlik dövrü ərzində həm psixoloji, həm də fiziki cəhətdən ehtiyacı ola biləcək hər cür dəstək və imkanı Allah onun üçün yaratmışdır. Onu

tənha bir əraziyə yerləşdirərək, bu möcüzəni qavraya bilməyəcək insanların maddi-mənəvi cəhətdən verə biləcəkləri hər cür narahatlığın da qarşısını almışdır.

## Hz. İsa (ə.s)-ın Allah tərəfindən bir kəlmə olması

Allah, Quranda (Rəbbimizin təqdiriylə) hz. İsa (ə.s)-ın doğumundan ölümünə qədər hər mövzuda, digər insanlardan böyük fərqlər göstərdiyinə diqqət çəkmişdir. Hər şeydən əvvəl hz. İsa (ə.s), məlum səbəblərdən kənar bir yaradılışla və **atasız şəkildə dünyaya gəlmişdir.** Allah, hz. İsa (ə.s) dünyaya gəlmədən əvvəl, bir çox xüsusiyyətini və insanlar üçün, Məsih kimi göndərildiyini mələkləri vasitəsilə anası hz. Məryəmə bildirmişdir. Hz. İsa (ə.s)-ın bu seçilən xüsusiyyətlərindən biri, "Allahın bir kəlməsi" olmasıdır.

**...Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisi, Onun Məryəmə göndərdiyi “Ol!” kəlməsi və Onun tərəfindən göndərilən bir ruhdur.... (Nisa surəsi, 171)**

**O zaman mələklər dedilər: “Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən, bir kəlmə ilə müjdələyir. Belə ki, bu Məryəm oğlu İsa Məsihdir. O, bu dünyada və axirətdə “seçilən, şərəfli, mötəbər” və Allaha yaxınlaşdırılmış insandır. (Ali İmran surəsi, 45)**

Quranda **"Allahın kəlməsi"** ifadəsindən təkcə hz. İsa (ə.s.) üçün istifadə edilmişdir. Allah, hz. İsa (ə.s) hələ dünyaya gəlmədən onun adını xəbər vermişdir. Allah Öz tərəfindən bir kəlmə hz. İsa (ə.s.)-a **"İsa Məsih"** adını vermişdir. Bu, hz. İsa (ə.s)-ın digər insanlardan daha fərqli bir yaradılışla yaradıldığının ən açıq ifadələrindən biridir.

Necə ki, dünyaya gəlməsi kimi, həyatı boyu Allahın lütfü sayəsində göstərdiyi möcüzələr və ölmədən Allah qatına yüksəlməsi də, onun bu fərqliliyini göstərir.

## Hz. İsa (ə.s)-ın Doğumu

Məlum olduğu kimi, uşaq dünyaya gətirmək, həm çox çətin, həm də çox yaxşı qayğı tələb edən bir hadisədir. Tibbi baxım imkanı, təcrübəli bir köməkçisi olmayan insanın, bu cür mühüm bir hadisədə təkbaşına müvəffəqiyyət qazana bilməsi çox

çətindir. Lakin bu mövzuda heç bir təcrübəsi olmayan hz. Məryəm, Allaha olan bağlılığı və etibarı ilə bu çətin işin öhdəsindən təkbaşına gələ bilmişdir.

Hz. Məryəm güclənən doğuş sancıları içərisində olarkən, Allah ona vəhylə kömək etmişdir. Rəbbimiz bu çətin vəziyyətdə etməsi lazım olan hər şeyi ona bildirərək ən asan şəkildə və ən yaxşı şərtlər altında doğuş etməsini təmin etmişdir. Bu da, hz. Məryəmə Allah qatından verilmiş böyük nemətdir.

**Doğuş sancıları onu bir xurma ağacının gövdəsinə söykənməyə vadar etdi. O dedi: "Kaş bundan əvvəl öləydim və bir dəfəlik unudulaydım!" Məryəmin aşağı tərəfindən onu səsləyib dedi: "Qəm yemə, Rəbbin sənin ayağının altından bir bulaq axıtdı. Xurma ağacının gövdəsini özünə tərəf silkələ ki, üstünə yetişmiş, təzə xurma tökülsün. Ye, iç, gözün aydın olsun! Əgər insanlardan kimisə görsən, de: "Mən Mərhəmətli Allaha oruc tutmağı nəzir etmişəm. Odur ki, bu gün heç kimlə danışmayacağam"». (Məryəm surəsi, 23-26)**

## Hz. İsa (ə.s)-ın beşikdə olarkən danışması

**İsmətini qoruyan (Məryəm)! Biz ona Öz ruhumuzdan üfürdük, onu və onun oğlunu aləmlərə bir əlamət etdik. (Ənbiya surəsi, 91)**

Allahın hz. Məryəmin qövmü üçün, sınaq etdiyi hadisələrdən biri, hz. İsa (ə.s)-ın doğumudur. Allahın, insanların gözləmədiyi bir şəkildə gerçəkləşdirdiyi bu doğuş, həm qövmü, həm də hz. Məryəm üçün imtahan olmuşdur. Əslində hz. İsa (ə.s)-ın dünyaya gəlmə forması, Allahın insanları imana dəvət etmək üçün onlara göstərdiyi bir möcüzədir və Allahın varlığının ən açıq dəlillərindən biridir. Lakin qövmü bu vəziyyəti anlaya bilməmiş və hz. Məryəm barəsində həqiqətdən kənar bəzi zənlərə qapılmışdırlar. Bu mövzu Quranda belə bildirilir:

**Beləliklə onu daşıyaraq tayfasının yanına gəldi. Onlar dedilər: "Ey Məryəm! Sən həqiqətən təəccüblü bir iş tutdun. Ey Harunun bacısı! Atan pis kişi, anan da pozğun deyildi". (Məryəm surəsi, 27,28)**

Yuxarıdakı ayələrdə bildirildiyi kimi, hz. Məryəm, daha əvvəl çəkilmiş olduğu tənha ərazidən ayrılıb, hz. İsa (ə.s)-la birlikdə tayfasının yanına gəldikdə, özünə heç bir açıqlama vermə fürsəti verilməmişdi. Tayfa, yalnız zənn və təxminlə hz. Məryəmə bəzi çirkin böhtanlar atdı. Halbuki bu böhtanları atan tayfa üzvləri, hz. Məryəmi dünyaya gəldiyi andan bəri tanıyırdı. Onlar həmçinin onun və İmran ailəsinin nə qədər Allaha bağlı və dindar insanlar olduqlarını çox yaxşı bilirdilər.

Hz. Məryəm isə, əslində bu böhtanlarla sınanılırdı. Allaha qəlbən bağlı və iffətinə olduqca düşkün olan bir insanın əsla Allahın qoyduğu həddi aşmayacağı aydındır. Lakin bu həssaslığına baxmayaraq, özünə çirkin böhtanlar atılması, Allahın onun üçün yaratdığı bir imtahan idi. Allah dünyaya gəldiyi andan etibarən ona həmişə hər işində kömək etmiş və hər işini xeyirlə nəticələndirmişdi. Hz. Məryəm isə, hər işin Allahın iradəsində olduğunu heç unutmamalı olduğunu və bu əsassız böhtanlardan onu yenə Allahın xilas edib təmizə çıxardacağını bilirdi.

Necə ki, Allah bu işində də hz. Məryəmə müəyyən asanlıq təmin etmiş və ona "susma orucu" tutmasını vəhy etmişdir. Tayfası özü ilə danışmaq istədikdə Allah, hz. Məryəmə susmasını və özünə yaxınlaşıb ittihamlar atanlara, hz. İsa (ə.s)-ı işarə etməsini bildirdi. Beləliklə də, hz. Məryəm, Allahdan asanlıq olaraq özünə sıxıntı verilməsinə səbəb ola biləcək bir danışıqdan uzaq tutuldu. Tayfasından gələn sualları ən düzgün şəkildə cavablandıra biləcək insan hz. İsa (ə.s) idi. Allah, hz. Məryəmə hz. İsa (ə.s)-ın doğumunu müjdələdiyi zaman, onun hələ beşikdəki körpə vaxtından belə danışacağını da bildirmişdi:

**O, həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışacaqdır və salehlərdən olacaqdır. (Ali İmran surəsi, 46)**

Allah bu yolla hz. Məryəmin işini çox asanlaşdırmış və tayfasının gözlədiyi ən düzgün açıqlamanı da hz. İsa (ə.s)-ın ağzından etdirmişdi. Allahın belə bir möcüzə mühiti yaratması ilə, tayfasının hz. Məryəmə qurduğu tələ də pozulmuş olurdu. Bu hadisə Quranda belə bildirilir:

**Bundan sonra ona (uşağa) işarə etdi. Onlar dedilər: "Hələ beşikdə olan körpə ilə necə danışaq?" O (İsa) dedi: "Həqiqətən də, mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi vəsiyyət (əmr) etdi. Anama itaət etməyi də. Məni**

**bədbəxt bir zalım etmədi. Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!" (Məryəm surəsi, 29-33)**

Şübhəsiz ki, beşikdəki bir uşağın mükəmməl danışa bilməsi çox böyük möcüzədir. Üstəlik, hz. İsa (ə.s)-ın dünyaya gələn kimi, bir uşağın əsla bilməyəcəyi məlumatları bilməsi də heyrətamiz hadisədir. Bu vəziyyət İsrail oğullarına Allah qatından gələn möcüzəvi bir həqiqətlə üz-üzə olduqlarını açıqca sübut etmişdir. Bütün bu möcüzəvi hadisələr, hələ beşikdəki bu mübarək uşağın qəti şəkildə Allahın elçisi olduğunu göstərmişdir.

Məhz Allah, Özünə yönəlib qarşılaşdığı hər hadisədə təvəkkül göstərməsindən ötrü, hz. Məryəmə rəhmət etmişdir. Bütün tayfanı heyrətləndirəcək böyük bir möcüzə göstərərək, tayfasının ona atmağa çalışdığı böhtanlara qəti bir cavab vermişdir. Lakin Allah, özlərinə göstərilən bu möcüzəvi hadisəyə baxmayaraq, hələ hz. Məryəmə böhtan atmağa davam edənlər üçün də, böyük bir əzab olduğunu bildirmişdir:

**(Bir də) inkar etdiklərinə və Məryəmə əleyhində böyük böhtanlar dediklərinə görə... (Nisa surəsi, 156)**

**Bir də: "Həqiqətən, biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!" dediklərinə görə (onlara belə bir cəza verdik)... (Nisa surəsi, 157)**

## Hz. İsa (ə.s)-ın göstərdiyi möcüzələr

Allahın hz. İsa (ə.s)-a lütf etdiyi möcüzələrindən ilki, onun məlum səbəblərdən kənar şəkildə atasız olaraq dünyaya gəlməsi, daha sonra isə beşikdə olarkən danışaraq peyğəmbərliyini bildirməsidir. Əslində bu iki möcüzə, Allahın hz. İsa (ə.s)-ı seçmiş olduğunu göstərən dəlillərdəndir. Beşikdəki bir körpənin, iman gətirmiş şəkildə dünyaya gəlməsi və gələn kimi çox ağıllı məntiqlə danışa bilməsi, ancaq Allahdan bir möcüzə ilə mümkün olar:

**Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm beşikdə ikən, həm də yetkin**

**çağında insanlarla danışırdın. Sənə Kitabı, hikməti, Tövratı və İncili öyrətmişdim..." (Maidə surəsi, 110)**

Hz. İsa (ə.s)-ın Allahın istəyi sayəsində göstərdiyi digər möcüzələr isə ayədə belə bildirilir:

**Allah onu İsrail oğullarına bir elçi edəcəkdir. O deyəcəkdir: "Mən sizə Rəbbinizdən bir əlamət gətirdim. Mən sizin üçün palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürərəm, o da Allahın icazəsi ilə quş olar. Allahın icazəsi ilə anadangəlmə koru, cüzam xəstəliyinə tutulanı sağaldar və ölüləri dirildərəm. Yediyiniz və saxladığınız şeyləri sizə xəbər verərəm. Əgər iman gətirmisinizsə, şübhəsiz ki, bunda sizin üçün qəti bir dəlil vardır. (Ali İmran surəsi, 49)**

Buraya qədər bəhs edilən bütün bu möcüzələrə baxmayaraq, qövmün bir hissəsi inkarlarını davam etdiriblər. Hz. İsa (ə.s)-ın etdiklərinin **"məharətli sehrlər"**dən (Saff surəsi, 6) başqa bir şey olmadığı böhtanını ataraq, onu sehrbazlıqla ittiham etməyə cəhd ediblər.

## Hz. İsa (ə.s)-ın dini təbliğ etməsi və qarşılaşdığı çətinliklər

Hz. İsa (ə.s)-ın göndərildiyi dövr, İsrail oğullarının həm siyasi, həm iqtisadi, həm də ictimai cəhətdən böyük çıxılmaz vəziyyətdə olduqları bir dövrdü. Bir tərəfdən yaşadıqları ölkənin mərhəmətsiz rəhbərliyi, digər tərəfdən də müxtəlif inanc və məzhəb ayrılıqları. Belə çətin bir qarışıqlıq mühitində insanlar, hər dövrdə olduğu kimi, bir qurtuluş yolu tapmağa çalışırdılar.

Cəmiyyətin yaşadığı çətinliklərdən xilas olmasına vəsilə olacaq mübarək insan, hz. İsa (ə.s)-dı. Allah, onu və anası hz. Məryəmi İsrail oğullarına tanıtmaq üçün, hz. İsa (ə.s)-ı hələ beşikdə olarkən danışdırmış və beləliklə də, gözlənilən peyğəmbərin gəldiyini bütün İsrail oğullarına bildirmişdi. Qövmün bir hissəsi hz. İsa (ə.s)-ın göndərilmiş elçi olduğunu anlayıb, ona iman gətirdi.

Lakin, əlbəttə ki, hz. İsa (ə.s)-a əks reaksiya göstərənlər də vardı. Öz dövründəki inkarçı sistemin müdafiəçiləri, onu din əxlaqına uyğun olmayan sistemləri üçün təhlükə hesab edirdilər. Bundan ötrü də, hz. İsa (ə.s)-ın varlığını eşidən kimi, hərəkətə keçmiş

və öz aləmlərində ona maneə törətmək üçün planlar qurmuşdular. Bu təşəbbüsləri hələ ən başından, müvəffəqiyyətsizliklə nəticələnmişdir, lakin bu məqsədi gerçəkləşdirməkdən əl çəkməmişdirlər.

Necə ki, hz. İsa (ə.s)-a əks reaksiya göstərənlər təkcə inkarçılarla məhdudlaşmamışdır. Həmin dövrün yəhudi din xadimlərinin bəziləri, hz. İsa (ə.s) dini təbliğ etməyə başladıqdan sonra müxtəlif səbəblərdən ötrü ona cəbhə almışdırlar. Bunun ən mühüm səbəblərindən biri isə, hz. İsa (ə.s)-ın onları dinin əslini yaşamağa dəvət etməsi olmuşdur. Necə ki, hz. İsa (ə.s) təbliğinə başlayan kimi, onu, dinlərini yox etməyə çalışmaqla günahlandırıblar. Halbuki hz. İsa (ə.s)-ın əsil fikri mübarizə apardığı şey, yəhudi ruhanilər arasından çıxan bir qrupun dinə sonradan daxil etdiyi saxta hökmlərdir. İsrail oğullarının bəziləri, özlərinə haram edilmiş bəzi şeyləri halal, halal edilmiş bəzi şeyləri isə, haram edərək, haqq dinlərini dəyidirmişdilər. Həmçinin Allah, dinə daxil etdikləri bu hökmləri aradan qaldırıb, dinlərini təmizləməsi üçün, peyğəmbər olaraq onlara hz. İsa (ə.s)-ı göndərmişdi. O da qövmünü Tövratın əslini təsdiqləyən İncilə tabe olmağa dəvət etmişdir. Allah, bu mövzunu, Quranda belə bildirir:

**Məndən əvvəl nazil olmuş Tövratı təsdiqləyici kimi və sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün, Rəbbinizdən bir əlamət gətirdim. Artıq Allahdan qorxun və mənə itaət edin. (Ali İmran surəsi, 50)**

Allah, başqa bir ayədə, hz. İsa (ə.s)-a vəhy edilən İncilin, özündən əvvəl endirilən Tövratı təsdiqləyən və iman gətirən insanlar üçün bir rəhbər, doğruyu yanlışdan ayırd etmələrini təmin edəcək bir kitab olduğunu da göstərmişdir:

**Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün yol göstərici və öyüd olan İncili verdik. (Maidə surəsi, 46)**

Bəzi yəhudilər hz. İsa (ə.s)-ın təbliğinə alışa bilmirdilər. Halbuki hz. İsa (ə.s), onları tövhid inancına, səmimiyyətə, qardaşlığa və dürüstlüyə dəvət edirdi. Batil inanclardan və tətbiqlərdən uzaqlaşmalarını söyləyirdi. Quranda hz. İsa (ə.s)-ın qövmünə etdiyi təbliğ belə bildirilmişdir:

**İsa aydın dəlillərlə gəldiyi zaman dedi: "Mən sizə hikmət gətirmişəm və barəsində ziddiyyətə düşdüyünüz bəzi şeyləri izah etmək üçün gəlmişəm. Allahdan qorxun və**

**mənə itaət edin! Həqiqətən, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə Ona ibadət edin! Budur düz yol!" Sonra aralarından bəzi firqələr ixtilafa düşdülər. Artıq ağrılı-acılı bir günün əzabından vay zalımların halına! (Zuxruf surəsi, 63-65)**

Hz. İsa (ə.s)-ın səmimi və hikmətli təbliği, xalqın böyük marağına səbəb oldu və onu dinləyənlərin sayı da gün keçdikcə artdı.

## Bəzi yəhudilərin hz. İsa (ə.s)-ı öldürdüklərini iddia etmələri

Şübhəsiz ki, Romalıların hz. İsa (ə.s)-ı çarmıxa çəkərək öldürdükləri iddiasını hər kəs bilir. Bu yalan iddiaya görə, hz. İsa (ə.s)-ı ələ keçirən Romalılar və bəzi yəhudi din xadimləri onu çarmıxa çəkmiş və beləliklə onu öldürmüşdürlər. Necə ki, bütün xristian aləmi də hadisəni bu cür qəbul edir, lakin hz. İsa (ə.s)-ın öldükdən sonra dirilərək göyə yüksəldiyinə inanır. Lakin Quran ayələrində bu məlumatın doğru olmadığı, hz. İsa (ə.s)-ın ölmədiyi və öldürülmədiyi bildirilir:

**Bir də: "Həqiqətən, biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!" (katelna) dediklərinə görə (onlara belə bir cəza verdik). Halbuki onu öldürmədilər (ma katelehu) və onu asmadılar (ma salebe. Lakin onlara (onun) bənzəri göstərildi (şubbihe). Həqiqətən, Onun barəsində anlaşmazlığa düşənlər, qəti şəkk-şübhə içindədirlər. Bu haqda onların, zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. Onu əsla öldürmədilər (ma katelehu). (Nisa surəsi, 157)**

Eyni ayənin ardınca hz. İsa (ə.s)-ın Allah qatına yüksəldilməsi belə bildirilir:

**Xeyir, Allah onu Özünə tərəf qaldırmışdır (refea). Allah Üstün və Güclü olandır, Hökm və Hikmət sahibidir. (Nisa surəsi, 158)**

Ayələrdə bildirilən həqiqət açıqdır. Bəzi yəhudilərin təşviqi ilə hz. İsa (ə.s)-ı öldürməyə cəhd edən Romalılar, bunda müvəffəqiyyət qazana bilməyiblər. Ayədə işlənən: **"Lakin onlara (onun) bənzəri göstərildi"** ifadəsi bu həqiqəti bir daha təsdiqləyir.

Hz. İsa (ə.s) öldürülməmiş və Allah qatına yüksəldilmişdir. Həmçinin Allah, bu iddia ilə çıxış edənlərin həqiqətə dair məlumatları olmadığını da xəbər verir.

## Allah inkar edənlərin hz. İsa (ə.s)-a qurduqları tələni puç etmişdir

Bəzi yəhudilər və Romalı bütpərəstlərin hz. İsa (ə.s)-ı öldürmək üçün qurduqları plan, tarixin müxtəlif dövrlərində inkarçıların bir çox peyğəmbərə qarşı qurduqları tələlərdən biridir. Allah Quranda, inkarçıların nə vaxt özlərinə bir peyğəmbər gəlsə və onları həqiqi din əxlaqını yaşamağa dəvət etsə, mütləq ona qarşı müxtəlif tələlər qurduqlarını və hətta onu öldürməyə cəhd etdiklərini xəbər vermişdir.

**Biz Musaya Kitab verdik və ondan sonra bir-birinin ardınca elçilər göndərdik. Biz Məryəm oğlu İsaya da açıq-aydın dəlillər verdik və onu müqəddəs ruhla qüvvətləndirdik. Deməli, hər dəfə sizə göndərilən elçi ürəyinizə yatmayan bir şey gətirdikdə, təkəbbür göstərərək, bir qisminiz onları yalançı hesab edəcək, bir qisminiz də öldürəcəkmi? (Bəqərə surəsi, 87)**

Hz. İbrahimi oda atan, ordularıyla birlikdə hz. Musanı təqib edən, sevgili Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-i gecə basqını ilə öldürməyə cəhd edən, hz. Yusifi quyuya atıb tərk edən, təkcə: "Rəbbimiz Allahdır" dedikləri üçün möminləri yurdlarından sürgün etməyə cəhd edənlər, müxtəlif dövrlərdə yaşamış olmaqla yanaşı, bənzər düşüncəyə sahib insanlardır. Hamısı, Allaha və elçilərinə baş qaldırmağa cəhd etmiş, Allahın əmr etdiyi din əxlaqına qarşı çıxmış və axirətdə əməllərindən ötrü hesab verəcəklərini görməzlikdən gəlmişdirlər. Peyğəmbərlərin, özlərinə, Allahın qulu olduqlarını xatırlatmalarına, onları fədakar olmağa, sədəqə verməyə, Allah rizası üçün yaxşılıq etməyə, ədalətli və təvazökar olmağa dəvət etmələri qəzəblənmələrinə və Allah qatında seçilmiş və tərtəmiz olan elçilər əleyhində tələlər qurmalarına səbəb olmuşdur. İnkarçıların bu zehniyyəti bir Quran ayəsində belə bildirilir:

**...Onlara elçilər göndərdik. Hər dəfə bir elçi onlara könüllərinə yatmayan bir şey gətirəndə o elçilərin bir qismini yalançı hesab edər, bir qismini də öldürərdilər. (Maidə surəsi, 70)**

Bənzər şəkildə Məkkəli müşriklərin də mübarək Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-i yurdundan çıxartmaq və öldürmək üçün tələlər qurduqları Quranda bildirilmişdir. Rəbbimiz, inkarçılar bu tələni qurarkən Özünün də onlara bir tələ qurduğunu xəbər vermişdir. Şübhəsiz ki, tələ quranların ən üstünü uca Allahdır:

**Bir zaman inkar edənlər səni həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün sənə qarşı tələ qururdular. Onlar tələ qurdu, Allah da (bunun qarşılığında bir) tələ qurdu. Allah tələ quranların (tələlərinə qarşılıq verənlərin) ən yaxşısıdır. (Ənfal surəsi, 30)**

Daha əvvəl də ifadə etdiyimiz kimi, inkar edənlər hz. İsa (ə.s)-ı da öldürməyə cəhd ediblər. Öz aləmlərində çox əhatəli bir plan qurmuş və hz. İsa (ə.s)-ı ələ keçirərək öldürəcəklərini düşünmüşdülər. Tarixi və İslami mənbələrdə qeyd olunan məlumatlara görə, bəzi müşrik yəhudilər, romalıları hz. İsa (ə.s) əleyhinə qızışdıra bilmək üçün, hz. İsa (ə.s) haqqında bir çox yalan və böhtan ortaya atmışdırlar. Beləliklə də, Romalıların hz. İsa (ə.s)-ın öldürülməsi üçün hərəkətə keçməsini hədəfləmişdirlər. Bəzi yəhudilərin hz. İsa (ə.s) əleyhinə tələ qurduqları Quranda belə bildirilmişdir:

**İsa onlardakı inkarı hiss etdikdə dedi: "Allah üçün kimlər mənə yardımçı olacaq?" Həvarilər dedilər: "Bizik Allahın yardımçıları! Biz Allaha iman gətirdik. Şahid ol ki, biz müsəlmanlarıq! Ey Rəbbimiz! Biz sənin nazil etdiyinə iman gətirdik və göndərdiyin elçinin ardınca getdik. Bizi də şahidlərlə bir yerdə yaz!" Onlar (inkarçılar) tələ qurdular, Allah da (bunun qarşılığında bir) tələ qurdu. Allah tələ quranların ən yaxşısıdır. (Ali İmran surəsi, 52-54)**

Allah onların tələlərini heç gözləmədikləri şəkildə tərsinə çevirmişdir. Hz. İsa (ə.s)-ı əsla öldürə bilməyiblər, lakin onlara bənzəri göstərilmişdir. Rəbbimiz bu seçilən qulunu, inkar edənlərin tələlərindən qoruyub xilas etmişdir. Hz. İsa (ə.s) ölməmişdir və Allah qatında diridir. Allahın, Quranda hz. İsa (ə.s)-a qurulan tələlərin puç olduğunu bildirmiş olması da, hz. İsa (ə.s)-ın Allah qatında diri olduğunun mühüm dəlillərindən biridir. Əgər hz. İsa (ə.s) bəzilərinin iddia etdiyi kimi ölmüş olsaydı (belə ki, bu doğru deyil), o zaman bu, inkar edənlərin qurduqları tələ ilə hədəflərinə nail olduqları mənasını verərdi. Çünki bu tələnin əsas hədəfi hz. İsa (ə.s)-ın öldürülməsidir. Lakin Allah, hz. İsa (ə.s)-a qurulacaq bu tələni puç edəcəyini bildirmiş və **"...Allah, kafirlərə möminlərin əleyhində fürsət verməz"** (Nisa surəsi, 141) ayəsinin bir təcəllisi olaraq, inkar edənlərin hz. İsa (ə.s)-ı öldürmələrinə icazə verməmişdir. Quranın bir çox

ayəsində, inkar edənlərin tələlərinin əsla müvəffəqiyyət qazana bilməyəcəyi, bu tələlərin tamamilə puç edilməsinin Allahın qanununun bir tələbi olduğu xəbər verilmişdir. Ayələrdə belə buyurulur:

**Həqiqətən, onlar hiylələr qurdular. Halbuki onların hiylələri, dağları yerlərindən oynatsa da, Allah qatında onlar üçün qurulmuş hiylə (pis bir qarşılıq) var. (İbrahim surəsi, 46).**

**...Həqiqətən də, Allah kafirlərin hiylələrini puç edər. (Ənfal surəsi, 18)**

**Yoxsa bir hiylə qurmaq istəyirlər? Amma inkar edənlər özləri o hiylənin qurbanı olacaqlar. (Tur surəsi, 42)**

**Şübhəsiz ki, Allah (müşriklərin hücum və məkrli tələlərini) iman gətirənlərdən uzaqlaşdırır. Həqiqətən, Allah xain və nankor insanı sevməz. (Həcc Surəsi, 38)**

**Doğrusu onlar, hiylə qururlar; Mən də bir hiylə qururam. Sən kafirlərə müəyyən möhlət ver, az müddət ver. (Tariq surəsi, 15-17)**

**Onlardan öncəkilər də hiylə qurmuşdular. Sonra Allah onların tikililərini özülündən dağıtdı, tavanları başlarına uçdu və əzab onlara gözləmədikləri yerdən gəldi. (Nəhl surəsi, 26)**

## Quranda peyğəmbərlərin ölümündən necə bəhs edilir?

Quranda peyğəmbərlərin ölümlərinin nəql olunduğu hekayələrdə işlənən sözlərlə, hz. İsa (ə.s)-ın Allah qatına yüksəldilməsinin izah edildiyi ayələrin araşdırılması, mühüm bir həqiqəti ortaya çıxardır. Bu bölmədə hz. İsa (ə.s) hekayəsində işlənən və digər peyğəmbərlərin ölümlərini ifadə edən sözlərin ərəbcə qarşılıqlarını və Quran ayələrində nə cür istifadə edildiklərini araşdıracağıq. Quranda peyğəmbərlərin ölməsi və ya öldürülməsiylə əlaqədar, istifadə edilən sözlər gələcəkdə daha təfərrüatlı görəcəyimiz kimi; "katele (öldürmək), mate (ölmək), haleke (həlak olmaq), salebe (asmaq)" və ya bir

neçə xüsusi sözdür. Halbuki hz. İsa (ə.s) üçün, Quranda çox açıq ifadə ilə; **"onu öldürmədilər (ma katelehu) və asmadılar (ma salebuhu)"** ifadəsindən istifadə edilərək heç bir öldürmə formasıyla öldürülmədiyi vurğulanır. İnkarçılara, hz. İsa (ə.s)-ın bənzərinin göstərildiyi və onun Allah qatına yüksəldildiyi bildirilir. Ali İmran surəsində isə, hz. İsa (ə.s)-ı Allahın vəfat etdirəcəyi və onu Öz qatına yüksəldəcəyi bildirilmişdir:

**O vaxt Allah İsaya dedi: “Ey İsa! Mən səni vəfat etdirib (müteveffiyke) Özümə tərəf qaldıracağam (rafiuke), səni inkarçılardan təmizləyəcək və sənin ardınca gedənləri Qiyamət gününə qədər inkarçılardan üstün edəcəyəm ... (Ali İmran surəsi, 55)**

Quranda ölüm mənasını bildirən sözlərin və Ali İmran surəsində işlənən **"vəfat etdirmə"** sözünün istifadə formaları belədir:

## 1) Teveffa: Vəfat etdirmə

Ayədə işlənən **"vəfat"** sözü Azərbaycan dilində işlədilən ölmək mənasından fərqli mənalar verir. Ayələrin ərəbcə qarşılıqlarının araşdırılması, hz. İsa (ə.s)-ın bildiyimiz mənada ölmədiyini açıqca göstərir. Maidə surəsinin 117-ci ayəsində ölüm hadisəsindən belə bəhs edilir:

**Mən onlara ancaq Sənin mənə əmr etdiyini: “Mənim də Rəbbim, sizin də Rəbbiniz olan Allaha ibadət edin!” demişəm. 1) Nə qədər ki, onların arasındayam, mən onlara şahidəm. Məni vəfat etdirdikdə (teveffeyteni) isə, onlara şahidlik edən Özün oldun. Sən hər şeyə Şahidsən. (Maidə surəsi, 117)**

Ali İmran surəsinin 55-ci ayəsində isə, Allahın hz. İsa (ə.s)-ı "vəfat etdirəcəyi", inkarçılardan qoruyacağı və onu Öz qatına yüksəldəcəyi xəbər verilir. Ayənin təfsirindən çıxan məna, (bir çox İslam alimi və təfsirçisinin ortaq fikri ilə) hz. İsa (ə.s)-ın ölməmiş olmasıdır. Ayədə belə bildirilmişdir:

**O vaxt Allah İsaya dedi: “Ey İsa! Mən səni vəfat etdirib (müteveffiyke) Özümə tərəf qaldıracağam (rafiuke), səni inkarçılardan təmizləyəcək və sənin ardınca gedənləri**

**Qiyamət gününə qədər inkarçılardan üstün edəcəyəm. Sonra sizin dönüşünüz Mənə olacaq. Mən də anlaşmazlığa düşdüyünüz şeylər barəsində sizin aranızda hökm verəcəyəm. (Ali İmran surəsi, 55)**

Bu ayələrdə işlənən və azərbacan dilindəki tərcümələrdə öldürmə və ya vəfat etdirmə kimi, tərcümə edilən söz **ərəbcədə "vefea" kökündən törəyən "teveffa" felidir və bu fel ölüm mənasını deyil, "canın alınması" mənasını** verir. Necə ki, ərəbcə təfsirlərdə də ölüm mənasında işlədilmir. İslam alimi Qurtubinin təfsiri bunun nümunələrindən biridir. Qurtubinin təfsirində həmin bu söz üçün; "nəfslərin alınması" ifadəsi işlədilmişdir. Necə ki, insanın canının alınmasının həmişə ölüm mənasını vermədiyi yenə Quranda bizə bildirilir. Məsələn, **"teveffa"** sözünün işləndiyi bir ayədə insanın ölməsindən deyil, **yuxuda canının alınmasından** bəhs edilir:

**Sizi gecələr vəfat etdirən (yeteveffakum) və gündüzlər "nə etdiklərinizi" bilən, sonra müəyyən olunmuş əcəl çatana qədər onda sizi dirildən Odur... (Ənam surəsi, 60)**

Bu ayədə "vəfat etdirmə" kimi tərcümə edilən sözlə, Ali İmran surəsinin 55-ci ayəsində işlədilən söz eynidir, yəni hər iki ayədə də **"teveffa"** sözü işlənilir. İnsanın, gecələr içində olduğu vəziyyət ölüm olmadığına görə yuxarıdakı ayədə işlədilən **"yeteveffakum"** sözünün ölümü nəzərdə tutmadığı, düzgün tərcümənin **"gecə canlarınızı alan"** kimi olmalı olduğu aydındır. Aşağıdakı ayədə isə, eyni sözdən bu cür istifadə edilir:

**Allah, öləcəkləri (mevt) zaman canlarını alar (yeteveffa); ölməyənin də yuxusunda (canını alar) (lem temut). Beləliklə də, barəsində ölüm qərarı (el mevte) veriləni tutar, o birisini isə müəyyən olunmuş əcəli çatana qədər sərbəst buraxar... (Zumər surəsi, 42)**

Bu ayədən də aydın olacağı kimi, Allah yatan insanın canını alır, lakin barəsində ölüm qərarı verilməyəni əcəli çatana qədər təkrar sərbəst buraxır. Buna görə də, insan bildiyimiz mənada ölmüş olmaz. Təkcə müvəqqəti olaraq ruhu bədənini tərk edər və fərqli bir aləmə daxil olar. Oyanacağı vaxt isə, ruhu təkrar bədəninə qaytarılar.

Yuxunun bir növ vəfat kimi qiymətləndirildiyini, lakin bununla bioloji ölümün nəzərdə tutulmadığını göstərən nümunələrdən biri də Peyğəmbərimiz (s.ə.v)-in yuxusundan oyandığı zaman: **"Bizi öldürdükdən sonra dirildən Allaha həmd olsun"** *(Buhari, Kitabu'd Deavat 6312)* dediyini bildirən hədisdir. Şübhəsiz ki, hz. Məhəmməd

(s.ə.v) bu hikmətli sözüylə, yatılan vaxt bioloji mənada ölüm baş verdiyinə deyil, yatan insanın bizim anladığımızdan fərqli mənada "canının alındığına" diqqət çəkmişdir. Tanınmış İslam alimi və təfsirçi İbn Kəsir də, Ali İmran surəsini təfsir edərkən, digər bir çox dəlillə birlikdə həmin bu hədisdən istifadə etmişdir. İbn Kəsirin təfsirində, "teveffa" sözünün yuxuya işarə etdiyi, eyni sözün digər ayələrdə nə cür qeyd olunduğu göstərilərək izah olunur. İbn Kəsir, bu izahlardan sonra, İbn Əbu Hatimdən rəvayət edilən bir hədisdən də istifadə edərək qənaətini belə ifadə edir:

*İbn Əbu Hatim belə deyir: "Atam bizə... Həsəndən belə rəvayət etdi: “Səni vəfat etdirəcəyəm...” ayəsi barəsində bu açıqlamanı vermişdir: Burada, “Səni yuxu kimi ölüm ilə öldürəcəyəm, yəni yatırdacağam” mənasındadır ki, Allah hz. İsa (ə.s)-ı yuxuda olarkən göyə qaldırmışdır... Bu mütləq həqiqətdir ki, Allah, hz. İsa (ə.s)-ı, yuxu ilə vəfat etdirdikdən sonra göyə qaldırmış və həmin dövrdə özünə əziyyət verən yəhudilərin əziyyətlərindən xilas etmişdir”. (İbn Kesir, Tefsiru'l Kur'ani'l Azim, I cild, səh. 573-576)*

İslam alimlərindən Məhəmməd Zahid əl-Kövsəri isə, "teveffa" felinin mənasını araşdırarkən, ayədə bu felin ölüm mənası vermədiyini ifadə etmiş və Zumər surəsinin 42-ci ayəsində işlənən "ölüm" sözünə diqqət çəkmişdir:

*Əgər hz. İsa (ə.s) ölmüş olsaydı (belə ki, bu doğru deyil), "Allah ölüm vaxtı gələn nəfsləri vəfat etdirər" (Zumər surəsi, 42) tərcüməsindəki ayədə işlənən və ölüm mənasını verən "mevt" sözü bildirilməzdi... Əgər iddia edildiyi kimi, Allah adi ölümü (bioloji mənada ölümü) bildirmiş olsaydı, bu açıqca xəbər verilərdi. Madam ki, Allah, yəhudilərin hz. İsa (ə.s)-ı öldürmədiyindən, vəfatdan və göyə yüksəlməkdən bəhs etməkdədir, o zaman burada normal ölümdən başqa məna düşünülməlidir. (Zahid Kevseri, Nazratün Abire fi Mezaimi men Yünkiru Nüzule İsa kable'l-Ahire, Mısır, 1980, səh. 34-37)*

İslam tarixinin ilk təfsirçilərindən biri kimi qəbul edilən Matüridi də, ayədə hz. İsa (ə.s)-ın bilinən bioloji mənada ölümündən bəhs edilmədiyini ifadə etmişdir:

*Ayədə nəzərdə tutulan şey, ölüm mənasındakı vəfat deyil, bədənin dünyadan alınması mənasındakı vəfatdır. (Maturidi, Tev'vilatü'l Kurani'l Metaun, Beyrut, səh. 67)*

İslam alimləri, teveffa felini şərh edərkən hz. İsa (ə.s)-ın ölmədiyi, Allah qatına yüksəldildiyi və qiyamətdən əvvəl yer üzünə təkrar qayıdacağı mövzusunda ittifaq təmin ediblər. Məsələn, tanınmış təfsir alimi Təbəri, bu felin "yerdən almaq" mənasında işlədildiyini söyləyir və ayəni bu cür izah edir:

*Bizə görə ən sağlam fikir bu sözü "kabzetmek", "yerdən çəkmək" mənasında götürməkdir. Buna görə ayənin mənası; "səni yerdən alıb, göylərə çəkərəm" şəklində olar. Ayənin davamı da, Axırzamanda inkarçılara qalib gəlməyə diqqət çəkərək bu fikri təsdiqləyən mahiyyətdədir. (Taberi Tefsiri, III cild, 290-1)*

Elmalılı Həmdi Yazır (Elmalılı Hamdi Yazır), təfsirində bu ayədən başa düşülən mənanın, hz. İsa (ə.s)-ın ölmədiyi, Allah qatında diri olduğu şəklində bildirir:

*...Bizcə bu təfsir və inancın xülasəsi budur: Allah tərəfindən bir kəlmə olan və müqəddəs ruhla qüvvətləndirilmiş İsa Məsihin ruhu hələ təslim alınmamışdır. Ruhunun əcəli gəlməmişdir. Kəlmə hələ Allaha qayıtmamışdır. Onun hələ dünyada görəcəyi işlər var. (Elmalılı Hamdi Yazır, Hak Din Kuran Dili, II cild, səh. 1112-1113)*

Nəticə etibarilə, hz. İsa (ə.s)-ın yuxudakına bənzər vəziyyətə daxil edilərək Allah qatına yüksəldildiyini, hadisənin bildiyimiz ölüm olmadığını, təkcə bu aləmi tərk etmək olduğunu söyləyə bilərik (doğrusunu Allah bilər).

## 2) Katele: Öldürmək

Quranda ölüm mövzusundan bəhs edilərkən, əsasən ərəbcədə **"öldürmək"** mənasını verən **"katele"** sözündən istifadə edilir. Mümin surəsində **"katele"** sözündən bu cür istifadə edilir:

**Firon dedi: "Buraxın məni, <u>Musanı öldürüm</u> (aktul) ki, (gedib) Rəbbinə yalvarsın... (Mümin surəsi, 26)**

Ayədə işlənən "Musanı öldürüm" ifadəsinin ərəbcəsi "aktul Musa" kimidir. Bu söz katele felindən törəmişdir. Digər bir ayədə isə, eyni sözdən, bu cür istifadə edilir:

**...Peyğəmbərləri haqsız yerə <u>öldürmələrinə görə idi</u> (yaktulune)... (Bəqərə surəsi, 61)**

Ayədə işlənən "öldürmələrindən görə idi" sözünün ərəbcəsi **"yaktulune"** kimidir və yenə eynilə **katele** sözündən törəmişdir. Həmçinin tərcümədə də açıqca ifadə edildiyi kimi, **"öldürmək"** mənasını verir. Aşağıda peyğəmbərlərin ölümündən bəhs edən bəzi ayələrdə **"katele"** felinin nə cür işlədildiyi bildirilir. Mötərizə daxilində mənaları bildirilən bütün sözlərin kökləri **KATELE** feilidir:

...Onların bu sözlərini və peyğəmbərləri haqsız yerə öldürmələrini (katlehum) yazacağıq... (Ali İmran surəsi, 181)

...təkəbbür göstərərək, bir qisminiz onları yalançı hesab edəcək, bir qisminiz də öldürəcəkmi? (taktulune) (Bəqərə surəsi, 87)

...De: "Əgər inanırdınızsa, daha əvvəl nə üçün Allahın peyğəmbərlərini öldürürdünüz? (taktulune)". (Bəqərə surəsi, 91)

Allahın ayələrini inkar edənlər, peyğəmbərləri haqsız yerə öldürənlər (yaktulune) və insanlardan ədaləti əmr edənləri öldürənlər (yaktulune); ... (Ali İmran surəsi, 21)

...Əgər doğru danışanlarsınızsa, onda nə üçün onları öldürürdünüz? (kateltumuhum) (Ali İmran surəsi, 183)

...O belə demişdi: "Səni mütləq öldürəcəyəm"... (Le aktulenneke) (Maidə Surəsi, 27)

Əgər məni öldürmək (taktuleni) üçün, əlini mənə uzatsan, mən səni öldürmək (aktuleke) üçün əlimi sənə uzadan deyiləm... (Maidə surəsi, 28)

Öldürün (uktulu) Yusifi və ya onu bir yerə atıb tərk edin... (Yusif surəsi, 9)

Fironun zövcəsi dedi: “Bu uşaq həm mənim, həm də sənin üçün gözaydınlığıdır. Onu öldürməyin... (la taktulu)” (Qəsas surəsi, 9)

"Ey Musa! Qabaqcıllar səni öldürmək (li yaktulu) barəsində məşvərət edirlər..." (Qəsas surəsi, 20)

Qövmünün (İbrahimə) cavabı isə ancaq: “Ya onu öldürün (uktuluhu), ya da yandırın!” demələri oldu... (Ənkəbut surəsi, 24)

## 3) Haleke: Ölmək

Quranda öldürmək feli üçün işlədilən digər bir söz də, **"haleke"** felidir. Haleke sözü ayələrdə **"həlak olmaq, ölmək"** mənalarında işlədilir. Məsələn, Mümin surəsinin 34-cü ayəsində belə işlənir:

**...Nəhayət, o, vəfat etdikdə (haleke) dediniz: "Allah ondan sonra elçi göndərməyəcəkdir!"... (Mümin surəsi, 34)**

Ayədə, azərbaycan dilinə **"vəfat etdikdə"** kimi tərcümə edilən sözün ərəbcəsi **"iza heleke"** kimidir və bu sözün mənası da ölmək deməkdir.

## 4) Mate: Ölüm

Quranda peyğəmbərlərin ölümü ilə əlaqədar işlədilən digər bir söz isə **"mate"** sözüdür. Mata sözü ayələrdə **"ölmək"** mənasında işlədilir. Səba surəsində hz. Süleymanla əlaqədar belə bildirilir:

**Onun <u>(Süleymanın) ölümünə (el mevte) hökm verdiyimiz zaman onun öldüyünü (mevtihi)</u>, onlara ancaq əsasını yeyən bir ağac qurdu xəbər verdi... (Səba surəsi, 14)**

Eyni kökdən gələn digər bir söz isə, hz. Yəhya barəsində işlədilir:

**...Doğulduğu gün də, <u>öləcəyi gün (yemutu)</u> də, yenidən dirildiləcəyi gün də ona salam olsun! (Məryəm surəsi, 15)**

Bu ayədə **"öləcəyi"** kimi tərcümə edilən sözün ərəbcəsi **"yemutu"** sözüdür. Eyni söz hz. Yaqubun ölümü ilə əlaqədar ayələrdə də işlədilir:

**Yoxsa siz Yaqubun ölüm anında (el mevte) onun yanında idiniz? (Bəqərə surəsi, 133)**

Bu ayədə işlənən **"el mevte"** sözü də yenə eyni kökdən gəlir və ölüm mənası daşıyır.

Hz. Məhəmməd (s.ə.v) ilə əlaqədar bir ayədə isə, **"katele"** və **"mate"** felləri eyni anda işlədilir:

**Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də elçilər gəlib getmişlər. Məgər o ölərsə (mate) və ya öldürülərsə (kutile) siz gerimi dönəcəksiniz?... (Ali İmran surəsi, 144)**

Mate (ölmək) kökündən gələn mevt sözü, yenə peyğəmbərlərin ölümlərindən bəhs edilən başqa ayələrdə də işlənilir:

**...O dedi: "Kaş bundan əvvəl öləydim (mittu) və bir dəfəlik unudulaydım!" (Məryəm surəsi, 23)**

**Səndən əvvəl də heç bir bəşərə ölümsüzlük (el hulde) nəsib etmədik. Məgər sən öləcəksən (mitte), onlar həmişəlik qalacaqlar?! (Ənbiya surəsi, 34)**

**O Rəbb ki, məni öldürəcək (yumituni), sonra dirildəcəkdir. (Şuəra surəsi, 81)**

## 5) Halid: Ölümsüz

Ayələrdə işlənib, bilavasitə ölmək və ya öldürmək felini deyil, təkcə ölümsüzlüyü ifadə edən digər bir söz də, **"halid"** sözüdür. Halid sözünün mənası daimi olmaq, ölməzliyi davam etmək kimidir. Ənbiya surəsində **"halid"** sözündən bu cür istifadə edilmişdir:

**Biz onları yemək yeməyən bir vücud etmədik. Onlar əbədi (halidiyne) də deyillər. (Ənbiya surəsi, 8)**

## 6) Salebe: Asmaq

Quranda peyğəmbərlərin ölümlərindən bəhs edilərkən işlədilən sözlərdən biri də salebe (asmaq) felidir. Salebe feli **"asmaq, çarmıxa çəkmək və edam etmək"** kimi mənalara gəlir. Bu fel ayələrdə bu cür işlədilir:

**...Halbuki onu öldürmədilər və onu <u>asmadılar (ma salebu)</u>... (Nisa surəsi, 157)**

**...Sizdən biriniz öz ağasına şərab içirdəcək, digəriniz isə <u>asılacaq (yuslebi)</u>... (Yusif surəsi, 41)**

**...Ancaq öldürülmələri və ya <u>asılmaları (yusallebu)</u>... (Maidə surəsi, 33)**

**Mütləq əllərinizi və ayaqlarınızı çarpaz kəsəcək, sonra da hamınızı <u>edam edəcəyəm (usallibennekum)</u>. (Əraf surəsi, 124)**

**...Mən sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsdirib xurma ağaclarının gövdələrində <u>asacağam (usallibennekum)</u>... (Taha surəsi, 71)**

**...Mən sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsdirib hamınızı <u>asacağam (usallibennekum)</u>. (Şuəra surəsi, 49)**

Ayələrdən də göründüyü kimi, digər peyğəmbərlərin ölümlərinin çatdırıldığı ayələrdə çox müxtəlif sözlərdən istifadə edilir. Allah Quran ayələrində hz. İsa (ə.s)-ın öldürülmədiyini, insanlara onun bir bənzərinin göstərildiyini, onu Öz qatına yüksəltdiyini bildirmişdir. Hz. İsa (ə.s) üçün **"canını almaq"** mənasını verən **"teveffa"** feli işlədildiyi halda, digər peyğəmbərlər üçün normal ölümü ifadə edən katele və ya mevt kimi fellər işlədilir. Bu məlumatlar isə, bizə hz. İsa (ə.s)-ın vəziyyətinin fövqəladəliyini bir daha göstərir.

## Allah hz. İsa (ə.s)-ı öz qatına yüksəltmişdir

Hz. İsa (ə.s)-ın ölməmiş və öldürülməmiş olmasının mühüm dəlillərindən biri də, Rəbbimizin hz. İsa (ə.s)-ı Özünə tərəf qaldırdığını bildirməsidir. Ayələrdə bu həqiqət belə bildirilir:

**...Mən səni vəfat etdirib Özümə tərəf qaldıracağam (rafiuke), səni inkarçılardan təmizləyəcək və sənin ardınca gedənləri Qiyamət gününə qədər inkarçılardan üstün edəcəyəm... (Ali İmran surəsi, 55)**

**...Əksinə (bel); Allah onu Özünə tərəf qaldırdı (refea). Allah üstün və güclüdür, hökm və hikmət sahibidir. (Nisa surəsi, 158)**

Allah hz. İsa (ə.s)-ı Özünə tərəf qaldıraraq onu, inkar edənlərin hiylələrindən qorumuş və xilas etmişdir. Ayələrdə **"rafiuke"** və **"refea"** kimi işlənən sözün ərəbcə kökü "ref" sözüdür. Ref sözünün lüğəvi mənası **"yüksəlməkdir"**. İslam alimi Əşari, Ali İmran surəsinin 55-ci ayəsini, Nisa surəsinin 158-ci ayəsi ilə birlikdə izah etmiş və bu mövzudakı qənaətini belə ifadə etmişdir: **"Hz. İsa (ə.s)-ın diri vəziyyətdə səmaya ref edildiyi (yüksəldildiyi) barəsində, ümmətin icmai var"** *(Eşari, el-İbane an Usuli'd Diyane, thk. ve ta'l. Fevkıyye Hüseyin Mahmud, Kahire, 1986, II, səh. 115)* (icma-i ümmət: eyni əsrdə yaşamış İslam alimlərindən müctəhid olanların, bir məsələ barəsində verilən hökmdə birləşmələridir).

İslam alimlərinin böyük əksəriyyəti bu ayələri izah edərkən; **"hz. İsa (ə.s)-ın ölmədiyi, Allah qatına yüksəldildiyi və bu yüksəlmənin ruhu və bədəni ilə birlikdə baş verdiyi"** barəsində həmfikirdirlər.

Həsən Bəsri Çantay (Hasan Basri Çantay) təfsirində, "rafiuke" sözünü "Özünə yüksəldib qaldırmaq" kimi təfsir etmiş və fikrini: "Allah hz. İsa (ə.s)-ı ruhu və bədəni ilə birlikdə yüksəldib qaldırmışdır" kimi açıqlamışdır. *(Hasan Basri Çantay, Kuran-ı Hakim ve Meal-i Kerim, I cild, səh. 92)*

İbn Teymiyyənin izahı isə belədir: **"Allah onu Öz qatına yüksəltdi... ayəsi, hz. İsa (ə.s)-ın ruhu və bədəni ilə yüksəldildiyini izah edir..."** *(İbn Teymiyye, Mecnuu Fetava, IV, s. 323)*

Zahid Kövsəri isə, Quranda hz. İsa (ə.s)-ın Allah qatına yüksəldilməsi məsələsinin etiraz edilə bilməyəcək qədər açıq və dəqiq olduğunu ifadə edir. Ali İmran surəsinin 55-ci ayəsini və Nisa surəsinin 157-ci və 158-ci ayələrini dəlil kimi göstərən Kövsəri, bu ayələrdə hz. İsa (ə.s)-ın refinin nass **(Nass: Konkretlik, açıqlıq. Qurani Kərimdə və ya hədislərdə bir iş və ya mövzu haqqında olan açıqlıq və bu şəkildə açıq olan kəlam və ayə)** hökmündə olduğunu söyləyir və məsələni belə izah edir:

*Çünki refin əsil mənası demək olar ki, düzgün nəql olunmuşdur. Burada ayələri məcazi mənada izah edə biləcək bir xüsus yoxdur. Dolayısilə şərəf və mövqe baxımından yüksəltmə kimi bir mənanı çıxartmağa çalışmağın bir dəlili yoxdur. (Zahid Kevseri, Nazratün Abire, səh. 93)*

Quran ayələrindən və İslam alimlərinin açıqlamalarından açıqca göründüyü kimi, hz. İsa (ə.s) diri vəziyyətdə, bədəniylə Allah qatına yüksəldilmişdir. Bu, Allahın möcüzəsidir və iman gətirənlərin böyük şövq və həyəcan duyacaqları bir möcüzədir. Hz. İsa (ə.s)-ın təkcə ruhunun Allah qatına yüksəldildiyi və ya bu yüksəldilmə ilə mənəvi (mövqe cəhətdən) yüksəlişin nəzərdə tutulduğu iddiaları isə, həqiqəti əks etdirmir. Yuxarıda da bəzi nümunələri verildiyi kimi, bir çox İslam alimi bu iddiaların əsassızlığını əsərlərində sübut ediblər.

Hz. İsa (ə.s)-ın diri vəziyyətdə Allah qatına yüksəldilməsinin digər mühüm dəlili isə, Nisa surəsinin 158-ci ayəsində işlədilən ərəbcə **"bel"** zərfidir. Azərbaycan dilinə "əksinə" mənasında tərcümə edilən bu zərfin, ərəb qrammatikasındakı mənası və istifadə olunma xüsusiyyətləri çox mühüm bir həqiqətə diqqət çəkir. Buna görə də, bel zərfi inkar cümləsindən sonra gəlsə, ərəb qrammatikasının qaydalarına görə özündən sonra gələn cümlə, əvvəlki cümlənin tam əksi olmalıdır. Belə olan halda, hz. İsa (ə.s) ilə əlaqədar bildirilən ayədə də: **"...Onu öldürmədilər, əksinə (bel) Allah onu Özünə yüksəltdi..."** ifadəsində ölümün tam əksi olan canlılığa işarə edilməsi də mümkündür (doğrusunu Allah bilər). Mövzuyla əlaqədar, son dövr İslam alimlərindən şeyxülislam Mustafa Səbri Əfəndi də bu şərhi verir:

*Nisa surəsinin 158-ci ayəsidə işlənən və bilakis (əksinə) kimi tərcümə etdiyimiz, "bel" zərfi inkar cümləsindən sonra gəlsə, ərəb qrammatikasının qaydasına görə özündən sonrakı cümlə, özündən əvvəlki cümlənin tamamilə əksi olmalıdır. Ölümün əksi canlılıqdır. Qrammatik qaydalar bunu tələb edir. Əgər biz "burada mənəvi refdən söhbət gedir" və "hz. İsa (ə.s) normal olaraq vəfat etmişdir" desək bu qanuna tərs düşərik. Çünki bu təqdirdə bel zərfindən sonra gələn ref, zərfdən əvvəl gələn eyni zamanda inkar cümləsi olan öldürmə və asma fellərinə tərs olmaz. Çünki bir şəxs həm öldürülmüş, həm də ruhu göyə yüksəlmiş ola bilər. Əks halda bu ifadə mənasız olar ki, Qurani Kərim belə mənasız ifadələrdən uzaqdır... Refin təkcə ruhən olduğunu müdafiə edənlərin şərhlərinə görə ayənin tərcüməsi belədir: "Onu öldürmədilər və asmadılar...*

*əksinə Allah onun dərəcəsini yüksəltdi". Nəinki burada sanballı söz, orta dərəcəli bəlağət (gözəl söz söyləmək sənəti) də yoxdur... "Mənzilin lifti məni hər gün qaldığım dördüncü mərtəbəyə çıxardar" deyildikdə, heç bir ağıllı insan bu sözdən məni təkcə ruhən dördüncü mərtəbəyə çıxardar kimi bir məna anlamaz. O zaman hz. İsa (ə.s) da təkcə ruhən yüksəldilməmişdir. (Mustafa Sabri, Mevkıfu'l Akl, səh. 233)*

Səid Ramazan əl-Butinin İslam Əqaidi adlı əsərində isə, eyni mövzu bu cür izah olunmuşdur:

*Ayənin əvvəlki hissəsi ilə sonrakı hissələri arasındakı qarşılıqlı uyğunluq, zəruri olaraq bir həqiqəti ortaya çıxardır. Məsələn, bir ərəbin: "Mən ac deyiləm, əksinə səndələyirəm" deməsi düzgün bir cümlə deyil. Eynilə: "Halid ölmədi, əksinə o yaxşı bir insandır" cümləsi də sözləri baxımından qırıq cümlədir. Düzgün variantı isə: "Halid ölmədi, əksinə yaşayır" kimi olmalıdır. "Başçı öldürülmədi, o Allah qatında dərəcəsi üstün bir insandır" demək, cümlədə məna itkisi yaradar. Çünki onun Allah qatında yüksək dərəcə sahibi olması, öldürülməsinə maneə deyil. "Bel" zərfi, əvvəlki sözlə sonrakı söz arasında müəyyən ziddiyyət ifadə edər. Yəni "bel" özündən əvvəl keçmiş bir hökmü aradan qaldırar. (M. Said Ramazan el-Buti, Yaratıcının Varlığı ve Yaratılanın Görevi İslam Akaidi, Mavde nəşriyyatı, İstanbul, 1996, səh. 338)*

Açıqca göründüyü kimi, üstün güc və qüdrət sahibi olan Allah, hz. İsa (ə.s)-a qurulan tələni, onu diri şəkildə Öz qatına yüksəldərək puç etmişdir. Bütün bu dəlillər bir daha hz. İsa (ə.s)-ın Allah qatında diri olduğunu və Rəbbimizin təqdir etdiyi vaxtda yenidən yer üzünə gələcəyini göstərir (doğrusunu Allah bilər).

## Allahın hz. İsa (ə.s)-ı inkar edənlərdən təmizləməsi

Hz. İsa (ə.s)-ın Allah qatına yüksəldilməsi mövzusunda, ayələrdə verilən məlumatlardan biri də; Allahın hz. İsa (ə.s)-ı inkarçılardan təmizləyəcəyini bildirmiş olmasıdır. Ali İmran surəsinin 55-ci ayəsində belə buyurulmuşdur:

**...Səni Özümə tərəf qaldıracağam (rafiuke), səni inkarçılardan təmizləyəcək (mutahhiruke) və sənin ardınca gedənləri Qiyamət gününə qədər inkarçılardan üstün edəcəyəm... (Ali İmran surəsi, 55)**

Ayənin ərəbcəsində işlənən "mutahhiruke" sözünün kökü "tahara" sözüdür və lüğəvi mənası; təmiz olmaqdır. İslam alimləri, ayədə bildirilən bu ifadənin, hz. İsa (ə.s)-ın diri şəkildə Allah qatına yüksəldilmiş olmasının dəlillərindən biri olduğunu qəbul edirlər. İslam alimlərinə görə ayənin təfsiri; *"səni alıram, qatıma yüksəldirəm və səni kafirlər və facirlərlə (yalançı, fasiq, zinakar) çirklənən bu mühitdən uzaqlaşdırıram"* kimidir.

Buna görə də, Allahın hz. İsa (ə.s)-ı inkar edənlərdən təmizləməsi; hz. İsa (ə.s)-ı öldürmək üçün, qurulan tələlərin puç olması və inkarçıların bu hədəflərinə nail ola bilməmələri, yəni hz. İsa (ə.s)-ın diri şəkildə Allah qatına yüksəldilməsi mənasını verir (doğrusunu Allah bilər). Həmçinin ayədə bildirilən ifadədən, hz. İsa (ə.s)-ın təmizlənməsiylə bədən cəhətdən və inkar edənlərin olduğu mühitdən ayrılaraq təmizlənməsinin bildirildiyi aydın olur (doğrusunu Allah bilər). Beləliklə də, bəzi insanların irəli sürdüyü, hz. İsa (ə.s)-ın ölərək təkcə ruhunun Allah qatına yüksəldildiyi iddiasının əsassızlığı bir daha ortaya çıxır. Hz. İsa (ə.s)-ın təkcə ruhunun yüksəlməsi, ayədə bildirilən təmizlənmənin gerçəkləşməsi mənasını verər.

Ayədə bildirildiyi kimi bir təmizlənmə ola bilməsi üçün, hz. İsa (ə.s), ruhu və bədəniylə birlikdə inkarçıların olduğu mühitdən ayrılmalıdır. Həmçinin, ruhən, yəni mənəvi cəhətdən təmizlənmə, hz. İsa (ə.s.) kimi üstün əxlaqlı, Allah qatında şərəfli və dərin iman sahibi bir peyğəmbər üçün mümkün ola bilməz. Hz. İsa (ə.s)-ın üstün əxlaqı Məryəm surəsinin 33-cü ayəsində də belə bildirilmişdir: **"Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!".** Hz. İsa (ə.s)-ın ruhu, saleh bir mömin və Allahın elçisi olmasından ötrü, Allahın icazəsi ilə, tərtəmizdir. Lakin, içində olduğu mühit müşriklərin və inkarçıların çirkin əxlaqları və pis davranışlarından ötrü təmiz deyil. Necə ki, bir ayədə, Rəbbimiz müşriklərin, pis əxlaqlarından ötrü murdar olduqlarına işarə etmişdir:

**Ey iman gətirənlər! Həqiqətən də, müşriklər murdardırlar. Odur ki, özlərinin bu ilindən sonra Məscidulharama yaxınlaşmasınlar... (Tövbə surəsi, 28)**

Dolayısilə, hz. İsa (ə.s)-ın inkar edənlərdən təmizlənməsi, özünün bədəniylə onların olduğu mühitdən ayrılması mənasını verir. Allah, hz. İsa (ə.s)-ı inkar edənlərdən və onların qurduqları tələlərdən təmizləyib qorumuşdur. Bu da Rəbbimizin hz. İsa (ə.s)-ı Öz qatına yüksəltməsi ilə baş vermişdir (doğrusunu Allah bilər).

Misirli alim Xəlil Hərras isə, ayədə bildirilən "təmizlənmə" ifadəsinin hikməti ilə əlaqədar belə bir açıqlama verir:

*Hz. İsanın küfr edənlərdən təmizlənməsi, onların təxribatçı tələlərindən xilas olması sayəsində mümkün olar. Bu isə, hz. İsanın ölümü və torpağa basdırılmasıyla deyil, diri şəkildə göyə yüksəldilməsiylə baş verə bilər. Çünki düşmənləri, hz. İsaya bənzətdikləri insana etdikləri kimi, onun bədəninə işgəncə tətbiq edə bilərdilər... (Halil Herras, Hz. İsa Gelecek mi?, Isparta, yanvar 2002, səh. 66)*

Hz. İsa (ə.s)-ın inkar edənlərdən təmizlənməsi, Elmalılı Həmdi Yazır (Elmalılı Hamdi Yazır) təfsirində də ifadə edildiyi kimi, hz. İsa (ə.s)-ın Allah qatına yüksəlməsiylə təcəlli edir:

*...Və bu yüksəltmə ilə, o küfr edən, kafirlərdən səni təmizləyəcəyəm, artıq onlarla əlaqən qalmayacaq... (Elmalılı Hamdi Yazır, Hak Din Kuran Dili, II cild, səh. 1112-1113)*

# Hz. İsa (ə.s)-ın yer üzünə qayıtması

Bu bölməyə qədər qeyd edilənlərdən, hz. İsa (ə.s)-ın ölmədiyi və Allah qatına yüksəldilmiş olduğu açıqca aydın olur. Lakin Quranda diqqət çəkilən digər bir mühüm mövzu daha var, belə ki, bu, hz. İsa (ə.s) yer üzünə yenidən qayıdacağıdır.

Hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gələcəyi mövzusu Quranda çox açıq şəkildə bildirilmişdir. Quranda bildirilən bu dəlillər belədir:

## 1-ci dəlil

Hz. İsa (ə.s)-ın ikinci dəfə yer üzünə enəcəyinə dair işarələr daşıyan ayələrdən ilki Ali İmran surəsinin 55-ci ayəsidir:

**O vaxt Allah İsaya dedi: "Ey İsa! Mən səni vəfat etdirib Özümə tərəf qaldıracağam, səni inkarçılardan təmizləyəcək və sənin ardınca gedənləri Qiyamət gününə qədər inkarçılardan üstün edəcəyəm. Sonra sizin dönüşünüz Mənə olacaq. Mən də anlaşmazlığa düşdüyünüz şeylər barəsində sizin aranızda hökm verəcəyəm. (Ali İmran surəsi, 55)**

Ayədəki: **"Sənin ardınca gedənləri Qiyamət gününə qədər inkarçılardan üstün edəcəyəm"** ifadəsi diqqət çəkir. Quranda qiyamətə qədər inkar edənlərdən üstün olan və hz. İsa (ə.s)-a həqiqi mənada itaət edən bir qrupun varlığından danışılır. Bəs bu itaət edənlər kimdir? Hz. İsa (ə.s) dövründə yaşayan həvarilərmi, yoxsa hazırkı dövrdə yaşayan xristianlardırmı?

Hz. İsa (ə.s.) Allah qatına yüksəlmədən əvvəl ona itaət edənlərin sayı çox az idi. Həmçinin o, dünyadan ayrıldıqdan sonra da, xristianlıqda sürətli degenerasiya başlandı. Həmçinin həvarilər, ciddi təzyiq altında yaşamaq məcburiyyətindəydilər. Sonrakı iki əsr müddətində də, hz. İsa (ə.s)-a iman gətirənlər eyni təzyiqlərə məruz qaldılar; çünki heç bir siyasi gücə sahib deyildilər. Belə olan halda, keçmişdə yaşayan xristianların, inkar edənlərə üstün gəldiklərini və bu ayənin onlara işarə etdiyini söyləyə bilmərik.

Daha sonrasına, yəni hazırda yaşayan xristianlara baxdığımız vaxt isə, onsuz da xristianlığın əslinin dəyişdirildiyini, hz. İsa (ə.s)-ın bəhs etdiyi haqq dindən fərqli bir din meydana gəldiyini görərik. Hz. İsa (ə.s)-ın Allahın oğlu olduğu şəklindəki azğın inanc mənimsənilmiş və təslis inancı (üçləmə; Ata, Oğul və Müqəddəs Ruh) qəbul edilmişdir

(Allahı tənzih edirik). Belə olan halda, dinin əslindən xeyli uzaqlaşan hazırkı xristianları da hz. İsa (ə.s)-a vəhy edilən haqq dinə tabe olanlar kimi qəbul edə bilmərik. Quranda təslis inancının azğın inanc olduğu belə bildirilmişdir:

**“Allah üçlüyün üçüncüsüdür!” deyənlər artıq küfr edənlərdən oldular. Halbuki Tək İlahdan başqa heç bir İlah yoxdur.... (Maidə Surəsi, 73)**

Belə olan halda: **"Sənin ardınca gedənləri Qiyamət gününə qədər inkarçılardan üstün edəcəyəm"** ifadəsi açıq işarə daşıyır. Hz. İsa (ə.s)-a itaət edən və qiyamətə qədər yaşayacaq bir cəmiyyət olmalıdır. Şübhəsiz ki, belə bir cəmiyyət, hz. İsa (ə.s)-ın yer üzünə təkrar gəlməsiylə yaranacaq. Həmçinin, təkrar dünyaya gəldiyi zaman, ona itaət edənlər, qiyamətə qədər inkar edənlərdən üstün ediləcək.

## <u>2-ci dəlil</u>

Mövzu ilə əlaqədar olaraq ələ aldığımız Nisa surəsinin 156-158-ci ayələrinin ardınca Allah, 159-cu ayədə belə buyurur:

**Kitab əhlindən <u>elə kimsə yoxdur ki, ölümündən əvvəl ona iman gətirməsin</u>. Qiyamət günü isə, O onların şahidi olacaqdır. (Nisa surəsi, 159)**

Yuxarıdakı ayədə qeyd olunan: **"Elə kimsə yoxdur ki, ölümündən əvvəl ona iman gətirməsin"** ifadəsi olduqca diqqət çəkir. Bu cümlənin ərəbcə qarşılığı belədir: **"...ve in min ehlil kitabi illa leyüminenne bihi kable mevtihi".**

Burada bəzi təfsirçilər "o" əvəzliyinin hz. İsa (ə.s) əvəzinə Qurana işarə etdiyini düşünmüş və ayəni Kitab əhlinin ölmədən Qurana iman gətirəcəyi kimi şərh ediblər.

Halbuki bu ayədən əvvəlki iki ayədə də, "o" əvəzliyi mübahisəsiz şəkildə hz. İsa (ə.s) üçün işlədilmişdir:

**Bir də: “Həqiqətən, biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!” dediklərinə görə (onlara belə bir cəza verdik). Halbuki onu öldürmədilər və asmadılar. Lakin onlara (onun) bənzəri göstərildi. Həqiqətən onun barəsində anlaşmazlığa**

**düşənlər, qəti şəkk-şübhə içindədirlər. Bu haqda onların, zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. Onu əsla öldürmədilər.**

**Xeyir, Allah onu Özünə tərəf qaldırdı. Allah Üstün və Güclü olandır, Hökm və Hikmət sahibidir. (Nisa surəsi, 157-158)**

Bu ayələrin dərhal ardınca gələn ayədə işlədilən "o" əvəzliyi ilə, hz. İsa (ə.s)-dan başqa bir insanın və ya varlığın nəzərdə tutulduğuna dair heç bir dəlil yoxdur. Nisa surəsinin 159-cu ayəsində belə deyilir:

**Kitab əhlindən elə kimsə yoxdur ki, ölümündən əvvəl ona iman gətirməsin. Qiyamət günü isə, O, onların şahidi olacaqdır. (Nisa surəsi, 159)**

Digər tərəfdən ayənin ikinci cümləsində qeyd olunan: **"Qiyamət günü isə, O, onların şahidi olacaqdır"** ifadəsi də diqqət çəkir. Quranda qiyamət günü insanın dilinin, əllərinin və ayaqlarının (Nur surəsi, 24, Yasin surəsi, 65), eşitmə, görmə duyğularının və dərilərinin (Fussilət surəsi, 20-23) öz əleyhlərində şahidlik edəcəkləri bildirilir. Quranın şahidliyi ilə əlaqədar isə, heç bir ayə yoxdur. İlk cümlənin (qrammatik və ya məntiqi cəhətdən heç bir dəlil olmamasına baxmayaraq) Qurana işarə etdiyi fikir qəbul edilsə, ikinci cümlədə işlədilən "o" əvəzliyinin də Qurana işarə etdiyi iddia edilmiş olar. Halbuki bunu söyləmək üçün açıq bir ayə olmalıdır. Bununla yanaşı, əvvəlki ayədə bildirilən: **"...Allah onu Özünə tərəf qaldırdı"** ifadəsi də, bu ayədə Qurana işarə edilmədiyini bir daha göstərir. Quran 1400 ildir ki, iman gətirənlər üçün hidayət rəhbəridir və Allah qatına yüksəldilməmişdir. Allah qatına yüksəldilən hz. İsa (ə.s)-dır. Bu da ayədə bildirilən şahidliyin, hz. İsa (ə.s)-ın Kitab əhli üçün edəcəyi şahidlik olduğunu, ayədə "o" əvəzliyi ilə Qurana işarə edilmədiyini göstərən digər bir dəlildir (doğrusunu Allah bilər).

Digər ayələrdə eyni əvəzliyin, Qurana işarə etdiyi hallarda, (Nəml surəsi, 77 və Şuəra surəsi, 192-196-da olduğu kimi) ayənin əvvəlində və ya sonrasında Qurandan bəhs edildiyini görərik. Ayənin əvvəlində, sonrasında və ya daxilində Qurandan bəhs edilmirsə, bu ayənin Quranı təsvir etdiyini söyləmək yanlış olar. Bu ayədə isə, çox açıq şəkildə hz. İsa (ə.s)-a iman gətirilməsindən və onun iman gətirənlərə şahid olmasından bəhs edilir.

Ayənin mənası barəsində söyləyəcəyimiz ikinci xüsus isə, **"ölümündən əvvəl"** ifadəsinin şərhi ilə əlaqədardır. Bəziləri bu ifadənin "Kitab əhlinin öz ölümlərindən əvvəl" inanması mənasında olduğunu düşünürlər. Buna görə də, Kitab əhlindən olan hər insan özünə ölüm gəlmədən hz. İsa (ə.s)-a mütləq iman gətirəcək. Halbuki ərəb qrammatikası, bu iddianın düzgün olmadığını göstərir. Quranda Kitab əhli ilə əlaqədar

bütün ayələrdə, çoxluğu ifadə edən "hum" şəkilçisindən istifadə edilmişdir (Beyyinə surəsi, 1 və 6, Hədid surəsi, 29, Həşr surəsi, 2 də olduğu kimi). Bu ayədə isə, təkliyi ifadə edən "hu" şəkilçisindən istifadə edilmişdir. Belə olan halda, ayədə, hz. İsa (ə.s)-ın ölümündən (yəni yer üzünə ikinci dəfə gəlib bioloji cəhətdən ölməsindən) əvvəl, Kitab əhlinin özünə iman gətirəcəyi bildirilir (doğrusunu Allah bilər). Həmçinin hz. İsa (ə.s) dövründə Kitab əhlindən olan yəhudilər ona iman gətirməməklə kifayətlənməmiş, hətta onu öldürmək üçün tələ də qurmuşdurlar. Hz. İsa (ə.s)-dan sonra yaşayıb ölən yəhudi və xristianların isə, hz. İsa (ə.s)-a (Quranda bildirildiyi şəkildə) iman gətirmiş olduqlarını iddia etmək qeyri-mümkündür. Nəticə etibarilə, ayəni diqqətlə qiymətləndirdiyimiz vaxt, mənanın bu cür olduğu nəticəsinə gəlirik: **"Hz. İsa ölmədən əvvəl bütün Kitab əhli ona iman gətirəcək".** Yəni, hz. İsa (ə.s) ikinci dəfə dünyaya gəldikdə bütün Kitab əhli ona itaət edərək müsəlman olacaq və İslam əxlaqı yer üzünə hakim olacaq.

Həmçinin, ayədə gələcəkdən bəhs edildiyi aydındır, çünki hz. İsa (ə.s)-ın "ölümü"ndən söhbət gedir. Halbuki o ölməmiş Allah qatına yüksəlmişdir. Əvvəla hz. İsa (ə.s) dünyaya yenidən gələcək və hər insan kimi yaşayıb öləcək. İkincisi isə, hz. İsa (ə.s)-a bütün Kitab əhlinin iman gətirməsindən söhbət gedir. Bu da hələ gerçəkləşməmiş, lakin mütləq gerçəkləşəcəyi bildirilən bir hadisədir.

Dolayısilə burada **"ölümündən əvvəl"** deyilərək, barəsində əvəzliklə bəhs edilən insan hz. İsa (ə.s)-dır. Kitab əhli onu görüb tanıyacaq, ona yaşayarkən itaət edəcək və hz. İsa (ə.s) da onların vəziyyətləriylə əlaqədar axirətdə şahidlik edəcək (doğrusunu Allah bilər).

## 3-cü dəlil

Hz. İsa (ə.s)-ın Axırzamanda yenidən yer üzünə qayıdacağı ilə əlaqədar digər bir ayə isə, Zuxruf surəsinin 61-ci ayəsidir. Bu surənin 57-ci ayəsindən etibarən hz. İsa (ə.s)-dan bəhs edilir:

**Məryəm oğlu (İsa) nümunə olaraq verildikdə, sənin qövmün dərhal ondan (həzz alaraq bəhs edib) qəhqəhələrlə gülürlər. Onlar dedilər: "Bizim ilahlarımız yaxşıdır, yoxsa o?" Onlar bunu təkcə mübahisə yaranması üçün, (nümunə) verdilər. Xeyr, onlar "mübahisəçi və düşmən" qövmdürlər. O, yalnız Bizim nemət verdiyimiz və İsrail oğullarına nümunə etdiyimiz quldur. Əgər istəsəydik, sizi, yer üzündə sizi əvəz edəcək mələklər olaraq yaradardıq. (Zuxruf surəsi, 57-60)**

Bu ayələrin dərhal ardınca gələn 61-ci ayədə isə, hz. İsa (ə.s)-ın qiyamət saatı üçün, bir elm olduğu bildirilir:

**Həqiqətən, O, Qiyamət saatı üçün bir elmdir. O zaman Onun barəsində şəkk etməyin və Mənə tabe olun. Budur, düz yol! (Zuxruf surəsi, 61)**

Bu ayədə hz. İsa (ə.s)-ın Axırzamanda yer üzünə qayıdacağı bildirilir. Çünki hz. İsa (ə.s), Quranın endirilməsindən təxminən altı əsr əvvəl yaşamışdır. Dolayısilə, bu ilk həyatını: **"Qiyamət saatı üçün bir məlumat",** yəni bir qiyamət əlaməti kimi başa düşə bilmərik. Ayənin işarə etdiyi məna, hz. İsa (ə.s)-ın, Axırzamanda, yenidən yer üzünə qayıdacağı və bunun da bir qiyamət əlaməti olacağıdır (doğrusunu Allah bilər). Bu ayədə qeyd olunan: **"O, qiyamət saatı üçün bir elmdir"** cümləsinin ərəbcə qarşılığı belədir: **"İnnehu le ilmun lissaati".** Bu cümlədə işlədilən "hu" əvəzliyini "Quran" kimi şərh edənlər var. Lakin Quran üçün "hu" əvəzliyindən istifadə edildikdə, mütləq, ya ayənin əvvəlində, ya sonrasında ya da daxilində Qurandan bəhs edən başqa ifadələr də olur. Başqa bir mövzu daxilində "hu" əvəzliyi ilə Qurandan bəhs edilməz. Həmçinin əvvəlki ayəyə baxıldığı vaxt, orada da açıqca hz. İsa (ə.s) nəzərdə tutularaq "o" əvəzliyindən istifadə olunduğu görünəcək:

**“O, yalnız və yalnız Bizim nemət verdiyimiz və İsrail oğullarına nümunə etdiyimiz bir quldur”.**

Bu əvəzliyin Qurana işarə etdiyini söyləyənlər isə, ayənin davamında qeyd olunan: **"O zaman Onun barəsində şəkk etməyin və Mənə tabe olun"** ifadəsini guya dəlil kimi göstərərlər. Lakin bu cümlədən əvvəlki ayələrdə tamamilə hz. İsa (ə.s)-dan bəhs edilir. Bundan ötrü də, "hu" əvəzliyinin əvvəlki ayələrlə əlaqədar olması və hz. İsa (ə.s)-dan bəhs etməsi daha uyğundur. Necə ki, böyük İslam alimləri də bu əvəzliyi istər ayələrə, istərsə də, səhih hədislərə əsaslanaraq hz. İsa (ə.s) kimi şərh edirlər. Elmalılı Həmdi Yazırın (Elmalılı Hamdi Yazır) təfsirində belə izah olunur:

*Həmçinin, o, saat üçün mütləq bir elmdir, (saatın gələcəyini ölülərin dirilib, qiyam edəcəyini bildirən bir dəlil və əlamətdir). Çünki İsa istər zühuru, istər ölüləri diriltmə möcüzəsi, istərsə də, ölülərin qalxmasını xəbər verməsi baxımından qiyamətin baş verəcəyinə bir dəlil olduğu kimi, hədisdə varid olduğuna görə qiyamət əlamətidir. (http://www.kuranikerim.com/telmalili/zuhruf.htm)*

Müasir İslam alimlərindən Seyid Qütb də təfsirində, hz. İsa (ə.s)-ın yer üzünə yenidən gələcəyinin mühüm dəlillərindən birinin bu ayə olduğuna diqqət çəkir. Qütbün təfsirində mövzu belə izah olunur:

*Dilimizdə hz. İsanın qiyamətin qopmasından əvvəl yer üzünə enəcəyinə dair bir çox hədis var. Necə ki, bu ayə də buna işarə edir: "O, qiyamətin qopacağını göstərən bir elmdir". Yəni hz. İsanın yer üzünə enməsi ilə qiyamətin qopmasının yaxın olduğu bilinər. Ayə ikinci oxunuş tərzi ilə, belə oxunar: "Ve innehu le alemun lissati". Yəni onun enməsi qiyamət əlamətidir. Hər iki oxunuş tərzi də eyni mənanı ifadə edir. Hz. İsanın göydən enməsi, doğru sözlü və etibarlı Peyğəmbərin (ona salavat və salam olsun) bəhs etdiyi və uca Quranın işarə etdiyi bir qeybdir. Qiyamət gününə qədər dəyişmədən qalacaq bu iki mənbədən gələn məlumatlardan başqa, bu məsələyə dair hər hansı bir insanın söyləyə biləcəyi bir söz ola bilməz. (Seyyid Kutub, Fizilali'l Kuran, http://www.sevde.de/Kuran-Tevsiri/Kuran_Tefsiri.htm)*

Kövsəri, ən köhnə əqaid kitablarında da bu ayənin hz. İsa (ə.s)-ın ikinci dəfə yer üzünə gəlməsinə dəlil kimi istifadə edildiyini söylədiyi halda, Ömər Nəsuhi Bilmən (Ömer Nasuhi Bilmen) təfsirində isə bu ayə bu cür şərh olunur:

*Həmçinin qiyamətin yaxınlaşmış olması üçün, İsa əleyhissalamın bir əlamət olduğunu və qiyamətin baş verəcəyinə şübhə edilməyəcəyini xəbər verir... İsa əleyhissalamın yer üzünə nüzul edəcəyi də qiyamət şəriətindən hesab edilir... (Ömer Nasuhi Bilmen, Kuran-ı Kerim'in Türkçe Meal-i Alisi ve Tefsiri, VII cild, 3292)*

Həmçinin bunu da ifadə etmək lazımdır ki, Quranda heç bir peyğəmbərin qiyamət üçün bir elm olmasından bəhs edilmir. Hz. Məhəmməd (s.ə.v), hz. İbrahim, hz. Nuh, hz. Musa, hz. Süleyman, hz. Yusif, hz. Davud, hz. Yaqub və digər bir çox peyğəmbərin həyatından Quranda təfərrüatlı şəkildə bəhs edilir, lakin heç biri üçün bu ifadədən istifadə edilmir. Bu da, hz. İsa (ə.s)-ın (Allahın təqdiri olaraq) digər peyğəmbərlərdən fərqli bir xüsusiyyətə sahib olduğuna işarə edir. Bu xüsusiyyət, hz. İsa (ə.s)-ın Allah qatına alındıqdan sonra yenidən yer üzünə göndəriləcək olmasıdır (doğrusunu Allah bilər).

## 4-cü dəlil

Hz. İsa (ə.s)-ın ikinci gəlişinə işarə edən başqa ayələr isə bunlardır:

**O zaman mələklər dedilər: “Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən, bir kəlmə ilə müjdələyir. Belə ki, bu Məryəm oğlu İsa Məsihdir. O, bu dünyada və axirətdə**

**“seçilən, şərəfli, mötəbər” və Allaha yaxınlaşdırılmış insandır. O, həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışacaqdır və salehlərdəndir”. Məryəm dedi: “Ey Rəbbim! Mənə bir insan toxunmadığı bir halda necə övladım ola bilər?” Allah dedi: “Allah beləcə istədiyini yaradır. O, bir işin olmasını istədikdə ona ancaq “Ol!” deyir, o da dərhal olur”. Allah <u>ona Kitabı</u>, hikməti, Tövratı və İncili öyrədəcək. (Ali İmran surəsi, 45-48)**

Ayədə, Allahın hz. İsa (ə.s)-a, Tövratı, İncili və bir də **"Kitabı"** öyrədəcəyi xəbər verilir. Eyni ifadə Maidə surəsinin 110-cu ayəsində də qeyd olunur:

**Allah deyəcəkdir: “Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışırdın. <u>Sənə</u> Kitabı, hikməti, Tövratı və İncili öyrətmişdim. Sən Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib..." (Maidə surəsi, 110)**

Hər iki ayədə də işlədilən **"kitab"** ifadəsini araşdırdığımız vaxt, bunun Qurana işarə etdiyini görərik. Ayələrdə Tövrat və İncildən başqa göndərilən son haqq kitabın Quran olduğu bildirilir (hz. Davuda verilən Zəbur da Əhdi-Ətiqin tərkib hissəsidir). Bununla yanaşı, yenə Quranın digər bir ayəsində, belə ki, Ali İmran surəsinin 3-cü ayəsində, **"kitab"** sözündən, İncil və Tövratın yanında Quranı ifadə etmək üçün istifadə edilmişdir:

**Allah... Ondan başqa İlah yoxdur. Diridir, Qaimdir. O, sənə Kitabı Haqq və özündən əvvəlkiləri təsdiqləyici olaraq endirdi. O, Tövrat və İncili də endirmişdi. (Ali İmran surəsi, 2-3)**

Kitab sözünün Qurana işarə etdiyi bəzi digər ayələr isə, belədir:

**Onlara Allah tərəfindən özlərində olanı (Tövrat) təsdiqləyən bir Kitab gəldikdə onu inkar etdilər. Halbuki bundan əvvəl inkar edənlər üzərində qələbə diləyirdilər. Onlara tanıdıqları gəldikdə isə onu inkar etdilər. Allah kafirlərə lənət etsin! (Bəqərə surəsi, 89)**

**Həmçinin öz içərinizdən ayələrimizi sizə oxuyan, sizi günahlardan təmizləyən, Kitabı və hikməti sizə öyrədən, habelə bilmədiklərinizi də sizə öyrədən bir Elçi göndərdik. (Bəqərə surəsi, 151)**

Belə olan halda, hz. İsa (ə.s)-a öyrədiləcək üçüncü "Kitab"ın Quran olduğu və bunun da ancaq hz. İsa (ə.s)-ın Axırzamanda dünyaya qayıtdığı vaxt, mümkün ola biləcəyi aydındır. Çünki hz. İsa (ə.s) Quranın endirilməsindən təxminən 600 il əvvəl yaşamışdı. Bununla yanaşı, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. İsa (ə.s)-ın dünyaya ikinci dəfə gəlməsində İncillə deyil, Quranla hökm verəcəyinin bildirilmiş olması da bunun bir dəlilidir:

*Qırx (40) il Allahın Kitabı və mənim sünnəmlə hökm verər, vəfat edər. (Kitab-ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman, səh. 92)*

Bu ifadədən də açıqca aydın olduğu kimi, hz. İsa (ə.s) yenidən yer üzünə gəldikdə, Quranda bildirilən hökmlərlə hökm verəcək və hz. Məhəmməd (s.ə.v)-in sünnəsini davam etdirəcək. Bu da ayələrdəki mənaya tam uyğun gəlir (təbii ki, doğrusunu Allah bilər).

Bu ayələrdə diqqət yetirilməli olan digər bir məlumat da, hz. İsa (ə.s) üçün bildirilən bu ifadənin (əvvəlki mövzuda olduğu kimi) başqa heç bir peyğəmbər üçün bildirilməmiş olmasıdır. Məsələn, hz. Musaya Tövratın endirildiyi, hz. İbrahimə verilən səhifələr olduğu, hz. Davuda Zəburun vəhy edildiyi Quranda bildirilir. Yaxud peyğəmbərlərin öz dövrlərindən əvvəl endirilən kitablar vardırsa, bu kitabları bildikləri xəbər verilir. Lakin peyğəmbərlərin heç biri barədə, öz dövrlərindən sonra endiriləcək bir kitabın da onlara öyrədildiyi bildirilmir. Özündən əvvəl endirilən, özünə vəhy edilən və özündən sonra endiriləcək kitabı bildiyi xəbər verilən tək peyğəmbər hz. İsa (ə.s)-dır. Bu da, hz. İsa (ə.s)-ın təkrar yer üzünə gələcəyinin və ikinci dəfə gəldikdə özündən sonra vəhy edilmiş kitabla, yəni Quranla hökm verəcəyinin işarələrindən biridir (doğrusunu Allah bilər).

## 5-ci dəlil

Bütün bunlarla yanaşı: **"Həqiqətən, Allah yanında İsanın vəziyyəti Adəmin vəziyyəti kimidir..."** (Ali İmran surəsi, 59) ayəsi də hz. İsa (ə.s)-ın qayıtmasına işarə edə bilər. Təfsir alimləri ümumiyyətlə bu ayənin hər iki peyğəmbərin də atasız olma xüsusiyyətinə, hz. Adəmin Allahın "ol" əmriylə torpaqdan yaradılması ilə hz. İsa (ə.s)-ın yenə "ol" əmriylə atasız dünyaya gəlməsinə işarə etdiyinə diqqət çəkiblər. Lakin ayə ikinci bir şeyə daha işarə edə bilər. Hz. Adəm cənnətdən necə yer üzünə endirildisə, hz. İsa (ə.s) də Axırzamanda Allah qatından yer üzünə endirilə bilər (doğrusunu Allah bilər). Göründüyü kimi, hz. İsa (ə.s)-ın yer üzünə yenidən qayıdacağına dair Quranda işlənən ayələr çox açıqdır.

## 6-cı dəlil

Quranda hz. İsa (ə.s)-ın Allah qatına alındığını ifadə edən digər bir ayə isə, Məryəm surəsində belə bildirilir:

**"Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!" (Məryəm surəsi, 33)**

Bu ayə Ali İmran surəsinin 55-ci ayəsiylə birlikdə araşdırıldıqda çox mühüm bir həqiqətə işarə edir. Ali İmran surəsindəki ayədə hz. İsa (ə.s)-ın Allah qatına yüksəldildiyi ifadə edilir. Bu ayədə ölmə və ya öldürülmə ilə əlaqədar bir məlumat verilmir. Lakin Məryəm surəsinin 33-cü ayəsində hz. İsa (ə.s)-ın öləcəyi gündən bəhs edilir. Bu ölüm isə, təkcə hz. İsa (ə.s)-ın ikinci dəfə dünyaya gəlməsi və bir müddət yaşadıqdan sonra vəfat etməsiylə mümkün ola bilər (doğrusunu Allah bilər).

## 7-ci dəlil

Hz. İsa (ə.s)-ın təkrar dünyaya gələcəyi ilə əlaqədar digər bir dəlil isə, Maidə surəsinin 110-cu ayəsində və Ali İmran surəsinin 46-cı ayəsində işlənən **"kehlen"** sözüdür. Ayələrdə belə buyurulur:

**Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm beşikdə ikən, həm də yetkin (kehlen) çağında insanlarla danışırdın..." (Maidə surəsi, 110)**

**O, həm beşikdə ikən, həm də yetkin çağında (kehlen) insanlarla danışacaqdır və salehlərdəndir. (Ali İmran surəsi, 46)**

Bu sözdən Quranda təkcə yuxarıdakı iki ayədə və təkcə hz. İsa (ə.s) üçün istifadə edilir. Hz. İsa (ə.s)-ın yetkin çağını ifadə etmək üçün işlədilən **"kehlen"** sözünün mənası;

**"otuz ilə əlli yaşları arasında, gənclik dövrünü başa vurub qocalığa ayaq basan, kamil yaşa çatmış kimsə"** kimidir. Bu söz İslam alimləri arasındakı fikir birliyi ilə, "35 yaşdan sonrakı dövrə işarə edir" kimi tərcümə edilir.

Hz. İsa (ə.s)-ın gənclik dövrü olan otuz yaşın əvvəllərində göyə yüksəldiyini, yer üzünə endikdən sonra qırx il qalacağını ifadə edən və İbni Abbasdan rəvayət edilən hədisə isnad edən İslam alimləri, hz. İsa (ə.s)-ın yaşlılıq dövrünün, təkrar dünyaya gəlməsindən sonra olacağını, dolayısilə bu ayənin, hz. İsa (ə.s)-ın nüzuluna dair bir dəlil olduğunu söyləyirlər. *(Muhammed Halil Herras, Faslu'l-Makal fi Ref'I İsa Hayyen ve Nüzulihi ve Katlihi'd-Deccal, Mektebetü's Sünne, Kahire, 1990, səh. 20)*

Quran ayələrinə baxıldıqda bu ifadənin, təkcə hz. İsa (ə.s) üçün istifadə edildiyini görərik. Bütün peyğəmbərlər insanlarla danışıb, onları dinə dəvət ediblər. Hamısı da yetkin yaşlarında təbliğ vəzifəsini yerinə yetiriblər. Lakin Quranda digər peyğəmbərlər üçün belə bir ifadədən istifadə edilmir. Bu ifadə təkcə hz. İsa (ə.s) üçün istifadə edilmişdir və möcüzəvi bir vəziyyəti ifadə etməkdədir. Çünki ayələrdə bir-biri ardınca gələn "beşikdə" və "yetkin ikən" sözləri iki böyük möcüzəvi zamana diqqət çəkir. Necə ki, İmam Təbəri, *"Təbəri Təfsiri"* adlı əsərində bu ayələrdə işlənən ifadələri belə izah edir:

*Bu ifadələr (Maidə surəsi, 110), hz. İsanın ömrünü tamamlayıb yaşlılıq dövründə insanlarla danışa bilməsi üçün, göydən enəcəyinə işarə edir. Çünki o, gənc yaşda olarkən göyə qaldırılmışdı...*

*Bu ayədə (Ali İmran surəsi, 46), hz. İsanın həyatda olduğuna dəlil var və əhli-sünnə də bu fikirdədir. Çünki ayədə, onun yaşlandığı zamanda da insanlarla danışacağı ifadə edilir. Yaşlanması da ancaq, səmadan yer üzünə enəcəyi zamanda olacaq. (Taberi Tefsiri, İmam Taberi, II cild, səh. 528; I cild, səh. 247)*

Lakin bəziləri **"yetkin"** sözünü əsil mənasından uzaqlaşaraq şərh edir və Quranın ümumi məntiqi çərçivəsində qiymətləndirmirlər. Onlar peyğəmbərlərin hər dövrdə yetkin və kamillik dövrünə yetişmiş insanlar olduqlarını, dolayısilə bu ifadənin peyğəmbərlərin bütün həyatlarına işarə etdiyini irəli sürərlər. Əlbəttə ki, peyğəmbərlər Allahın kamillik dövrünə yetişdirdiyi, yetkin insanlardır. Lakin Allah Əhqaf surəsində yetkinlik yaşının 40 yaş olduğuna işarə edir. Ayədə belə bildirilir:

**Biz insana ata-anasına yaxşı davranmasını tövsiyə etdik. Anası onu bətnində əziyyətlə daşımış və əziyyətlə doğmuşdur. Onun bətndə daşınma və süddən kəsilmə müddəti otuz ay çəkir. Nəhayət, o, yetkinlik çağına yetişib qırx yaşa çatdıqda deyər: "Ey Rəbbim! Mənə, mənim özümə və valideynlərimə bəxş etdiyin nemətə şükür etmək və Sənin razı qalacağın yaxşı işlər görmək üçün ilham ver, nəslimi də mənim üçün**

**əməlisaleh et. Mən Sənə tövbə etdim. Həqiqətən, mən müsəlmanlardanam!" (Əhqaf surəsi, 15)**

"Kehlen" sözünün mənaları da, Quranda bildirilən digər məlumatlar kimi, hz. İsa (ə.s)-ın təkrar yer üzünə gəlməsinə işarə edir (doğrusunu Allah bilər).

Quranda yaşadığı müddətdə yer üzündən yüzlərlə il müddətə ayrılıb sonra qayıdan başqa insan nümunələri də verilir.

## Yüz il sonra dirildilən insan

Bu nümunələrdən biri, Bəqərə surəsində bəhs edilən **"yüz il ölü qaldığı"** ifadə edilən birinin həyatı ilə əlaqəlidir:

**Və ya alt-üst olmuş tənha bir şəhərin yanından keçən kimsənin hekayətini bilmirsənmi? O demişdi: "Allah bu şəhəri ölümündən sonra necə dirildəcək?" Allah onu öldürüb yüz il saxladı, sonra da dirildib dedi: "Nə qədər qaldın?" O dedi: "Bir gün yaxud bir gündən də az qaldım!" Allah dedi: "Əksinə, sən yüz il qaldın. Öz yeməyinə və içdiyin suya bax, hələ də xarab olmayıb. Uzunqulağına da bax! Biz bunu, insanlar üçün ibrət olasan deyə etdik. Sümüklərə bax, gör Biz onları necə bir-birinə birləşdirir, sonra da onların üstünü ətlə örtürük". O özünə (bunlar) tam bəlli olduqdan sonra belə dedi: "Mən artıq bilirəm ki, Allah hər şeyə qadirdir!". (Bəqərə surəsi, 259)**

Əvvəlki səhifələrdə ifadə etdiyimiz kimi, ayələrdə hz. İsa (ə.s)-ın canının alınmasından bəhs edilmir. Yuxarıda verdiyimiz ayədə isə, tam mənasıyla ölümdən (mevt) bəhs edilir. Dolayısilə qəti şəkildə ölən bir insanın belə, Allah istədiyi təqdirdə, bu dünyada təkrar dirildildiyi Quranda bildirilən bir həqiqətdir. Quranda buna bənzər başqa hadisələrdən də nümunələr verilir.

## Kəhf əhlinin illər sonra oyandırılmaları

Mövzuya işarə edən digər bir nümunə isə, Kəhf surəsindəki "Əshabi-Kəhf" hekayəsindədir.

Allahın, yaşadıqları dövrün din əleyhdarı hökmdarının zülmündən qorunmaq üçün, mağaraya sığınan bir qrup gəncin vəziyyətindən xəbər verdiyi bu hekayədə, onların uzun illər yatdıqdan sonra təkrar oyandırıldıqları bildirilir. Ayələr belədir:

**Bir zaman gənclər mağaraya sığınıb: "Ey Rəbbimiz! Bizə Öz tərəfindən mərhəmət bəxş et və işimizdə bizə doğrunu asanlaşdır! (bizi müvəffəqiyyətli et!)**

**Beləliklə də, mağarada onların qulaqlarını illərlə qapalı saxladıq (onları dərin yuxuya verdik). (Kəhf surəsi, 10-11)**

**Onları oyaq hesab edərsən, halbuki, onlar (dərin yuxuda) uyuşublar. Biz onları sağa-sola çevirirdik. Onların iti isə qabaq pəncələrini uzadıb yatmışdı. Əgər sən onları görsəydin, dönüb onlardan qaçardın və dəhşət səni bürüyərdi.**

**Beləcə onları oyatdıq ki, aralarında sorğu-sual etsinlər. Onlardan biri: "Burada nə qədər qaldınız?" dedi. Bəziləri: "Bir gün yaxud günün bir (neçə saatlıq) hissəsi qədər qaldıq" dedilər. Digərləri də dedilər: "Qaldığınız müddəti Rəbbiniz daha yaxşı bilir. Birinizi bu pulunuzla şəhərə göndərin. Qoy baxsın təmiz yemək hansıdırsa, ondan sizə azuqə gətirsin. Lakin olduqca nəzakətli davransın və sizin barənizdə heç kəsi duyuq salmasın! (Kəhf surəsi, 18, 19)**

Quranda gənclərin mağarada neçə il qaldıqları tam bildirilmir. Bunun üçün illərlə ifadəsindən istifadə edilir və müddətin çox qısa olmadığı buradan aydın olur. Həmçinin qalma müddətiylə əlaqədar insanların təxmini də olduqca uzun müddət olan 309 ildir:

**Onlar mağarada üç yüz il, üstəlik doqquz il də qaldılar. De: "Onların nə qədər qaldıqlarını Allah daha yaxşı bilir. Göylərin və yerin qeybi ancaq Ona məxsusdur. O, necə gözəl görür, necə də yaxşı eşidir! Onların Ondan başqa heç bir vəlisi yoxdur. O, Öz hökmünə heç kəsi şərik etməz!" (Kəhf surəsi, 25, 26)**

Dünya şərtlərinə görə insanların belə uzun müddət yatmaları qeyri-mümkündür. Dolayısilə bu ayədə bildirilən yuxu bizim bildiyimiz mənadakı yuxuya deyil, Kəhf əhlinin zaman və məkanın olmadığı fərqli bir aləmə alınmalarına və yenidən dünyaya göndərilmələrinə işarə edə bilər (doğrusunu Allah bilər).

Eynilə yuxudan oyanan insanlar kimi, bu insanlar da yenidən həyata dönüblər. Eynilə, hz. İsa (ə.s) da vaxtı gəldikdə, təkrar yer üzündə yaşamaq üçün qayıdacaq və

Allahın ona bəxş etdiyi şərəfli məsuliyyətini yerinə yetirdikdən sonra: **“Allah dedi: “Siz orada yaşayacaq, orada öləcək və oradan çıxarılacaqsınız”” (Əraf surəsi, 25)** hökmünün tələbi olaraq hər insan kimi dünyada öləcək (doğrusunu Allah bilər).

# HƏDİSLƏRDƏ HZ. İSA (Ə.S)-IN İKİNCİ DƏFƏ YER ÜZÜNƏ GƏLMƏSİ

Hz. İsa (ə.s)-ın Allah qatında diri olduğu və Axırzamanda yer üzünə yenidən gələcəyi hədislərdə təfərrüatlı şəkildə qeyd olunur. Ən böyük və etibarlı hədis mənbələri kimi qəbul edilən "Kütübi-Sittə"də, İmam Malikinin "Muvatta"sında, İbn Xuzeymə və İbn Hibbanın "Səhih"lərində, İbn Hənbəl və Tayalisinin "Müsnəd"lərində hz. İsa (ə.s)-la əlaqədar hədislər var. Həmçinin bir çox İslam alimi, hz. İsa (ə.s)-ın ölmədiyi və yer üzünə yenidən gələcəyinə dair araşdırma və tədqiqatlar aparmış, bu mövzuda qaynaq əsər mövqeyində çıxış edən müxtəlif kitab və risalələr hazırlamışdırlar.

Hz. İsa (ə.s)-ın Allah qatında diri olduğu və yenidən dünyaya gələcəyi mövzusunda qənaət bildirən İslam alimlərinin başında məzhəb imamımız Əbu Hənifə gəlir. Əbu Hənifə, *"Fiqhi-əkbər"* adlı əsərinin son hissəsində bunları bildirir:

*Dəccalın, Yəcuc və Məcucun çıxması, Günəşin qərbdən doğulması, hz. İsanın göydən enməsi və digər qiyamət əlamətləri, səhih xəbərlərdə çatdırıldığı kimi, həqiqətdir və olacaq. (Ebu Hanife, Nu'man b. Sabit (150/767), Fıkh-ı Ekber, tərcüməçi: H. Basri Çantay, Ankara, 1982)*

Hz. İsa (ə.s)-ın gəlişi mövzusunda nəql edilən hədislər təvatür dərəcəsindədir. Bir çox tədqiqatçı da alimlərimizin fikirlərinin bu istiqamətdə olduğunu çatdırır. Təvatürə böyük lüğətdə belə tərif verilir:

*Təvatür:* Qüvvətli xəbər, içində yalan ehtimalı olmayan və bir camaata əsaslanan qüvvətli xəbər.

Mütəvatir hədislər isə, yalan uydurmaq üçün birləşmələri təsəvvür oluna bilməyəcək qədər çoxsaylı camaat tərəfindən rəvayət edilən hədislərə deyilir. İslam alimi Seyyid Şərif Cürcani, mütəvatir hədis anlayışını belə izah edir:

*Mütəvatir xəbər, o qədər çox sayda rəvayətçi tərəfindən rəvayət edilən xəbərdir ki, adətə görə, o qədər çox rəvayətçinin yalan uydurmaq üçün birləşmələri qeyri-mümkündür. Belə olan halda, rəvayət edilən xəbər barəsində söz və məna tutursa buna, "mütəvatiri-ləfzi" deyilir. Əgər hamısının arasında müştərək mənada ittifaq olmaqla yanaşı, sözlər arasında ziddiyyət olursa da buna, "mütəvatiri-mənəvi" deyilir. (Muhtasar-ı Seyyid-i Şerif, səh. 46)*

Hz. İsa (ə.s)-la əlaqədar hədislərin bəziləri isə belədir:

*Allaha and olsun ki, mütləq və mütləq Məryəm oğlu İsa enəcək, həm ədalətli bir hakim, həm də ədalətli bir hökmdar kimi enəcək... (Sahih-i Müslim, Bir Şerhin-Nevevi, II cild, səh. 192; Kitab-ul İman, Bab-u Nuzül-i İsa İbn-i Meryem, Kenzul Ummal, 14/332)*

*Məryəm oğlu İsa ədalətli bir hakim və ədalətli bir imam kimi enmədikcə qiyamət qopmayacaq... (Sünen-i İbni Mace, 10/340)*

*Nəfsimin qüdrətini əlində saxlayan Allaha and içirəm ki, Məryəm oğlu İsanın ədalət sahibi kimi enməsi yaxındır... (Ebu Hureyre ra / Buhari, Büyu 102, Mezalim 31, Enbiya 49; Müslim, İman 242 (155); Ebu Davud, Melahim 14 (4324); Tirmizi, Fiten 54 (2234))*

*Onunla (hz. İsa ilə) mənim aramda heç bir peyğəmbər yoxdur. O (hz. İsa) mütləq enəcək. Onu gördüyünüz zaman tanıyın! O, ortaboylu, ağa çalan qırmızı rəngdədir. Sarı rəngli iki paltar içində olacaq. Yağış yağmasa da saçından su damlayacaq. İslam üçün mübarizə aparacaq. Dəccaliyəti yox edəcək, sonra yer üzündə tam qırx il qalacaq. Sonra öləcək və müsəlmanlar namazını qılacaqlar. (Buhari, Müslim, Ebu Davud ve Tırmizi, Büyük Hadis Külliyatı, Rudani, V cild, səh. 380)*

*"İmamınız özünüzdən olduğu halda, Məryəm oğlu (İsa) aranıza endiyi vaxt, görəsən necə olacaqsınız?" deyə buyurdu. (Sahih-i Müslim, I cild, səh. 208)*

*Nəhayət Məryəm oğlu İsa enər və müsəlmanların əmiri ona: "Gəl, bizə namaz qıldır" deyər. Bundan sonra da hz. İsa: "Xeyr, Allahın bu ümmətə bir lütfü olaraq sizin bir qisminiz digər qisminiz üzərində əmirdir" deyər. (Sahih-i Müslim, I cild, səh. 209)*

## Hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) bu əsrdə gələcəkdir

Hər yüz ildən bir, din əxlaqını bidətlərdən təmizləmək və yeniləmək üçün Allah tərəfindən bir şəxsin göndərildiyi, *"Sünəni-Əbu Davud"* və *"Məktubati-Rəbbani"* əsərləri kimi, böyük və mötəbər əhli-sünnə alimlərinin əsərlərində açıq şəkildə ifadə edilmişdir:

*Əbu Hüreyrənin rəvayətinə görə, Rəsulullah (s.ə.v) belə buyurmuşdur: "Həqiqətən Əziz və Cəlil olan Allah hər əsrin əvvəlində bu ümmətin dinini bidətdən (dinə sonradan daxil olmuş batil tətbiqlərdən) ayıracaq, yeniləyəcək (elm sahibi) bir şəxsi göndərər. (Sünen-i Ebu Davud, 5/100)*

Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən hədislərdə Axırzamanda zühur edəcəyi müjdələnilən hz. Mehdi (ə.s)-ın zühur zamanı olaraq isə, hicri 1400-cü il verilmişdir:

*"İnsanlar 1400-cü ildə hz. Mehdi (ə.s)-ın yanında toplanacaqlar". (Risaletül Huruc-ül Mehdi, səh. 108)*

Bu 100 illik müddətdə İslam əxlaqı müəyyən müddət ərzində bütün dünyaya hakim olacaq, din əxlaqına qarşı mübarizə aparan dəccaliyət sistemi isə, tamamilə

ortadan qalxacaq. Lakin təxminən 100 il qədər davam edəcək bu yüksəliş dövründən sonra, yəni hicri 1500-cü illərlə birlikdə dünya yenidən pozulma prosesinə daxil olacaq. Əhli-sünnənin böyük hədis və fiqh alimlərindən biri olan İmam Əhməd İbni Hənbəl kimi bir çox alimin bir-birlərindən nəql etdikləri bir hədisdə Peyğəmbərimiz (s.ə.v) öz dövrünə qədər dünyada keçən zamanın 5600 il olduğunu bildirərək bəşəriyyət tarixinin başlanğıcı barəsində mühüm bir məlumat vermişdir:

*Əhməd İbni Hənbəl əsasında nəql etdi. İsmayıl ibn Əbdülkərim, Əbdüssəməddən O da Vəhbdən belə rəvayət etdi: "DÜNYADAN BEŞ MİN ALTI YÜZ İL KEÇMİŞDİR". (Ali B. Hüsameddin el-Muttaki, Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir zaman, səh. 89)*

Digər tərəfdən başqa bir çox hədisdə isə, dünyanın ömrünün 7000 il olduğuna dair açıq izahlar var:

*Ənəs Malikdən təxric etdi. O dedi ki, Rəsulullah (s.ə.v) belə buyurdu: "DÜNYANIN ÖMRÜ, AXİRƏT GÜNLƏRİNDƏN YEDDİ GÜNDÜR. Allah belə buyurdu: "RƏBBİN QATINDA BİR GÜN SİZİN SAYDIQLARINIZDAN MİN İL KİMİDİR. Kim bir din qardaşının Allah yolunda bir ehtiyacını ödəsə, Allah onun üçün gündüzlərini orucla, gecələrini də ibadətlə keçirmiş kimi BU DÜNYANIN YEDDİ MİN İLLİK ÖMRÜ MÜDDƏTİ QƏDƏR SAVAB YAZAR. (Ali B. Hüsameddin el-Muttaki, Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 88)*

*Dakka ibn Zeyd Cühənidən belə rəvayət etdilər: "Mən gördüyüm bir yuxunu Rəsulullah (s.ə.v)-a danışdım. Bu yuxuda Peyğəmbər (s.ə.v) yeddi pilləli bir minbərin ən yuxarı pilləsində idi. O belə buyurdu: "GÖRDÜYÜN YEDDİ PİLLƏLİ MİNBƏR BU DÜNYANIN ÖMRÜ OLAN YEDDİ MİN İLDİR". (Ali B. Hüsameddin el-Muttaki, Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 89)*

Hicri 1300-cü il və son min ilin ən böyük mücəddidi olan ustad Səid Nursi həzrətləri isə İslam əxlaqının hakimiyyət müddəti üçün hicri 1500-cü illləri vermişdir. Ustad bu tarixlərə qədərki dövrün müsəlmanların açıq-aydın qalibiyyət dövrləri olacağını ifadə etmişdir. Bundan sonrakı illərdə isə, İslam əxlaqının dünyadakı yüksəliş dövrünün bitəcəyi və kafirlər üçün, hicri 1545-ci ildən sonra qiyamət qopa biləcəyini söyləmişdir (doğrusunu Allah bilər).

*"Ümmətimdən bir taifə (tayfa) Allahın əmri gələnə qədər (qiyamətə qədər) haqq üzərində olacaq".*

*"Ümmətimdən bir taifə (tayfa).." bəndinin (hissəsinin) məqam-ı cifrisi (cifr hesabına görə olan nəticə, ədədi qiymət) 1542 (miladi 2117-ci il) edərək, nəhayət-i davamına (varlığının sonuna) işarə edər. "Haqq üzərində olacaq" (şəddə sayılır) bəndi (hissəsi) belə; məqam-ı cifrisi 1506 (miladi 2082-ci il), bu tarixə qədər zahir və aşkaranə (açıq və ortada), bəlkə qalibanə; sonra ta 1542-ci ilə (miladi 2117-ci il) qədər,*

*gizli və məğlubiyyət içində vəzifə-i tənviriyəsinə (aydınlıq gətirmə vəzifəsinə) davam edəcəyinə rəmzə (işarəyə) yaxın işarə edər. "Allahın əmri gələnə qədər" (şəddə sayılır) bəndi (hissəsi) də; məqam-ı cifrisi 1545-ci il olub (miladi 2120-ci il), kafirin başında QİYAMƏT QOPMASINA işarə edər. (Kastamonu Lahikası, səh. 33)*

Böyük əhli-sünnə alimi Bərzənci həzrətləri də dünyanın ömrünün hicri 1600-cü ilə çatmayacağını, yəni hicri 1500-cü illərdə qiyamətin qopmasının Allahın icazəsi ilə gözlənildiyini ifadə edir (doğrusunu Allah bilər).

*BU ÜMMƏTİN ÖMRÜ MİN İLİ KEÇƏCƏK, LAKİN MİN BEŞ YÜZ İLİ AŞMAYACAQ... (Kıyamet Alametleri, Medineli Allame Muhammed b. Resul el-Hüseyni el-Berzenci, Pamuk nəşriyyatı, İstanbul, 2002, səh. 299)*

Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən hədisə əsaslanaraq Suyuti həzrətləri isə, verdiyi bir açıqlamada bunları söyləyir:

*"MƏNİM ÜMMƏTİMİN ÖMRÜ 1500 İLİ ÇOX KEÇMƏYƏCƏK". (Suyuti, el-Keşfu an Mücavezeti Hazihil Ümmeti el-Elfu, el-havi lil Fetavi, Suyuti. 2/248, tefsiri Ruhul Beyan. Bursevi. (Arapça) 4/262, Ahmed bin Hanbel, Kitâbu'l-İlel, səh. 89)*

Peyğəmbərimiz (s.ə.v)-in hədislərindən və böyük İslam alimlərinin açıqlamalarından da açıqca aydın olduğu kimi, yaşadığımız hicri 1400-cü illər hz. Mehdi (ə.s)-ın zühur əsridir. Bu əsrdə hz. İsa (ə.s) yenidən yer üzünə gələcək, hz. Mehdi (ə.s) zühur edəcək və İslam əxlaqı yer üzünə hakim olacaq.

## İman gətirənlər Dəccalın fitnəsindən hz. İsa (ə.s)-ın vəsilə olmasıyla qorunacaqlar

"Yalançı, hiyləgər, zehinlərdə və könüllərdə yaxşı ilə pisi, haqq ilə batili qarışdıran, bir şeyi bəzəyib əsil üzünü gizlədən, hər yeri gəzən pis və uğursuz insan" kimi mənaları verən Dəccal məhfumu, Axırzamanda ortaya çıxacağı bildirilən, hər cür pisliyin və fitnənin mənbəyi və nümayəndəsi olan insan kimi təsvir edilir. Lakin, Dəccal bir insan ola biləcəyi kimi, din əxlaqına uyğun olmayan hər cür düşüncə və tətbiqi təmsil edən bir sistem və ya ideologiya da ola bilər. Həm bir çox hədisdə Dəccalla əlaqədar məlumatlar verilir, həm də Quranda, Dəccalın pis əxlaqına və sisteminə işarə edən bir çox ayə var. Dəccalın ortaya çıxışı, səhih hədislərdə qiyamətin mühüm əlamətlərindən biri kimi bildirilmişdir.

Məzhəb imamımız Əbu Hənifə isə, Dəccal və digər qiyamət əlamətlərinin bildirildiyi hədislərlə əlaqədar bunları söyləyir:

*Dəccalın, Yəcuc və Məcucun çıxması, Günəşin qərbdən doğulması, hz. İsanın göydən enməsi və digər qiyamət əlamətləri, səhih xəbərlərdə çatdırıldığı kimi, həqiqətdir və olacaq. (Ebu Hanife, Nu'man b. Sabit (150/767), Fıkh-ı Ekber, tərcüməçi: H. Basri Çantay, Ankara, 1982)*

Hədislərdə Dəccalın çıxış əlamətləriylə yanaşı, xüsusiyyətləri də təfərrüatlı şəkildə verilmişdir. Buna görə, Dəccal insanları doğru yoldan azdıracaq; yaxşını pis, pisi yaxşı göstərəcək; özünə itaət edənləri dırnaqarası nemətlərlə aldatdığı halda, özünə itaət etməyənlərə isə, təzyiq və güc tətbiq edəcək; yer üzündə qarışıqlıq çıxardacaq, qarşıdurmanı qızışdıracaq; din əxlaqına qarşı çıxacaq və insanları din əxlaqından uzaqlaşdırmaq üçün fəaliyyət göstərəcək. Dəccalın yer üzündə olduğu dövr, səmimi iman gətirənlərin bir çox sıxıntı və çətinliklə qarşılaşacaqları, insanların böyük əksəriyyətinin din əxlaqından uzaqlaşacaqları bir dövr olacaq.

Dəccalın ortaya çıxışı bütün dünyaya dərindən təsir göstərəcək və bəşəriyyətə bir çox fəlakət və çətinlik gətirəcək hadisələrin başlanğıcı olacaq. Dəccalın əsil hədəfi din əxlaqı və səmimi iman sahibləri olacağına görə, xüsusilə möminlər üçün olduqca çətin bir dövr yaşanıla bilər. Həmçinin, insanların mühüm hissəsi Dəccalın yalanlarına inanacaq və ona itaət edəcəklər. Belə bir mühit, bütün vicdan və iman sahibi insanların var gücləriylə etiraz etməli və çox güclü fikri mübarizə aparmalı olduqları bir mühitdir. Həmçinin Allahın icazəsi ilə səmimi iman sahibləri bu fikri mübarizədə üstün gələcəklər. Lakin hz. Məhəmməd (s.ə.v) Dəccalın fitnəsinin tarixin ən böyük fitnəsi olduğunu bildirmiş və iman sahiblərini bu fitnədən qorunmaları üçün xəbərdar etmişdir. Bu xəbərdarlıq çox əhəmiyyətlidir:

*Məhz mən bunları sizə danışıram ki, vəziyyəti yaxşı qavrayasınız, onun tələsinə düşməyəsiniz və sizdən sonrakılara danışasınız. Çünki onun fitnəsi, fitnələrin ən pisidir. (Nuaym; İsmail Mutlu, Kıyamet Alametleri, səh. 92-93)*

Peyğəmbərimiz (s.ə.v)-in bu öyüdü və Dəccalın fitnəsindən Allaha sığındığı duası, müsəlmanlar üçün yol göstərici olmuşdur. Dünyanın hər yerində müxtəlif məzhəblərə və ya müxtəlif irqlərə mənsub müsəlmanlar, 5 vaxt namazlarında, Allahın özlərini Dəccalın fitnəsindən qoruması üçün dua edirlər. Rəvayətlərdə bildirildiyinə görə, sevimli Peyğəmbərimiz (s.ə.v) tərəfindən möminlərə öyrədilən bu dua belədir:

*Rəsulullah belə buyurmuşdur: "Biriniz, təşəhhüd oxuduğu zaman (təhiyyat oxumağı bitirdiyi vaxt); "ey Allahım, cəhənnəm əzabından, qəbir əzabından, həyat və ölümün fitnəsindən və Dəccalın fitnəsindən Sənə sığınıram" deyərək dörd şeydən Allaha sığınsın". (Müslim, Mesacic:25, No.590, 1/413)*

Bu duanın bilavasitə hz. Məhəmməd (s.ə.v) tərəfindən iman gətirənlərə öyrədilmiş və namazlarda oxunulmasının tövsiyə edilmiş olması, dəccaliyyət mövzusunun möminlər üçün nə qədər əhəmiyyətli olduğunu göstərir. İslam alimlərinin isə namazlarının ardınca; "Allahümme ecirne min fitneti'l mesihi'd deccali ve's süfyan" (Allahım bizi Dəccal və Süfyanın fitnələrindən qoru) deyərək təsbeh etdikləri məlumdur. Necə ki, müsəlmanlar da, Dəccalın fitnəsinin nə qədər böyük olduğunu dərk edərək, 5 vaxt namazlarında Peyğəmbərimiz (s.ə.v)-in bildirdiyi dua ilə, Rəbbimizə sığınırlar. Bu, müsəlmanların Dəccala qarşı mənəvi hazırlıq gördüklərini göstərir. Lakin, əlbəttə ki, Dəccala qarşı görüləcək hazırlıqların ən mühüm hissəsi, hz. İsa (ə.s)-ın yer üzünə gəlişi üçün görüləcək hazırlıq olmalıdır.

Hz. İsa (ə.s)-ın gəlişi, müsəlmanların bu duasının müəyyən cəhətdən qəbul olunması olacaq. Çünki hədislərdə, Dəccalın fitnəsinin, təkcə hz. İsa (ə.s)-ın yer üzünə qayıtmasıyla ortadan qaldırılacağı, Dəccalın hz. İsa (ə.s)-ı gördükdə "duzun suda əriməsi kimi" yox olacağı müjdələnilmişdir. Hz. İsa (ə.s)-ın Dəccalı ortadan qaldıracağını bildirən hədislərdən bəziləri belədir:

*...Dəccal ortalığa fitnə saçdığı bir vaxtda, Allah Məryəm oğlu İsa Məsihi göndərəcək... Hz. İsa Dəccalla Lut (Beytül-müqəddəsə yaxın bir diyar) qapısında qarşılaşacaq və onu yox edəcək. (İmam-ı Müslim; Saim Güngör, Büyük Fitne Mesih-i Deccal, səh. 104)*

*Allahın düşməni (Dəccal) onu gördükdə duzun suda əriməsi kimi əriyəcək. Onu buraxsa da, öz-özünə həlak olana qədər əriyəcəksə də, Allah Dəccalı, hz. İsanın əliylə yox edəcək... (Müslim, Fiten: 9, No. 2897, 4/2221)*

*Hz. İsa yaxın vaxtda enəcək, sonra fəsadçı, bədbəxt olan Dəccalı (mənəvi cəhətdən) həlak edəcək. (Nüzul-i Mesih Risalesi, Ekmel nəşriyyatı, İstanbul, 1998, səh. 121)*

Belə olan halda, iman gətirənlərin və Dəccalın fitnəsindən qorunmaq istəyənlərin hz. İsa (ə.s)-a var gücləriylə dəstək olmaları, bu mübarək insan yer üzünə gəlmədən əvvəl ona mümkün olan ən gözəl mühiti hazırlamaq üçün, cəhd göstərmələri olduqca əhəmiyyətlidir.

Bunun üçün, müsəlmanlar bir tərəfdən Dəccalın fitnələrini və yalanlarını ortaya çıxartmalı və dəccaliyyətin ideoloji zəminini meydana gətirən ünsürlərlə fikri mübarizə aparmalı, digər tərəfdən isə, hz. İsa (ə.s) gəlmədən əvvəl, onun aparacağı böyük fikri mübarizə üçün ilkin hazırlıq görməli, əxlaqi cəhətdən hz. İsa (ə.s)-a layiq ola biləcək, ona dəstək ola biləcək şəkildə özlərini inkişaf etdirməyə diqqət göstərməlidirlər. Ayələrdə bildirilən məlumatlar və hədislərdə bəhs edilən hadisələr, dünya tarixinin ən mühüm dövrlərindən birinin xeyli yaxınlaşdığına işarə edir.

Belə tarixi bir dövrdə yaşamaq şərəfinə nail olacaq insanlar, bundan ötrü böyük həyəcan yaşamalı, həmçinin məsuliyyətlərinin böyük olduğunu da bilməlidirlər. Vəziyyətin əhəmiyyətini dərk edənlərin etməli olduqları ilk şeylərdən biri, əlbəttə ki, hz. İsa (ə.s)-ın gəlişinə həm özləri, həm də ətraflarını ən yaxşı şəkildə hazırlamaq olmalıdır.

# RİSALE-İ NURDA HZ. İSA (Ə.S)-IN İKİNCİ DƏFƏ YER ÜZÜNƏ GƏLMƏSİ

Hicri 13-cü əsrin mücəddidi kimi qəbul edilən böyük İslam alimi Bədiüzzaman Səid Nursi Risale-i Nur külliyyatında hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gəlməsiylə əlaqədar mühüm açıqlamalar vermişdir. Ayələr və hədislər əsasında, hz. İsa (ə.s)-ın Axırzamanda yenidən dünyaya gələcəyini, xristianları batil inanc və tətbiqlərindən təmizləyərək haqq din əxlaqına dəvət edəcəyini, bu dövrdə hz. İsa (ə.s)-a itaət edən səmimi İsəvilərlə müsəlmanların ittifaq yaradacaqlarını, hz. İsa (ə.s)-ın hz. Mehdi (ə.s)-la birlikdə İslam əxlaqının yer üzünə hakim olmasına vəsilə olacağını qeyd etmişdir.

Lakin Bədiüzzamanın bu açıqlamaları bəzən yanlış başa düşülərək yanlış şərh olunur. Xüsusilə Bədiüzzamanın hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın "şəxs-i mənəviləri"ndən bəhs etdiyi sözlərindən, hz. İsa (ə.s)-ın mübarək şəxsinin gəlməyəcəyi kimi yanlış bir məna çıxardılır. Halbuki Bədiüzzamanın sözləri belə məna daşımır. Risale-i Nurun bir çox fərqli yerində açıqca ifadə edildiyi kimi, Bədiüzzaman **hz. İsanın şəxsinin** Axırzamanda ikinci dəfə yer üzünə gələcəyini söyləmişdir.

Necə ki, hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın mənəvi bir şəxs, ruh və ya xəyal kimi görünməz bir güc olaraq xarakterizə olunması, Quran ayələrində bildirilən Allahın qanunu ilə tamamilə ziddiyyət təşkil edir. Tarix boyu heç bir elçi və ya peyğəmbər, şəxs-i mənəvi kimi gəlməmişdir.

Quranda müxtəlif cəmiyyətlərə göndərilən elçilər, nəbilər və rəsulların həyatları, mübarizələri və təbliğləri haqqında bir çox məlumat verilmişdir. Həyatlarının sonuna qədər göndərildikləri qövmləri haqq dinə dəvət etmiş, onları Allahın əzabına qarşı xəbərdar edib qorxutmuş və iman gətirənləri cənnətlə müjdələmişdirlər. Yaşadıqları cəmiyyətlərdəki inkarçıların təzyiqlərinə, qurduqları tələlərə və haqq dinə istiqamətli mübarizələrinə səbir və təvəkkül göstərməklə etiraz etmiş, onları Allahın razı olacağı əxlaqı yaşamağa dəvət etmişdirlər. Bütün bu məlumatlar bizə, tarix boyu heç bir elçi, nəbi və ya rəsulun mənəvi şəxs kimi göndərilmədiyini, bütün elçilərin fərd kimi gəldiklərini göstərir.

Əsrlərdir davam edən bu adətullah (Allahın qanunu), bütün İslam tarixində olduğu kimi, Axırzamanda gələcək hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) üçün də hakimdir. Lakin, əlbəttə ki, bütün peyğəmbərlər və elçilərin olduğu kimi, hz. İsa (ə.s.) və hz. Mehdi (ə.s)-ın da özlərindən ayrı surətdə şəxs-i mənəviləri də olacaq. Quranda, göndərilmiş bütün peyğəmbərlər və elçilərin ətrafında, onlara iman gətirən və onların göstərdikləri haqq yolla gedən müəyyən cəmiyyət olduğu xəbər verilmişdir. Elçilərə iman gətirən bu

insanlar və onların elçiləriylə birlikdə apardıqları bütün fəaliyyətlər, bu elçilərin şəxs-i mənəvilərini meydana gətirər.

Quranda peyğəmbərlərin həyatlarından bəhs edən hekayələrdə bu vəziyyət açıqca görünür. Məsələn, Peyğəmbərimiz (s.ə.v)-in səhabələri, onun şəxs-i mənəvisini meydana gətirmişdir. Lakin bu, Peyğəmbərimiz (s.ə.v)-in varlığı şərti ilə meydana gəlmişdir. Bu vəziyyət Axırzamanda da dəyişməyəcək, Bədiüzzamanın da dilə gətirdiyi kimi, hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) yanlarındakı möminlərin başında bilavasitə hidayət öndəri kimi çıxış edəcəklər.

Dolayısilə Bədiüzzaman Səid Nursi də "şəxs-i mənəvi" termindən istifadə edərkən Quranda bildirilən adətullahda olduğu şəkildə istifadə etmişdir. Necə ki, Bədiüzzaman Səid Nursi də öz tələbələri və əsərləri üçün şəxs-i mənəvi ifadəsindən istifadə etdiyi halda, bu şəxs-i mənəvinin başında yenə özü olmuşdur.

Risale-i Nurun şəxs-i mənəvisinə, əsərlərlə onun ardınca gedən tələbələr də daxildir, lakin Nur hərəkatının öndəri Bədiüzzaman da bu ifadədən ayrı tutula bilməz.

Risale-i Nurda hz. İsa (ə.s)-ın ikinci dəfə gəlməsiylə əlaqəli şərhlər araşdırıldıqda bu həqiqət daha yaxşı aydın olacaq:

*1) Bir vəchi (səbəbi) budur:* ***SEHR, HİPNOZ VƏ SPİRİTİZM KİMİ İSTİDRACI MÖCÜZƏLƏRİYLƏ (hipnoz və ruhlarla əlaqə tərzindəki saxta möcüzələriylə) ÖZÜNÜ MÜHAFİZƏ EDƏN VƏ HƏR KƏSİ TƏSHİR EDƏN (ovsunlayan, aldadan) O DƏHŞƏTLİ DƏCCALI*** *yox edə biləcək, peşəsini dəyişdirəcək;* ***TƏKCƏ XARİQƏ, MUCİZATLI VƏ UMUMUN MƏQBULU*** *(möcüzələri olan və hər kəsin qəbul etdiyi)* ***BİR ŞƏXS OLA BİLƏR Kİ, O ŞƏXS****, ən çox əlaqədar və əksər insanların (insanların çox hissəsinin) Peyğəmbəri olan HƏZRƏTİ İSA ƏLEYHİSSALAMDIR. (Şualar, səh. 493)*

Bədiüzzaman, Axırzamanda ortaya çıxacaq Dəccalın bəzi fövqəladə güclərlə insanları aldatmağa çalışacağını, lakin onun bu fitnəsinin, hz. İsa (ə.s)-ın ikinci dəfə yer üzünə gəlməsiylə tamamilə ortadan qalxacağını qeyd edir:

SEHR, HİPNOZ VƏ SPİRİTİZM KİMİ İSTİDRACI MÖCÜZƏLƏRİYLƏ (HİPNOZ VƏ RUHLARLA ƏLAQƏ TƏRZİNDƏKİ SAXTA MÖCÜZƏLƏRİYLƏ)... HƏR KƏSİ TƏSHİR EDƏN (OVSUNLAYAN, ALDADAN) O DƏHŞƏTLİ DƏCCALI

Bədiüzzaman, Peyğəmbərimiz (s.ə.v)-in hədisləri əsasında Dəccalın bəzi fövqəladə güclərə sahib olacağına diqqət çəkir.

Dəccalın saxta möcüzələr göstərəcəyini bildirən hədislərdən bəziləri belədir:

*Fitnəsindən biri də budur: O, bir bədəviyə: "Söylə görüm! Əgər mən SƏNİN ÜÇÜN ANANI VƏ ATANI DİRİLTSƏM mənim sənin Rəbbin olduğuma şahidlik edərsənmi?"*

*deyəcək. Bədəvi də: "Bəli" deyəcək. Bundan sonra da İKİ ŞEYTAN ONUN ATASI VƏ ANASI SURƏTLƏRİNDƏ ONA GÖRÜNƏCƏK... (Sünen-i İbni Mace, 4077)*

*Onun bir fitnəsi də budur: O, tək bir insana müsəllət edilərək O İNSANI ÖLDÜRÜB MİŞARLA BİÇƏCƏK. Hətta o insanın cəsədi iki hissəyə bölünmüş halda (ayrı-ayrı yerlərə) atılacaq. Sonra isə Dəccal (oradakılara) belə deyəcək: "Bu (öldürdüyüm) quluma baxın. İNDİ MƏN ONU DİRİLDƏCƏYƏM.." (Sünen-i İbni Mace, 4077)*

Hədislərdə, Dəccalın saxta möcüzələrindən, fitnələrini insanlara qəbul etdirə bilmək üçün, istifadə edəcəyi bildirilir (doğrusunu Allah bilər). Zəif ağıllı insanlar bunları sanki bir "möcüzə" zənn edə bilərlər. Halbuki möcüzə Allahın vəli qullarına lütf etdiyi bir nemətdir. Dəccalın göstərdiyi fövqəladə hadisələr isə bir istidrac, yəni Allahın insanları sınamaq üçün yaratdığı və inkarçılarda görülən saxta möcüzələrdir.

Bədiüzzaman, Dəccalın bu hiyləgər üsullardan istifadə edərək insanların əksəriyyətini təsiri altına alacağını qeyd edir. Xüsusilə də bütün xristian aləminin hz. İsa (ə.s)-ı, yəhudilərin isə Dəccalı gözlədikləri bir dövrdə, Dəccalın göstərdiyi bu saxta möcüzələr və hiylələr, bir çox insanın Dəccala aldanmasına səbəb ola biləcək. Bədiüzzaman buradakı sözüylə, Dəccalın bu xüsusiyyətini vurğulayaraq, eyni zamanda onun bir şəxs-i mənəvi olmadığını da ifadə edir. Bədiüzzaman, Dəccalın insanları aldada biləcək xüsusiyyətdə, hipnoz və cadu kimi hiyləgər üsullardan istifadə edə bilmə qabiliyyətinə sahib olduğundan bəhs edərək bu vəziyyəti aydınlığa qovuşdurmuşdur.

Şübhəsiz ki, Bədiüzzamanın Dəccal mövzusundakı bu izahatları əsasında Dəccalın bir şəxs olduğunu qəbul edib, hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) mövzusunda verdiyi onlarla dəlil və təfərrüata baxmayaraq, onların bir şəxs-i mənəvi ola biləcəkləri ehtimalını irəli sürmək çox yanlış yanaşma tərzi olar.

Böyük elm sahibi bir şəxs olan Bədiüzzaman, mütləq bütün sözlərini, müsəlmanları ən düzgün məlumatlandıracaq şəkildə açıqlamış, bu mövzuda da heç bir şübhəyə yer verməyəcək bir üslubla; **"Dəccal kimi, hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın da BİR ŞƏXS olduqlarını"** ifadə etmişdir.

<u>TƏKCƏ XARİQƏ, MUCİZATLI VƏ UMUMUN MƏQBULU (MÖCÜZƏLƏRİ OLAN VƏ HƏR KƏSİN QƏBUL ETDİYİ) BİR ŞƏXS OLA BİLƏR Kİ,</u>:

Bədiüzzaman, Dəccalın fitnəsini ortadan qaldıra biləcək insanın, Allahın rəhməti ilə, möcüzələri olan və insanların əksəriyyətinin özünə tabe olduğu mübarək **"BİR ŞƏXS"** olacağını söyləyir. Sözünün davamında isə, bu müqəddəs insanın hz. İsa (ə.s) olduğunu bildirir. Bu olduqca aydın və başqa heç bir fərqli düşüncəyə yer verməyəcək dəqiqlikdə bir sözdür.

Bədiüzzaman açıqca **"hz. İsa (ə.s)-ın BİR ŞƏXS olduğunu"** ifadə edir və bu qəti ifadəsiylə onun bir şəxs-i mənəvi ola biləcəyi istiqamətindəki bütün düşüncələri tamamilə rədd edir.

Bununla yanaşı, Bədiüzzaman burada istifadə etdiyi: **"XARİQƏ, MUCİZATLI VƏ UMUMUN MƏQBULU BİR ŞƏXS"** sözləriylə də, hz. İsa (ə.s)-ın yenə bir şəxs olduğunu göstərən bəzi mühüm xüsusiyyətlərini vurğulayır. Bədiüzzaman; **"hz. İsa (ə.s)-ın xariqələr və möcüzələr göstərə bilən BİR ŞƏXS olduğunu"** ifadə etmişdir. Həmçinin, **"hz. İsa (ə.s)-ın insanların böyük əksəriyyəti tərəfindən qəbul edilən BİR ŞƏXS olduğunu"** xatırladır.

Üstün bir elmə sahib olan Bədiüzzaman, bir şəxs-i mənəvinin möcüzə göstərməsinin mümkün olmayacağını çox yaxşı bilir. Eynilə bir şəxs-i mənəvinin **"umumun məqbulu bir şəxs"** ola bilməyəcəyini də bilir və hz. İsa (ə.s)-ı tanıdan bütün bu xüsusiyyətlərdən çox şüurlu şəkildə istifadə edərək, onun **"BİR ŞƏXS"** kimi yer üzünə ikinci dəfə gələcəyini bütün müsəlmanlara müjdələyir.

O ŞƏXS... HZ. İSA ƏLEYHİSSALAMDIR:

Bədiüzzaman, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində xəbər verdiyi kimi, Dəccalın fitnəsini hz. İsa (ə.s)-ın ortadan qaldıracağını bildirir:

*Allahın düşməni olan MƏSİH DƏCCAL, İSA ƏLEYHİSSALAMI GÖRDÜKDƏ, DUZUN SUDA ƏRİDİYİ KİMİ ƏRİYƏCƏK. Hz. İsa onu tərk edib getsə belə həlak olana qədər əriyib gedəcək. Lakin ALLAH ONU BİLAVASİTƏ İSA ƏLEYHİSSALAMIN ƏLİYLƏ YOX EDƏCƏK. (Müslim, Kitabü'l Fiten: 34)*

*...DƏCCAL ORTALIĞA FİTNƏ SAÇDIĞI BİR VAXTDA, ALLAH, MƏRYƏM OĞLU İSA MƏSİHİ GÖNDƏRƏCƏK... Nəfəsini alan hər kafir mütləq yox olacaq. Hz. İsa Dəccalla Lut (Beytül-müqəddəsə yaxın bir diyar) qapısında qarşılaşacaq və ONU YOX EDƏCƏK. (Sahih-i Müslim; Büyük Fitne Mesih-i Deccal, Saim Güngör, səh. 104)*

*...Sonra da HZ. İSA, DƏCCALI AXTARACAQ və nəhayət Beytül-müqəddəsə yaxın bir yer olan Lut qapısı adlı yerə çataraq, ONU YOX EDƏCƏK. (Sahih-i Müslim, cild: 4/2251-2255; İmam Şarani, Ölüm, Kıyamet, Ahiret ve Ahir Zaman Alametleri, Bedir nəşriyyatı, səh. 491)*

Bədiüzzaman işlətdiyi **"O ŞƏXS"** ifadəsiylə, hz. İsa (ə.s)-ın **"BİR ŞƏXS"** olduğunu açıqca ifadə etmişdir. Bədiüzzaman burada **"iki və ya üç şəxs"** deməmişdir. Əksinə hz. İsa (ə.s)-dan bəhs edərkən işlətdiyi bütün sözlər həmişə **"TƏKLİKDƏ İŞLƏNMİŞ"** ifadələrdir; və hamısında da **"TƏK BİR ŞƏXSDƏN"** bəhs edir. Bədiüzzaman bu açıqlamalarıyla bir daha hz. İsa (ə.s)-ın şəxs-i mənəvi olmadığını, **"MÜBARƏK BİR İNSAN"** olduğunu çox açıq ifadələrlə göstərmişdir.

*2) Hətta* ***HƏZRƏTİ İSA ƏLEYHİSSALAMIN NÜZULU*** *(yer üzünə enməsi) və* ***ÖZÜNÜN İSA ƏLEYHİSSALAM OLDUĞU, NUR-U İMANIN DİQQƏTİ İLƏ*** *(imanın nuruyla)* ***MƏLUM OLAR; HƏR KƏS TANIYA BİLMƏZ.*** *Hətta* ***DƏCCAL VƏ SÜFYAN KİMİ ƏŞHAS-İ MÜDHİŞƏNİN*** *(ürküdücü şəxslər)* ***ÖZÜ BELƏ ÖZÜNÜ TANIMIR...*** *(Şualar, səh. 487)*

Bədiüzzaman, hz. İsa (ə.s)-ın Axırzamanda yer üzünə ikinci dəfə gələcəyini bildirir, lakin bu mübarək şəxs gəldikdə hər kəsin özünü tanımayacağına diqqət çəkir:

<u>HƏZRƏTİ İSA ƏLEYHİSSALAMIN NÜZULU (YER ÜZÜNƏ ENMƏSİ):</u>

Bədiüzzaman **"HƏZRƏTİ İSA ƏLEYHİSSALAMIN NÜZULU"** sözləriylə hz. İsa (ə.s)-ın, Allahın bir möcüzəsi kimi, Axırzamanda insani bədəni ilə yer üzünə enəcəyindən bəhs edir. Bədiüzzaman verdiyi bu məlumatlarla hz. İsa (ə.s)-ın Axırzamanda xristian cəmiyyətinin başında müəyyən xəyal və ya mənəvi bir lider kimi deyil, bilavasitə hidayət öndəri olan **"BİR ŞƏXS"** kimi çıxış edəcəyini qəti ifadələrlə açıqlayır.

<u>ÖZÜNÜN İSA ƏLEYHİSSALAM OLDUĞU:</u>

Bədiüzzaman bu sözləriylə hz. İsa (ə.s)-ın yer üzünə ilk endiyi vaxt, özünün də hz. İsa (ə.s) olduğunu əvvəllər bilməyəcəyini, lakin daha sonra biləcəyini bildirmişdir. "Belə şüur və idrakın şəxs-i mənəvi üçün mümkün ola bilməyəcəyi" çox aydındır. **"BİLMƏK"** və **"ANLAMAQ"** məhfumları təkcə **"BİR İNSAN"** üçün mümkün ola bilər. Lakin **"bir insan özünün kim olduğunu anlaya bilər"**, içində olduğu vəziyyəti görə bilər.

Bədiüzzaman da bu vəziyyəti çox yaxşı bilən bir kimsə olaraq, bu sözlərdən istifadə etmiş və hz. İsa (ə.s)-ın şəxs-i mənəvi olmadığını açıqca ifadə etmişdir. Bədiüzzamanın bu həqiqəti vurğuladığı ifadələrindən biri də **"ÖZÜ"** sözüdür. Bu söz də yenə **"ŞƏXS"** ifadə edən bir məhfumdur və Bədiüzzaman bu yolla **"hz. İsa (ə.s)-ın maddi varlığı olan mübarək ŞƏXS kimi gələcəyini"** təkrar dilə gətirir.

<u>NUR-U İMANIN DİQQƏTİ İLƏ (İMANIN NURUYLA) MƏLUM OLAR; HƏR KƏS TANIYA BİLMƏZ</u>:

Bədiüzzaman, ətrafındakı insanların, hz. İsa (ə.s)-ın Axırzamanda gözlənilən peyğəmbər olduğunu və Onu təkcə **"İMANLARIYLA GÖRƏ BİLƏCƏKLƏRİNİ"** söyləmişdir. Bu da yenə Bədiüzzamanın hz. İsa (ə.s)-dan şəxs-i mənəvi kimi bəhs etmədiyini açıqca

göstərir. Bədiüzzaman burada açıqca insanların bir şəxs-i mənəvini deyil, **"GÖZLƏDİKLƏRİ BİR ŞƏXSİ"** tanımalarından bəhs edir. Bədiüzzaman həmçinin **"HƏR KƏS TANIYA BİLMƏZ"** deyərək hz. İsa (ə.s)-ı hər kəsin tanıya bilməyəcəyini bir daha ifadə etmişdir.

Bədiüzzamanın da ifadə etdiyi kimi, hz. İsa (ə.s) ikinci dəfə yer üzünə gəldikdə də, səmimi iman gətirənlər imanlarının vəsiləsi ilə, Allahın icazəsi ilə bu mübarək şəxsi dərhal tanıyacaq, onun köməkçisi və dəstəkçisi olacaqlar.

<u>DƏCCAL VƏ SÜFYAN KİMİ ƏŞHAS-İ MÜDHİŞƏNİN (ÜRKÜDÜCÜ ŞƏXSLƏR) ÖZÜ BELƏ ÖZÜNÜ TANIMIR</u>:

Bədiüzzaman, bu sözləriylə məsih Dəccal və süfyan Dəccal kimi, hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-a qarşı inkara əsaslanan mübarizə aparacaq Axırzaman şəxslərinin də hər kəs tərəfindən tanına bilməyəcəyinə diqqət çəkir. Bədiüzzaman burada istifadə etdiyi **"ƏŞHAS-İ MÜDHİŞƏ"** sözlərində işlənən **"ƏŞHAS-İ"** sözüylə, Süfyan və Dəccalın **"BİR ŞƏXS"** olduğunu ifadə edir.

Bədiüzzaman əsərlərində şəxs mənasını verən bənzər sözlərdən hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) üçün də istifadə etmişdir. Süfyan və Dəccalın şəxs kimi ortaya çıxacağını qəbul edib, hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın isə, təkcə şəxs-i mənəvilərinin olacağını düşünmək olduqca təzadlıdır. Bədiüzzamanın da bildirdiyi kimi, süfyan Dəccal və məsih Dəccal necə bir şəxs kimi ortaya çıxırlarsa, bunların fitnələrini ortadan qaldıracaq hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) də Allahın icazəsi ilə Axırzamanda mübarək şəxsləriylə ortaya çıxacaqdırlar.

*3) Hətta, **"HƏZRƏTİ İSA ƏLEYHİSSALAM GƏLƏR, HZ. MEHDİYƏ NAMAZDA İQTİDA EDƏR** (uyar), **TABE OLAR"** deyə rəvayəti BU İTTİFAQA (birləşməyə) VƏ HƏQİQƏT-İ QURANİYƏNİN MƏTBUİYƏTİNƏ VƏ HAKİMİYYƏTİNƏ (Quran həqiqətlərinə uyulmasına və tabe olunmasına) işarə edər. (Şualar, səh. 493)*

Peyğəmbərimiz (s.ə.v) bir hədisində, hz. İsa (ə.s)-ın, hz. Mehdi (ə.s)-ın arxasında namaz qılacağını bildirib:

*İmamları saleh bir insan olan Mehdi olduğu halda, Beytül-müqəddəsə sığınarlar. Orada imamları özlərinə səhər namazını qıldırmaq üçün önə keçdiyi bir vaxtda, bir də görərlər ki, Məryəm oğlu İsa səhər vaxtında enmişdir. Mehdi, hz. İsanı önə keçirmək üçün arxaya çəkilər. Hz. İsa əlini Onun çiyinlərinə qoyar və Ona belə deyər: "Keç önə namazı qıldır. Çünki iqamə (fərz namazını qılmaq üçün oxunulan azan; namaza başlama işarəsi) sənin üçün gətirilib"... (Əbu Rafidən rəvayət edilib; İmam Şarani, Ölüm, Kıyamet, Ahiret ve Ahir Zaman Alametleri, Bedir nəşriyyatı, səh. 495-496)*

Bədiüzzaman, Peyğəmbərimiz (s.ə.v)-in bu hədisinə diqqət çəkir və bu hadisənin hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın zühurlarının mühüm əlamətlərindən biri olduğunu xatırladır.

Bədiüzzaman sözlərində həmçinin hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) dövründə Allahın icazəsi ilə, İslam əxlaqının bütün dünyaya hakim olacağını ifadə edir. Bu hakimiyyətə, hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın ittifaqıyla aparılacaq böyük fikri mübarizənin vəsilə olacağını ifadə edir.

"HƏZRƏTİ İSA ƏLEYHİSSALAM GƏLƏR, HZ. MEHDİYƏ NAMAZDA İQTİDA EDƏR (UYAR), TABE OLAR":

Bədiüzzaman bu sözündə Peyğəmbərimiz (s.ə.v)-in səhih hədisləri əsasında **"HZ. İSA (Ə.S)-IN, HZ. MEHDİ (Ə.S) İLƏ BİRLİKDƏ NAMAZ QILACAĞINI"** ifadə etmişdir. Namaz, Rəbbimizin insanlar üçün fərz buyurduğu bir ibadətdir. Şəxs-i mənəvilərin birlikdə namaz qılması, namazda imamlıq etmələri qeyri-mümkündür. Şübhəsiz ki, Bədiüzzaman da bu həqiqəti çox yaxşı qavrayır və bu sözləriylə, hz. İsa (ə.s)-ın və hz. Mehdi (ə.s)-ın **"BİR ŞƏXS"** kimi ortaya çıxacaqlarını xəbər verir. Hz. İsa (ə.s), yer üzünə əvvəlki gəlişində namaz ibadətini yerinə yetirdiyi kimi, ikinci dəfə gəlişində də Allahın icazəsi ilə bu ibadətinə davam edəcək. Bir ayədə belə buyurulur:

**O (İsa) dedi: "Həqiqətən də, mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və NƏ QƏDƏR Kİ SAĞAM, MƏNƏ NAMAZ QILIB ZƏKAT VERMƏYİ VƏSİYYƏT (ƏMR) ETDİ. (Məryəm surəsi, 30-31)**

Axırzamanda hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın mübarək şəxsləri ortaya çıxacaq, hz. İsa (ə.s), hz. Mehdi (ə.s)-ın imamlığı altında namaz qılacaq və bu iki mübarək şəxsin aparacaqları böyük fikri mübarizə nəticəsində İslam əxlaqı yer üzünə hakim olacaq. Bədiüzzaman bir çox səhih hədisdə qeyd olunan bu mövzunu xatırladaraq, hz. İsa (ə.s) ilə hz. Mehdi (ə.s)-ın gəldikləri vaxt, qarşılıqlı dialoq içində olacaqlarını bildirir. Bunun üçün də, hər iki mübarək şəxs, eyni dövrdə ortaya çıxmalı və bir yerə gəlməlidirlər. Hz. İsa (ə.s)-ın gəlişi və hz. Mehdi (ə.s)-la birlikdə namaz qılmaları bütün dünya müsəlmanları tərəfindən gözlənilir.

*4) **İSA ƏLEYHİSSALAMI NUR-U İMAN** ilə (imanın nuruyla) **TANIYAN** və **TABE OLAN CAMAAT-I RUHANİYƏ-İ MÜCAHİDİNİN** (mübarizə aparan ruhani camaatının) **KƏMİYYƏTİ***

*(sayı), Dəccalın məktəb və əsgər cəhətdən elmi və maddi ordularına nisbətən çox **AZ VƏ KİÇİK** olmasına işarə və kinayədir (məqsədlidir). (Şualar, səh. 495)*

Bədiüzzaman bu sözündə, ikinci dəfə yer üzünə gəldikdə, hz. İsa (ə.s)-ı tanıyacaq və dəstəkçisi olacaq cəmiyyətin xüsusiyyətlərindən bəhs edir:

İSA ƏLEYHİSSALAMI NUR-U İMAN İLƏ (İMANIN NURUYLA) TANIYAN:

Bədiüzzaman bu sözündə bir daha hz. İsa (ə.s)-ın, onu dəstəkləyən camaatı tərəfindən **"İMANIN NURUYLA TANINACAĞI"**ndan bəhs etmiş və açıqca hz. İsa (ə.s)-ın **"BİR ŞƏXS"** olduğunu ifadə etmişdir. **"TANINMAQ"** feli, burada **"tanınacaq bir kimsə olduğunu"** ifadə edir və Bədiüzzamanın mənəvi bir varlığı deyil, bilavasitə hz. İsa (ə.s)-ı nəzərdə tutduğunu göstərir.

Bununla yanaşı, Bədiüzzaman bu sözləriylə hz. İsa (ə.s)-ın və onun şəxs-i mənəvisinin bir-birindən ayrı məhfumlar olduğunu ifadə edir. Çünki Bədiüzzaman **"hz. İsa (ə.s)-ı tanıyan bir cəmiyyət"**dən bəhs edir, həmçinin **"hz. İsa (ə.s)-ın da bu cəmiyyət tərəfindən tanınacağını"** bildirir. Bir şəxs-i mənəvinin başqa bir şəxs-i mənəvini tanıması və ya bir şəxsi mənəvi tərəfindən tanınması istənilən cəhətdən qeyri-mümkündür.

VƏ TABE OLAN:

Bədiüzzaman burada hz. İsa (ə.s)-a **"TABE OLAN"** bir camaatın varlığından bəhs edir. Əlbəttə ki, bir şəxs-i mənəvinin başqa bir şəxs-i mənəviyə tabe olması qeyri-mümkündür. Çünki, bir şəxs-i mənəviyə deyil, təkcə bir şəxsə tabe oluna bilər. Bədiüzzaman da bu ifadəsiylə bu həqiqəti dilə gətirmiş; hz. İsa (ə.s)-ın, özünə itaət edən, tabe olan və onun göstərdiyi yolun ardınca gedən camaatının, yəni şəxs-i mənəvisinin başında **"BİR ŞƏXS"** kimi çıxış edəcəyini xatırlatmışdır. Hz. İsa (ə.s) ilə eyni dövrdə yaşamaq, ona tabe olmaq, həvariləri kimi Allah yolunda bu mübarək şəxsin köməkçiləri olmaq, bütün müsəlmanların nail olmağı arzuladıqları böyük şərəfdir. Hədislərdə və Bədiüzzamanın sözlərində ifadə edildiyi kimi, Allah, hz. Mehdi (ə.s) və yanındakılara, hz. İsa (ə.s) və ona tabe olan az saydakı iman sahibləriylə eyni cərgədə fikri mübarizə aparmağı nəsib edəcək. Bədiüzzaman əsərlərində bu haqq fikri mübarizənin özündən dərhal sonrakı dövrdə aparılacağını ifadə edərək, hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın onun yaşadığı illərdə hələ zühur etmədiyini ifadə etmişdir.

CAMAAT-I RUHANİYƏ-İ MÜCAHİDİNİN (MÜBARİZƏ APARAN RUHANİ CAMAATININ):

Bədiüzzaman bu sözlərində hz. İsa (ə.s)-ın, özünü dəstəkləyən, ona iman gətirən və göstərdiyi yolun ardınca gedən insanlardan ibarət olan bir camaatı olacağından bəhs edir.

Bu camaat hz. İsa (ə.s)-ın şəxs-i mənəvisini meydana gətirir. Lakin başında da bir lider və bu şəxs-i mənəvini təmsil edən şəxs kimi, bilavasitə hz. İsa (ə.s) çıxış edəcək. Bədiüzzaman da bu sözləriylə, hz. İsa (ə.s)-ın şəxsi ilə onun şəxs-i mənəvisinin bir-birindən iki fərqli anlayış olduğunu vurğulayır.

Hz. İsa (ə.s)-ın yüksək mənəviyyatını anlamaq, təkcə bu mübarək şəxsi qəbul edə biləcək səviyyədə mənəviyyata sahib insanlara nəsib olacaq. Bu cəmiyyət Bədiüzzaman tərəfindən **"camaat-ı ruhaniyə-i mücahidin"** sözləriylə ifadə edilmişdir. Bədiüzzamanın da ifadə etdiyi kimi bu dəstə, ruhaniyəti, mənəvi dərəcəsi yüksək və Allah yolunda fikri mübarizə edən, davamlı səy içində olan bir dəstədir.

<u>KƏMİYYƏTİ (SAYI)... AZ VƏ KİÇİK</u>:

Bədiüzzaman hz. İsa (ə.s)-ın bir lider kimi başında olduğu dəstənin sayının, Allahı inkar edən dəstə ilə müqayisədə daha az və kiçik olduğunu bildirir. Uca Allahın Quranda bildirdiyi kimi: **"...neçə-neçə az saylı dəstələr Allahın icazəsi ilə çox saylı dəstələrə qalib gəlmişdir!"** (Bəqərə surəsi, 249).

Axırzamanda da hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-a bağlı olub sayları az, lakin Allaha qəlbən iman gətirən saleh möminlər (Allahın icazəsi ilə) üstün gələcəklər, Dəccalın fitnəsini tam mənasıyla ortadan qaldıracaqlar. Bədiüzzaman bu sözləriylə bir daha hz. İsa (ə.s)-ın bilavasitə təmsil etdiyi camaatından bəhs edir, bu camaatın xüsusiyyətlərini izah edir. Lakin yuxarıda da açıqlandığı kimi, bu mömin camaatın başındakı lider də hz. İsa (ə.s)-ın şəxsidir. Bədiüzzaman bu yolla hz. İsa (ə.s)-ın mənəvi şəxsiyyət deyil, təmsil etdiyi şəxs-i mənəvinin başında olan **"BİR ŞƏXS"** olduğunu ifadə edir.

*5) O qədər qüvvətlidir və belə davam edər; "**TƏKCƏ HƏZRƏTİ İSA (Ə.S) ONU YOX EDƏ BİLƏR, BAŞQA ÇARƏ OLA BİLMƏZ"** deyə rəvayət edilib. Yəni, **ONUN PEŞƏSİNİ VƏ VƏHŞİ REJİMİNİ KORLAYACAQ, YOX EDƏCƏK; lakin SƏMAVİ VƏ ÜLVİ, XALİS (vəhyə əsaslanan və uca, qatqısız) BİR DİN İSƏVİLƏRDƏ ZÜHUR EDƏCƏK (ortaya çıxacaq) VƏ HƏQİQƏT-İ QURANİYƏYƏ (Quranın həqiqətlərinə) İQTİDA (tabe olan) VƏ İTTİHAD EDƏN (İslamiyyətlə birləşən) BU İSƏVİ DİNİDİR Kİ, HƏZRƏTİ İSA (Ə.S)-IN NÜZULU İLƏ (yer üzünə enməsiylə) O DİNSİZ PEŞƏ MƏHV OLAR, YOX OLAR...** (Şualar, səh. 581)*

Bədiüzzaman bu sözündə Dəccalın fitnəsini, təkcə hz. İsa (ə.s)-ın təsirsiz hala gətirə biləcəyinə işarə edən bir hadisə diqqət çəkmişdir. Dəccalın inkara əsaslanan

nizamını, təcavüzkar rejimini ortadan qaldıracaq, "dinsizliyi insanlar arasında yaymaq və müqəddəs şeyləri pozmaq" kimi təsvir edilən peşəsini pozacaq insanların, hz. İsa (ə.s) və ona tabe olan səmimi İsəvilər olduğunu ifadə etmişdir. Hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gəlməsiylə Dəccalın dinsiz peşəsi yox olub təsirsiz hala gələcək:

<u>TƏKCƏ HƏZRƏTİ İSA (Ə.S) ONU YOX EDƏ BİLƏR, BAŞQA ÇARƏ OLA BİLMƏZ</u>:

Bədiüzzaman bu sözləriylə, Peyğəmbərimiz (s.ə.v)-in hədisləri əsasında Dəccalı fikirlə təsirsiz hala gətirib, onun fitnəsini yer üzündən yox edə biləcək insanın təkcə hz. İsa (ə.s) olduğunu ifadə edir.

Bədiüzzaman burada işlətdiyi **"ONU"** sözüylə, Dəccalın **"BİR ŞƏXS"** olduğunu dilə gətirmişdir. Bədiüzzamana görə, bu şəxsin inkara əsaslanan səyini dayandıracaq insan isə, yenə **"BİR ŞƏXS OLAN HZ. İSA (ə.s)"**dır. Bədiüzzamanın bu sözləri olduqca aydındır. Buna baxmayaraq, Dəccalın bir şəxs, lakin hz. İsa (ə.s)-ın mənəvi varlıq olacağı düşüncəsini mənimsəmək, şübhəsiz ki, Bədiüzzamanın verdiyi bu məlumatlarla açıqca ziddiyyət təşkil edir. Bədiüzzaman, Dəccalı təsirsiz hala gətirə biləcək tək şəxsin hz. İsa (ə.s) olduğunu açıqca ifadə etmiş və bütün iman sahiblərini bu qiymətli şəxsin yer üzünə ikinci dəfə gəlməsiylə müjdələmişdir.

<u>ONUN PEŞƏSİNİ VƏ VƏHŞİ REJİMİNİ KORLAYACAQ, YOX EDƏCƏK</u>:

Bədiüzzaman, Dəccalın fitnəsinin bütün yer üzündə böyük fitnə-fəsada səbəb olacağına diqqət çəkir. Bu fitnənin tam mənasıyla ortadan qaldırılmasının isə, hz. İsa (ə.s) vəsiləsi ilə mümkün olacağını bildirir.

Bədiüzzaman, Dəccalın peşəsinin dinsizliyi bütün yer üzünə yaymaq və dinsizlikdən qaynaqlanan fəlakətlər meydana gətirmək olduğunu ifadə edir. Yenidən yer üzünə qayıtdığı vaxt, hz. İsa (ə.s)-ın, Dəccalın səbəb olduğu fəlakət və pisliklərin qarşısını alacağını, onun peşəsini təsirsiz hala gətirəcəyini və İslam əxlaqını bütün dünyaya hakim edəcəyini müjdələyir. Bədiüzzaman bu sözlərində, hz. İsa (ə.s)-ın yer üzünə maddi varlığı olan **"BİR İNSAN"** kimi gələcəyini təkrar xatırladır. **"ONUN"** sözüylə isə, Dəccalın da bir şəxs olduğunu bir daha vurğulamış və bu şəxsin yenə **"BİR ŞƏXS"** olan hz. İsa (ə.s) tərəfindən təsirsiz hala gətiriləcəyini ifadə etmişdir.

<u>SƏMAVİ VƏ ÜLVİ, XALİS (VƏHYƏ ƏSASLANAN VƏ UCA, QATQISIZ) BİR DİN İSƏVİLƏRDƏ ZÜHUR EDƏCƏK (ORTAYA ÇIXACAQ) VƏ HƏQİQƏT-İ QURANİYƏYƏ (QURANIN HƏQİQƏTLƏRİNƏ) İQTİDA (TABE OLAN) VƏ İTTİHAD EDƏN (İSLAMİYYƏTLƏ BİRLƏŞƏN) BU İSƏVİ DİNİDİR Kİ</u>:

Hz. İsa (ə.s) Allahın mübarək bir elçisidir. Bütün peyğəmbərlər kimi, o da insanları bir və tək olaraq Allaha iman gətirməyə və Allahın əmr etdiyi din əxlaqını yaşamağa dəvət etmişdir.

Lakin hz. İsa (ə.s)-ın Allah qatına yüksəldilməsindən sonra, xristianlıq inancı təhrif olunmuş və xristianlar hz. İsa (ə.s)-ın özlərinə təbliğ etdiyi haqq dindən uzaqlaşmışdırlar. Hz. İsa (ə.s) ikinci dəfə yer üzünə gəldikdə, xristianlığı təhrif olunmuş istiqamətlərindən təmizləyəcək və yenidən əslinə qaytaracaq. Bədiüzzaman da **"XALİS BİR DİN İSƏVİLƏRDƏ ORTAYA ÇIXACAQ"** sözləriylə bu həqiqətə diqqət çəkir. Bədiüzzaman xristianlığın Qurana tabe olaraq İslamiyyətlə birləşəcəyini bildirmiş və bütün bu hadisələrin hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gəlməsinin əlamətlərindən olacağını xatırlatmışdır. Bədiüzzamanın müjdələdiyi bu hadisələr hələ baş verməmişdir. Bədiüzzaman da yaşadığı dövrdə bu mövzuya diqqət çəkərək, həm hz. İsa (ə.s)-ın sonrakı bir tarixdə gələcəyini müjdələmiş, həm də hz. İsa (ə.s) ilə eyni dövrdə yaşayacaq hz. Mehdi (ə.s)-ın da, öz dövründə zühur etmədiyini vurğulamışdır.

HƏZRƏTİ İSA (Ə.S)-IN NÜZULU İLƏ (YER ÜZÜNƏ ENMƏSİYLƏ) O DİNSİZ PEŞƏ MƏHV OLAR, YOX OLAR:

Bədiüzzaman, Quran ayələrində bildirilən işarələrə və hədislərdə verilən məlumatlara əsaslanaraq, hz. İsa (ə.s)-ın yer üzünə yenidən gələcəyini söyləyir. Bədiüzzaman burada işlətdiyi **"NÜZUL"** sözüylə, hz. İsa (ə.s)-ın "bir xəyal, bir ruh və ya təmsili bir şəxs" deyil, Allahın bir möcüzəsi olaraq insani bədəniylə ikinci dəfə yer üzünə gələcək **"BİR ŞƏXS"** olduğunu açıqlayır.

Bədiüzzaman, Dəccalın inkara əsaslanan səylərinin də, hz. İsa (ə.s)-ın **"NÜZULU"**, yəni **"BİR ŞƏXS KİMİ YER ÜZÜNƏ GƏLMƏSİ"**ndən sonra bitəcəyini ifadə edir.

*6) Bəli, hədisin ifadəsiylə **HƏZRƏTİ İSANIN SƏMAVİ NÜZULU (səmadan enməsi) QƏTİ OLMAQLA YANAŞI**; məna-yi işarisiylə (işarə etdiyi məna ilə) başqa həqiqətləri ifadə etdiyi kimi, bu həqiqətə də möcizanə (möcüzəvi şəkildə) işarə edir. (Kastamonu Lahikası, səh. 50)*

Bədiüzzaman, hz. İsa (ə.s)-ın Axırzamanda yenidən yer üzünə gəlməsinin qəti olduğunu ifadə edir:

HƏZRƏTİ İSANIN SƏMAVİ NÜZULU (səmadan enişi) QƏTİ OLMAQLA YANAŞI:

Hz. İsa (ə.s)-ın Axırzamanda yenidən yer üzünə gələcək olması, Qurani Kərimdə və hədislərdə bildirilən bir həqiqətdir. Bədiüzzaman da bu həqiqəti dilə gətirir və

hədislərdə hz. İsa (ə.s)-ın yenidən dünyaya gələcəyinin açıqca bildirildiyini söyləyir. Bu, səmimi iman sahibləri üçün çox dəyərli müjdədir. Allahın icazəsi ilə, Axırzamanda yaşayan möminlər bu möcüzəyə şahidlik edəcək, aradan keçən 2000 ildən sonra, hz. İsa (ə.s)-ın təkrar yer üzünə gəlməyinə şahid olacaqlar.

Bədiüzzaman bu sözündə işlətdiyi **"QƏTİ"** sözüylə, hz. İsa (ə.s)-ın yenidən dünyaya qayıtmasının **"MÜTLƏQ"** bir həqiqət olduğunu ifadə edir. Bədiüzzamanın, Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə əsaslanaraq verdiyi bu xəbər, əks istiqamətdəki bütün iddiaları qüvvədən salır.

*7)* ***...HƏZRƏTİ İSA ƏLEYHİSSALAM, İSƏVİLİK ŞƏXS-İ MƏNƏVİSİNİ TƏMSİL EDƏRƏK DİNSİZLİYİN ŞƏXS-İ MƏNƏVİSİNİ TƏMSİL EDƏN DƏCCALI*** *yox edəcək... (Mektubat, səh. 6)*

Bədiüzzaman bu sözündə, hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gələcəyini və Dəccalın fitnəsini fikirlə təsirsiz hala gətirəcəyini bildirir:

HƏZRƏTİ İSA ƏLEYHİSSALAM, İSƏVİLİK ŞƏXS-İ MƏNƏVİSİNİ TƏMSİL EDƏRƏK:

Bədiüzzaman bu sözündə **"HZ. İSA (Ə.S)-IN XRİSTİANLIĞIN ŞƏXS-İ MƏNƏVİSİNİ TƏMSİL ETDİYİNİ"** ifadə edir. Bədiüzzaman, tarix boyu göndərilmiş bütün elçilər və peyğəmbərlər kimi, hz. İsa (ə.s)-ın da onu dəstəkləyən, ona iman gətirən və onun ardınca gedən insanlardan ibarət olan şəxs-i mənəvisi olacağını bildirir.

Lakin Bədiüzzaman **"İSƏVİLİK ŞƏXS-İ MƏNƏVİSİNİ TƏMSİL EDƏRƏK"** sözləriylə, Allahın qanununa uyğun olaraq **"HZ. İSA (Ə.S)-IN DA BU ŞƏXS-İ MƏNƏVİNİN BAŞINDA BİLAVASİTƏ BİR HİDAYƏT ÖNDƏRİ KİMİ ÇIXIŞ EDƏCƏYİNİ"** ifadə edir.

Necə ki, bir şəxs-i mənəvinin başqa bir şəxs-i mənəvini təmsil etməsi qeyri-mümkündür. Bir şəxs-i mənəvinin meydana gələ bilməsi üçün, əvvəla onun başında **"BİR ŞƏXS"** olmalıdır. Bədiüzzaman da bu həqiqəti vurğulayaraq hz. İsa (ə.s)-ın şəxs-i mənəvi olmadığını, öz şəxs-i mənəvisinin başında çıxış edəcəyini və onlara bilavasitə liderlik edəcəyini açıqlayır. Bədiüzzamanın ifadə etdiyi bu həqiqətlər, bir iki sual verildikdə də asanlıqla aydın olur:

**1) İsəvilik şəxs-i mənəvisini bir insan təmsil edir. Bəs bu kimdir?**

**Hz. İsa (ə.s).**

**2) Hz. İsa (ə.s) kimi təmsil edir?**

**İsəvilik şəxs-i mənəvisini.**

Bu sualların cavabları Bədiüzzamanın hz. İsa (ə.s)-dan və şəxs-i mənəvisindən ayrı anlayışlar kimi bəhs etdiyini açıqca göstərir.

DİNSİZLİYİN ŞƏXSİ MƏNƏVİSİNİ TƏMSİL EDƏN DƏCCALI:

Bədiüzzaman eynilə hz. İsa (ə.s) kimi Dəccalın da şəxs-i mənəvisi olacağını ifadə edir. Lakin Bədiüzzaman **"DİNSİZLİYİN ŞƏXS-İ MƏNƏVİSİNİ TƏMSİL EDƏN DƏCCALI"** sözləriylə, Dəccalın da yenə **"BİR ŞƏXS KİMİ BU ŞƏXS-İ MƏNƏVİNİN BİLAVASİTƏ BAŞINDA ÇIXIŞ EDƏCƏYİNİ"** ifadə edir.

Bədiüzzaman əsərlərində, Peyğəmbərimiz (s.ə.v)-in Axırzamanda gələcəyini xəbər verdiyi bütün adların bir şəxs olduqlarını müxtəlif dəlillərlə açıqlamışdır. Dəccal da bu Axırzaman şəxslərindən biridir. Bədiüzzaman Dəccalın bir şəxs olacağını nə qədər təfərrüatlı şəkildə açıqlamışdırsa, hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın şəxs olacaqları mövzusunda da eyni açıqlıqda dəlillər ortaya qoymuşdur.

Şübhəsiz ki, Bədiüzzamanın bu izahatlarından bir hissəsini fərqli şərh edib, hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın şəxs-i mənəvi, lakin Dəccalın şəxs olacağını düşünmək çox yanlış yanaşma tərzi olacaq. Çünki Bədiüzzaman Dəccal kimi, **"hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın da BİR ŞƏXS KİMİ gələcəklərini"** israrla təkrarlamış və bunları dəlilləriylə birlikdə açıqlamışdır.

*8) ...Dinsizlik cərəyanına qarşı ayrı-ayrılıqda mübarizə apararkən məğlub olan İsəvilik və İslamiyyət; ittihad (birləşmələri) nəticəsində, dinsizlik cərəyanına (axınına) qələbə çalıb (qalib gəlib), onu yox edəcək istedadda (qabiliyyətdə) olarkən,* ***ALƏM-İ SƏMAVATDA (göylər aləmində) CİSM-İ BƏŞƏRİSİYLƏ (insani cismiylə, bədəniylə) MÖVCUD OLAN ŞƏXSİ İSA ƏLEYHİSSALAM O DİN-İ HAQQ CƏRƏYANININ (haqq dinin) BAŞINA KEÇƏCƏYİNİ*** *bir Müxbiri Sadiq (doğru xəbər çatdıran (Peyğəmbərimiz (s.ə.v)-in sifətlərindən biri)), bir Qadir-i Külli Şeyin (hər şeyə qadir olan uca Allahın) vədinə isnad edərək (əsaslanaraq) xəbər vermişdir. Madam ki, xəbər vermişdir, haqqdır; madam ki,* ***QADİR-İ KÜLLİ ŞEY (hər şeyə qadir olan uca Allah) VƏD EDİB, O ZAMAN, ƏLBƏTTƏ, EDƏCƏK...*** *(Mektubat, səh. 53-54)*

Bədiüzzaman, xristianların Qurana qayıdaraq İslamiyyətə tabe olmaları və bu iki İlahi dinin birləşmələri nəticəsində güclənib, inkarçı fəlsəfələri yox edəcək güc qazanacaqlarını izah edir.

Bu dövrdə, hz. İsa (ə.s) ikinci dəfə yer üzünə gəlib, bu gücün başına keçəcək. Bədiüzzaman, Peyğəmbərimiz (s.ə.v)-in bu müjdəni Allahın vədinə əsaslanaraq xəbər verdiyini bildirmiş və Allahın Öz vədini mütləq yerinə yetirəcəyini xatırlatmışdır:

ALƏM-İ SƏMAVATDA (GÖYLƏR ALƏMİNDƏ) CİSM-İ BƏŞƏRİSİYLƏ (İNSANİ CİSMİYLƏ, BƏDƏNİYLƏ) MÖVCUD OLAN:

Bədiüzzaman bu sözündə, yaxın gələcəkdə xristianlığın, dinə sonradan daxil edilən bəzi inanc və tətbiqlərdən təmizlənərək əslinə qayıdacağını və Qurana tabe olacağını izah edir. İslamiyyətə tabe olan xristianlığın, güclərini müsəlmanlarla birləşdirəcəklərini və dinsizliyə qarşı ortaq fikri mübarizə aparacaqlarını bildirir.

Bədiüzzaman **"ALƏM-İ SƏMAVATDA CİSM-İ BƏŞƏRİSİYLƏ MÖVCUD OLAN"** sözləriylə, bədəni ilə göylər aləmində olan hz. İsa (ə.s)-ın, yer üzünə enərək bu mübarizənin başına keçəcəyini ifadə edir. Bədiüzzaman bu sözlərində bədəni (cism-i bəşərisi) ilə yer üzünə enəcəyini bildirərək, hz. İsa (ə.s)-ın mübarək şəxsiylə **"BİR ŞƏXS"** kimi yer üzünə gələcəyini ifadə etmişdir.

Bədiüzzaman burada **"İNSAN"** mənasını verən **"BƏŞƏR"** sözündən istifadə edərək hz. İsa (ə.s)-ın şəxs-i mənəvi deyil, **"cismani cəhətdən varlığı olan bir şəxs"** olduğunu açıqca ifadə etmişdir.

ŞƏXS-İ İSA ƏLEYHİSSALAM:

Bədiüzzamanın burada işlətdiyi **"ŞƏXS-İ İSA ƏLEYHİSSALAM"** ifadəsi, **"HZ. İSA (Ə.S)-IN ŞƏXSİ"** mənasını verir. Dolayısilə Bədiüzzaman sözləriylə hz. İsa (ə.s)-ın "şəxsi mənəvi olmadığı" mövzusuna qəti aydınlıq gətirir. Hz. İsa (ə.s) Axırzamanda bir şəxs kimi ikinci dəfə yer üzünə gələcək, Dəccalın fitnəsini aradan qaldıracaq və hz. Mehdi (ə.s) ilə əməkdaşlıq edəcək. Hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın vəsilə olmasıyla İslam əxlaqı bütün dünyaya hakim olacaq.

Axırzamanın bu böyük müjdələri hələ gerçəkləşməmişdir və İslam aləmi tərəfindən bu müqəddəs hadisələrin gerçəkləşməsi gözlənilir. Bədiüzzaman da bu ifadəsiylə, hz. Mehdi (ə.s)-ın keçmiş dövrdə zühur etdiyi iddiasının yanlışlığını göstərir. Çünki hələ, hz. İsa (ə.s)-ın gəlişi və hz. Mehdi (ə.s)-la olan ittifaqı baş tutmamış və Dəccalın fitnəsi tam mənasıyla aradan qaldırılmamışdır.

Şübhəsiz ki, belə geniş miqyaslı hadisələr bütün dünyanın gözləri qarşısında cərəyan edəcək. Kütləvi informasiya vasitələrinin vasitəçiliyi ilə, hər kəsin dərhal xəbərdar olacağı və yaşayacağı bu böyük dəyişiklik, nə Bədiüzzamanın dövründə, nə də başqa dövrdə yaşanmamışdır.

O DİN-İ HAQQ CƏRƏYANININ (HAQQ DİNİN) BAŞINA KEÇƏCƏYİNİ:

Bədiüzzaman, **"O DİN-İ HAQQ CƏRƏYANININ BAŞINA KEÇƏCƏYİNİ"** sözləriylə hz. İsa (ə.s)-ın, yenidən yer üzünə gəldikdə həqiqi İsəvilərin lideri olacağını bildirir. Hz. İsa (ə.s)-ın gəlməsiylə, xristianlıq batil inanc və hökmlərindən təmizlənəcək və Qurana tabe olacaq.

Bədiüzzamanın hz. İsa (ə.s) ilə əlaqədar xəbər verdiyi bütün bu hadisələr, hz. Mehdi (ə.s)-ın zühur etdiyi eyni dövrlərdə baş verəcək. Lakin nə hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gəlməsi və bütün İsəvilərin liderliyini boynuna götürməsi, nə də xristianların dinlərini batil inanc və tətbiqlərdən təmizləyərək İslama yönəlmələri hələ baş tutmamışdır.

Bu hadisələrlə birlikdə hz. İsa (ə.s)-ın hz. Mehdi (ə.s)-la olan birgəliyi hələ gerçəkləşməyib. Dolayısilə Bədiüzzaman, verdiyi bütün bu məlumatlarla bizə hz. Mehdi (ə.s)-ın keçmiş dövrlərdə gəlmədiyini, gözlənilən bütün bu hadisələrin də hz. Mehdi (ə.s)-ın zühurunun ən aydın əlamətlərindən olacağını müjdələyir.

<u>QADİR-İ KÜLLİ ŞEY (HƏR ŞEYƏ QADİR OLAN UCA ALLAH) VƏD EDİB, O ZAMAN, ƏLBƏTTƏ, EDƏCƏK</u>:

Bədiüzzaman, bu müqəddəs hadisələrin gerçəkləşməsinin uca Allahın bir vədi olduğuna diqqət çəkir. Allah Quranda bütün iman gətirənləri, İslam əxlaqının yer üzünə hakim olacağı mövzusunda müjdələyir.

Allahın bu vədi bir ayədə belə bildirilmişdir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri "güc və hakimiyyət sahibi" etdiyi kimi, onları da "güc və hakimiyyət sahibi" edəcək, özləri üçün seçib bəyəndiyi dinlərini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar təkcə Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra inkar edənlər – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

Quranda Allahın vədini mütləq yerinə yetirəcəyi isə, bəzi ayələrdə belə bildirilir:

**Budur Allahın vədi. Allah Öz vədinə xilaf çıxmaz. Lakin insanların əksəriyyəti bilmir. (Rum surəsi, 6)**

**...Həqiqətən, Allah vədinə xilaf çıxmaz! (Ali İmran surəsi, 9)**

**...Şübhəsiz ki, Allah vədinə xilaf çıxmaz. (Rad surəsi, 31)**

Allahın Quran ayələrində bildirilən bu müjdəli vədləri inşaAllah yerinə yetəcək. Bədiüzzaman da sözlərində Qurandakı bu məlumatlara əsaslanaraq çox qəti bir ifadə işlətmiş və Allahın icazəsi ilə Axırzamanda bu hadisələrin **"MÜTLƏQ BAŞ VERƏCƏYİNİ"** xatırlatmışdır.

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində və Bədiüzzamanın sözlərində Axırzamanla əlaqədar bildirilən hadisələr bu günə qədər baş verməmişdir. Necə ki, Bədiüzzaman **"EDƏCƏK"** ifadəsiylə "baş vermis və ya baş verməkdə olan" bir hadisəni deyil, **"GƏLƏCƏKDƏ BAŞ VERƏCƏK"** bir hadisəni izah edir.

Hz. İsa (ə.s) hələ ikinci dəfə yer üzünə gəlməmişdir. Bu mübarək şəxsin ikinci dəfə gəlməsini bütün İslam və xristian aləmi gözləyir. Hz. Mehdi (ə.s) ilə olan ittifaqı da hələ baş tutmamışdır. Bədiüzzaman da bu sözlərində bu həqiqəti xatırlatmış və hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın özündən **"DAHA SONRAKI BİR TARİXDƏ GƏLƏCƏKLƏRİNİ"** müjdələmişdir.

*9) Bəli **HƏR VAXT SƏMAVATDAN MƏLAİKƏLƏRİ (səmadan mələkləri) YERƏ GÖNDƏRƏN** və bəzi vaxtda insan surətinə vəz edən (salan) (həzrəti Cəbrayılın "dihyə" surətinə girməsi kimi) və ruhaniləri (cisim olmayıb gözlə görülməyən varlıqları; cin və mələkləri) aləm-i ərvahdan (ruhlar aləmindən) göndərib bəşər surətinə (insan formasına) təməssül etdirən (salan, cisimləşdirən), hətta ölmüş övliyaların çoxlarının ərvahlarını (ruhlarını) cəsəd-i misalıyla (varlığı maddi olmayan lakin cinsinin cəsədinə bənzəyən bədən) dünyaya göndərən bir Hakimi Zülcəlal (hər şeyə qadir olan uca Allah), HƏZRƏTİ İSA ƏLEYHİSSALAMI, İSA DİNİNƏ AİD ƏN MÜHÜM BİR HÜSN-Ü XATİMƏSİ (gözəl nəticəsi) ÜÇÜN, nəinki SƏMA-İ DÜNYADA (göylər aləmində) CƏSƏDİYLƏ (insani bədəniylə) MÖVCUD OLAN VƏ HƏYATDA OLAN HƏZRƏTİ İSA, bəlkə **ALƏM-İ AXİRƏTİN (axirət aləminin) ƏN UZAQ GUŞƏSİNƏ GETSƏYDİ VƏ HƏQİQƏTƏN ÖLSƏYDİ, YENƏ BELƏ BİR NƏTİCƏ-İ ƏZİMƏ (böyük nəticə) ÜÇÜN ONU YENİDƏN CƏSƏD SAHİBİ EDİB DÜNYAYA GÖNDƏRMƏK, O HAKİMİN HİKMƏTİNDƏN UZAQ DEYİL**... bəlkə Onun hikməti elə iqtiza etdiyi üçün (lazım olduğu üçün) VƏD EDİB VƏ VƏD ETDİYİ ÜÇÜN, ƏLBƏTTƏ, GÖNDƏRƏCƏK. (Mektubat, səh. 56-57)*

Bədiüzzaman, bir daha hz. İsa (ə.s)-ın ikinci dəfə yer üzünə gəlməsinin mütləq gerçəkləşəcəyini bildirir və mələklərin mövqeyini nümunə verərək bu mövzunu açıqlayır:

<u>HƏR VAXT SƏMAVATDAN MƏLAİKƏLƏRİ (SƏMADAN MƏLƏKLƏRİ) YERƏ GÖNDƏRƏN</u>:

Hz. İsa (ə.s)-ın Axırzamanda yenidən dünyaya qayıdacaq olması Rəbbimizin möcüzələrindən biridir. Bədiüzzaman sözləriylə Quranda və hədislərdə xəbər verilən bu açıq həqiqəti dilə gətirir və hz. İsa (ə.s)-ın Allahın icazəsi ilə yer üzünə ikinci dəfə gəlməsinin qəti həqiqət olduğunu açıqlayır.

Bədiüzzaman, mələklərin də Allahın icazəsi ilə lazım gəldikdə yer üzünə gəldiklərini söyləyir, hz. İsa (ə.s)-ın da, Allahın təqdir etdiyi vaxt gəldikdə, yer üzünə geri qayıdacağını və Rəbbimizin elçisi kimi insanları həqiqi din əxlaqına dəvət edəcəyini izah edir. Mələklər, insanların bildiyi zaman və məkan aləmindən fərqli aləmdə yaşayarlar. Mələklərin yaşadığı aləmin, bizim bildiyimiz anlayışlardan kənar olduğuna işarə edən bir ayə belədir:

**(Bu əzab) Yüksək mövqelərin sahibi olan Allahdandır. Mələklər və Ruh (Cəbrail) Ona doğru sayı əlli min ilə bərabər bir gün ərzində qalxırlar. (Məaric surəsi, 3-4)**

Ayədə bildirilən "əlli min ilə bərabər bir gün" ifadəsi, mələklərin bizim məhdudlaşdığımız zaman məhfumu ilə məhdudlaşmadıqlarını göstərir. Həmçinin insana məlum olan zaman məhfumundan kənar bir həyat daha olduğunun və bu həyatın dünyadakına bənzər zaman və ya məkan məhfumundan asılı olmadığının dəlillərindən biridir. Hz. İsa (ə.s) da belə bir aləmdə yaşamaqda bilər (doğrusunu Allah bilər).

Mələklərin, Allahın istədiyi vaxtda təqdir etdiyi bir iş üçün dünyaya gəlmələri isə, digər aləmlərdən bizim aləmimizə keçməyin, Rəbbimizin icazəsi ilə mümkün olduğunu göstərir. Quranda mələklərin, bəzən Allahın insanlara vəhyini çatdırmaq, bəzən də möminlərə kömək etmək və onlara dəstək olmaq üçün, Allahın icazəsi ilə yer üzünə endikləri bildirilir:

**O vaxt sən möminlərə demişdin: “Rəbbinizin göndərdiyi üç min mələklə köməyinizə çatması, sizə bəs etmirmi?” (Ali İmran surəsi, 124)**

**Allah qullarından istədiyi kimsəyə mələkləri əmrindən olan ruhla endirib buyurur: “Qullarımı xəbərdar edin ki, Məndən başqa İlah yoxdur. Məndən qorxun!” (Nəhl surəsi, 2)**

Həmçinin, Quranda hz. İbrahim və hz. Luta mələklərin elçilər kimi gəlib qövmlərinə gələcək əzabı xəbər verdikləri; hz. Zəkəriyaya gəlib onu bir uşaqla müjdələdikləri; hz. Məryəmə gəlib özünün seçilmiş olduğunu və hz. İsa (ə.s)-ın

doğumunu xəbər verdikləri bildirilir. Qurani Kərimin Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-ə Cəbrayıl vasitəsilə vəhy edilməsi və Peyğəmbərimiz (s.ə.v)-in Cəbrayılı görməsindən də bəhs edilir. Bədiüzzaman da mələklərin bu mövqeyini nümunə verərək, hz. İsa (ə.s)-ın Axırzamanda insani bədəniylə ikinci dəfə yer üzünə gəlməsinin Allahın qanununa uyğun olduğunu və Allahın bu vədinin gerçəkləşəcəyini bildirir.

HƏZRƏTİ İSA ƏLEYHİSSALAMI, İSA DİNİNƏ AİD ƏN MÜHÜM BİR HÜSN-Ü XATİMƏSİ (GÖZƏL NƏTİCƏSİ) ÜÇÜN:

Bədiüzzaman **"İSA DİNİNƏ AİD ƏN MÜHÜM BİR HÜSN-Ü XATİMƏSİ ÜÇÜN"** sözləriylə Rəbbimizin **"MÜHÜM BİR GÖZƏL NƏTİCƏ"** üçün hz. İsa (ə.s)-ı ikinci dəfə yer üzünə göndərəcəyini müjdələyir. Hz. İsa (ə.s)-ın yenidən yer üzünə gəlməsiylə, xristianlıq bütün batil inanc və batil tətbiqlərindən təmizlənəcək və İslama qayıdacaq.

Bu vəsilə ilə, xristianlıq hz. İsa (ə.s)-a vəhy edilmiş haqq vəziyyətinə qayıdacaq, müsəlmanlarla həqiqi İsəvilər arasında ittifaq qurulacaq və bu haqq ittifaq yer üzünə sülh və dinclik gətirəcək.

SƏMA-İ DÜNYADA (GÖYLƏR ALƏMİNDƏ) CƏSƏDİYLƏ (İNSANİ BƏDƏNİYLƏ) MÖVCUD OLAN VƏ HƏYATDA OLAN HƏZRƏTİ İSA:

Bədiüzzaman, bu sözləriylə hz. İsa (ə.s)-ın da eynilə mələklər kimi, Allah qatında diri olduğunu və Allahın təqdir etdiyi vaxt gəldikdə yer üzünə gələcəyini söyləyir.

Mələklər, Allahın istəyi ilə müxtəlif dövrlərdə yer üzünə enir və təkrar Allah qatına çıxırlar. Lakin onların Allah qatına çıxmaları, əlbəttə, dünyada bizə məlum olan məhfumlara görə yox olmaları mənasını vermir. Onlar, təkcə başqa aləmə keçir və bizim qavraya bilmədiyimiz həyatlarına davam edirlər.

Eynilə hz. İsa (ə.s)-ın Allah qatına alınmış olması da, öldüyü mənasını verməz. Necə ki, bir çox ayədə hz. İsa (ə.s)-ın ölmədiyi açıq şəkildə bildirilir və bu həqiqət hədislərlə də bir daha təsdiq edilir. Hz. İsa (ə.s) da bizim qavraya bilmədiyimiz bir aləmdə diridir. Həmçinin, mələklərin iki aləm arasında, Allahın istəyi ilə, hərəkət etmələri də, Rəbbimiz istədiyi təqdirdə bunun çox asan olduğunu göstərir. Hz. İsa (ə.s) da, Allahın təqdir etdiyi vaxt gəldikdə, yer üzünə geri qayıdacaq və Rəbbimizin elçisi kimi insanları həqiqi din əxlaqına dəvət edəcək. Bədiüzzaman da bu sözləriylə bu həqiqəti dilə gətirir.

Bədiüzzaman **"SƏMA-İ DÜNYADA CƏSƏDİYLƏ MÖVCUD OLAN VƏ HƏYATDA OLAN HƏZRƏTİ İSA"** sözləriylə hz. İsa (ə.s)-ın ölmədiyini, hələ də həyatda olduğunu və insani bədəniylə ikinci dəfə yer üzünə gələcəyini bildirir. Bədiüzzaman verdiyi bu məlumatlarla, hz. İsa (ə.s)-ın şəxs-i mənəvi olmadığını açıqca göstərir və bu mübarək peyğəmbərin Axırzamanda Allahın bir möcüzəsi olaraq ikinci dəfə **"İNSANİ BƏDƏNİYLƏ BİR ŞƏXS KİMİ YER ÜZÜNƏ GƏLƏCƏYİNİ"** müjdələyir.

ALƏM-İ AXİRƏTİN (AXİRƏT ALƏMİNİN) ƏN UZAQ GUŞƏSİNƏ GETSƏYDİ VƏ HƏQİQƏTƏN ÖLSƏYDİ, YENƏ BELƏ BİR NƏTİCƏ-İ ƏZİMƏ (BÖYÜK NƏTİCƏ) ÜÇÜN ONU YENİDƏN CƏSƏD SAHİBİ EDİB DÜNYAYA GÖNDƏRMƏK, O HAKİMİN HİKMƏTİNDƏN UZAQ DEYİL:

Bədiüzzaman bu sözləriylə Rəbbimizin gücünün sonsuz olduğunu və hər istədiyini etməyə qadir olduğunu xatırladır və hz. İsa (ə.s)-ın ikinci dəfə yer üzünə gəlməsinin Allahın icazəsi ilə mütləq gerçəkləşəcəyini ifadə edir. Bədiüzzamanın, hz. İsa (ə.s)-ın gəlməsindən Rəbbimizin sonsuz gücünü dilə gətirərək bəhs etməsi, şübhəsiz ki, bu mövzuda nə qədər qəti qənaətə sahib olduğunun ən aydın göstəricilərindəndir.

Bədiüzzaman həmçinin burada bir nümunə verərək: **"HƏQİQƏTƏN ÖLSƏYDİ, yenə belə bir nəticə-i əzimə (böyük nəticə) üçün Onu YENİDƏN CƏSƏD SAHİBİ EDİB DÜNYAYA GÖNDƏRMƏK, O HAKİMİN HİKMƏTİNDƏN UZAQ DEYİL"** deyir. Bədiüzzaman bu sözləriylə açıqca **"BİR İNSAN"**dan bəhs etdiyini və hz. İsa (ə.s)-ın şəxs-i mənəvi olmadığını göstərir.

Rəbbimizin təqdiriylə hz. İsa (ə.s)-ın Axırzamanda "BİR ŞƏXS" kimi ikinci dəfə yer üzünə gələcəyini bir daha müjdələyir.

VƏD EDİB VƏ VƏD ETDİYİ ÜÇÜN, ƏLBƏTTƏ, GÖNDƏRƏCƏK:

Allah, hz. İsa (ə.s)-ın yenidən dünyaya gələcəyini bildirmişdir. O bu vədini mütləq yerinə yetirəcək.

Bütün bu dəlillər, Allahın gücünü və qüdrətini lazımınca təqdir edə bilmədikləri üçün, hz. İsa (ə.s)-ın ölmədiyi və yer üzünə geri qayıdacağı həqiqətini rədd etməyə çalışan insanların, xeyli yanıldıqlarının göstəricisidir.

Unutmamaq lazımdır ki, Allah üstün güc və qüdrət sahibi və hər şeyə qadir olandır. İstədiyini istədiyi şəkildə yaradar. Elmi sonsuzdur. Allahın müəyyənləşdirdiyi müddət gəldikdə, böyük bir möcüzə baş verəcək və hz. İsa (ə.s) dünyaya geri qayıdacaq. Bu həqiqət, ayələrlə və hədislərlə müjdələnilmişdir və bütün iman gətirənlərin üzərində düşünməli olduqları bir möcüzədir. Bədiüzzaman da Allahın bu vədini dilə gətirmiş, Quranda bildirildiyi kimi, Rəbbimizin vədini mütləq yerinə yetirəcəyini xatırladaraq, hz.

İsa (ə.s)-ın insani bədəniylə yer üzünə ikinci dəfə gəlməsinin **"QƏTİ BİR HƏQİQƏT"** olduğunu müjdələmişdir.

*10) ...**HƏZRƏTİ İSA ƏLEYHİSSALAM GƏLDİYİ VAXT**, hər kəsin ONUN HƏQİQİ İSA, olduğunu bilməsi lazım deyil. ONUN MÜKƏRRƏB VƏ HAVASSI (dərin imanlı yaxın tələbələri), nur-u iman (imanın nuru) ilə ONU TANIYAR. Yoxsa bədahət (birdən-birə və açıqca) dərəcəsində HƏR KƏS ONU TANIMAYACAQ... (Mektubat, səh. 60)*

Bədiüzzaman, yer üzünə qayıtdığı ilk illərdə hz. İsa (ə.s)-ı tanıya biləcək insanların sayının çox az olacağını bildirmişdir. Buna görə də, təkcə yaxın ətrafı və dərin iman sahibi tələbələri hz. İsa (ə.s)-ı imanlarının nuru ilə tanıya biləcək, lakin bütün insanlar onun açıqca hz. İsa (ə.s) olduğunu bilməyəcək:

HƏZRƏTİ İSA ƏLEYHİSSALAM GƏLDİYİ VAXT:

Bədiüzzaman **"HZ. İSA ƏLEYHİSSALAM GƏLDİYİ VAXT"** sözləriylə bir neçə mühüm mövzuya aydınlıq gətirir. Bədiüzzaman **"GƏLDİYİ VAXT"** ifadəsiylə əvvəlcə hz. İsa (ə.s)-ın **"QƏTİ OLARAQ GƏLƏCƏYİNİ"** müjdələyir. Bədiüzzaman buradakı **"GƏLMƏK"** feliylə isə, hz. İsa (ə.s)-ın "mənəvi bir varlıq" olmadığını **"BİR ŞƏXS"** olduğunu açıqlayır.

Bir şəxs-i mənəvinin "gəlməsi" qeyri-mümkündür. Bir şəxs-i mənəvi ancaq "meydana gələ bilər". **"GƏLMƏK"** hərəkəti "bir insanın edə biləcəyi bir hərəkət"dir. Bədiüzzaman da bu sözləriylə bu mühüm fərqi vurğulayır və hz. İsa (ə.s)-ın bir şəxs kimi yer üzünə gələcəyi mövzusuna qətilik qazandırır.

ONUN HƏQİQİ İSA:

Bədiüzzaman, **"ONUN HƏQİQİ İSA"** ifadəsiylə, hz. İsa (ə.s)-ın mənəvi varlıq deyil, **"BİR İNSAN"** olacağını bir daha açıqlayır. Bədiüzzaman **"HƏQİQİ İSA"** deyərək, "BİR İNSAN"dan bəhs edir və hz. İsa (ə.s)-ın başqa şəxslərdən olan fərqini isə, **"HƏQİQİ"** sözüylə konkretləşdirir. Bədiüzzaman həmçinin burada işlətdiyi şəxsiyyət ifadə edən **"ONUN"** sözüylə də hz. İsa (ə.s)-ın **"BİR ŞƏXS"** olduğunu bir daha dilə gətirir. Bədiüzzaman həmçinin buradakı **"HƏQİQİ İSA"** sözləriylə hz. İsa (ə.s)-ın, yer üzünə ikinci dəfə gəldikdə, yenə hamısı bir şəxs olan "saxta Məsihlər"dən fərqli olacağını vurğulamış və bu mübarək şəxsin **"HƏQİQİ HZ. İSA (Ə.S)"** olacağını ifadə etmişdir.

Hz. İsa (ə.s) gəldikdə, Quran ayələrində və Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bildirilən işarələrə uyğun xüsusiyyətləriylə, bu saxta Məsihlərdən seçiləcək və Bədiüzzamanın ifadə etdiyi kimi, "həqiqi hz. İsa (ə.s)" olacaq.

ONUN MÜKƏRRƏB VƏ HAVASSI (DƏRİN İMANLI YAXIN TƏLƏBƏLƏRİ):

Bədiüzzaman burada **"MÜKƏRRƏB VƏ HAVASSI"** deyərək hz. İsa (ə.s)-ın **"DƏRİN İMANLI YAXIN TƏLƏBƏLƏRİ"** olacağından bəhs etmişdir. Bir şəxs-i mənəvinin "tələbələri" və ya "yaxın ətrafı" olacağından bəhs edə bilmək əsla mümkün deyil. Lakin bir insanın tələbələri ola bilər.

Şübhəsiz ki, Bədiüzzaman da bu həqiqəti çox yaxşı bilir. Hz. İsa (ə.s)-ın tələbələrindən bəhs edərək, onun şəxs-i mənəvi olmadığını müsəlmanlara açıqlayır və mübarək şəxsiylə tələbələrinin başında bilavasitə çıxış edəcəyini xəbər verir.

ONU TANIYAR:

Bədiüzzaman burada işlənən **"ONU"** sözüylə, yenə hz. İsa (ə.s)-ın **"BİR ŞƏXS"** kimi gələcəyini ifadə edir. Bədiüzzamanın işlətdiyi **"TANIYAR"** ifadəsi isə, bu mövzunu heç bir etiraza yer verməyəcək şəkildə dəqiqləşdirir. **"TANIMAQ"** vəziyyəti, təkcə **"BİR İNSAN", "BİR ŞƏXS"** üçün mümkün ola bilər. "Yaxın ətrafının bir şəxs-i mənəvini tanıması", əlbəttə, qeyri-mümkündür.

Lakin Bədiüzzaman, dərin imanlı yaxın tələbələrinin imanın nuru ilə hz. İsa (ə.s)-ı tanıya biləcəklərini ifadə edir. Əlbəttə ki, Bədiüzzaman bu məlumatı verərkən bu həqiqətlərdən xəbərdardır. Bədiüzzaman bu açıqlamaları olduqca şüurlu şəkildə vermiş və bu yolla hz. İsa (ə.s)-ın, iman sahibləri tərəfindən tanına biləcək **"BİR ŞƏXS"** olduğunu qəti olaraq dəlilləndirmişdir.

HƏR KƏS ONU TANIMAYACAQ:

Bədiüzzaman **"HƏR KƏS ONU TANIMAYACAQ"** sözləriylə hz. İsa (ə.s)-ın kim olduğunu, gəldiyi ilk illərdə hər kəsin anlaya bilməyəcəyini, dolayısilə bütün insanların onu tanıya bilməyəcəyini ifadə edir. Bədiüzzaman bu sözləriylə yuxarıda qeyd edilən və insanlara aid bir vəziyyət olan **"TANINMA"** xüsusiyyətinə bir daha diqqət çəkir. Əgər Bədiüzzaman hz. İsa (ə.s)-ın şəxs-i mənəvi olduğu qənaətində olsaydı, belə bir açıqlama verməzdi. Hz. İsa (ə.s)-ın tanınmasından bəhs etməzdi. Lakin Bədiüzzaman **"ONU"** sözüylə hz. İsa (ə.s)-ın **"BİR ŞƏXS"** olduğunu bildirmiş və sonra da açıqca onu kimlərin tanıya bilməyəcəyini açıqlayaraq, bu vəziyyəti bir daha vurğulamışdır.

# Hz. İsa (ə.s)-ı necə tanıya bilərik?

## Kimlər hz. İsa (ə.s)-ı tanıya biləcək?

Əvvəlki bölmələrdə hz. İsa (ə.s)-ın ölmədiyini, Allah qatına yüksəldildiyini və yer üzünə yenidən qayıdacağını Qurandan, hədislərdən və İslam alimlərinin şərhlərindən dəlillərlə açıqlamışdıq. Əlbəttə ki, bütün bunlardan sonra ağla gələn ilk sual: "Hz. İsa (ə.s)-ın yer üzünə təkrar gələndə kim olduğunun necə məlum olacağı və onun hansı xüsusiyyətlərindən tanına biləcəyi"dir.

Quranda bildirilən hekayələrdə və bəzi ayələrdə peyğəmbərlərin həyatlarına və üstün əxlaqlarına dair təfərrüatlı məlumatlar var. Peyğəmbərlər və saleh möminlərlə əlaqədar bir çox ortaq əlaməti ayələrdə tapmaq mümkündür. Dolayısilə Qurana və sünnəyə tabe olan səmimi möminlər hz. İsa (ə.s)-da gördükləri bu üstün xüsusiyyətləri qiymətləndirib, onu tanıya bilərlər. Lakin Bədiüzzaman Səid Nursinin də ifadə etdiyi kimi, hz. İsa (ə.s) yenidən yer üzünə gəldikdə bu mübarək şəxsi çox az insan tanıya bilər:

*Hz. İsa (ə.s) gəldiyi vaxt, hər kəsin onun İsa olduğunu bilməsi lazım deyil. Onun yaxınları və qabaqcıllar, imanın nuru ilə onu tanıyarlar. Yoxsa açıqca hər kəs onu tanımayacaq. (Mektubat, səh. 54)*

Yuxarıdakı sözündə görüldüyü kimi, Bədiüzzaman hz. İsa (ə.s)-ın yer üzünə qayıtdığı ilk illərdə, təkcə yaxın ətrafının onu tanıya biləcəyini bildirmişdir. Yaxınlığında olan bu insanların onu tanımasının isə, təkcə “imanın nuru” ilə mümkün ola biləcəyini ifadə etmişdir. Əlbəttə, burada “imanın nuru” ilə nə nəzərdə tutulduğuna toxunulmalıdır. “İmanın nuru” Allahın varlığına, vahidliyinə inanan və Qurana və sünnəyə tabe olan insanlara Rəbbimizin verdiyi anlama qabiliyyətidir. Möminlər Allahın verdiyi bu anlama qabiliyyəti sayəsində, hadisələri çox açıq şəkildə qiymətləndirə bilər və bir çox mövzunun dolaşıq xüsuslarını asanlıqla qavraya bilərlər. Quranda bildirildiyi kimi möminlər, ətraflarındakı hər şey üzərində dərindən düşünən, dolayısilə hadisələrdəki incəlikləri, təfərrüatları nəzərdən qaçırmayan insanlardır. Necə ki, Allah bir ayədə, səmimi-qəlbdən iman gətirib hər hadisənin incəliyini və dərinliyini qavramağa çalışan, gördükləri incəliklərdə özlərini Yaradanın böyüklüyünü, gücünü qavrayaraq Ondan qorxanlara **“doğrunu yanlışdan ayırd etmə”** məsələsində anlama qabiliyyəti verəcəyini bildirmişdir:

**Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə doğru ilə yanlışı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir. (Ənfal surəsi, 29)**

Bu ayə əsasında düşünüldükdə, hz. İsa (ə.s)-ı yer üzünə qayıtdığı vaxt, tanıyıb ona itaət edəcək insanların da, Allaha və Qurana iman gətirən, hər hadisəni dərindən düşünüb qavramağa çalışan saleh möminlər olacağı aydın olur. Necə ki, Bədiüzzaman Səid Nursi digər bir sözündə mövzuya belə diqqət çəkir:

*Hətta həzrəti İsa əleyhissalamın nüzulu və özü İsa əleyhissalam olduğu, nur-u imanın diqqəti ilə tanınar; hər kəs tanıya bilməz. (Şualar, səh. 487)*

## Hz. İsa (ə.s)-ı hansı xüsusiyyətlərinə əsasən tanıya bilərik?

Yuxarıda ifadə etdiyimiz kimi, bu sualın cavabını tapmaq üçün Qurana baxdığımız vaxt, qarşımıza çıxan ilk əlamət, ayələrdə bildirilən, peyğəmbərlərin sahib olduqları ortaq xüsusiyyətlər olacaq. Elə isə hz. İsa (ə.s)-ı tanımaq üçün Quranda bildirilmiş bu peyğəmbər xüsusiyyətlərinin nələr olduğunu araşdırılmalıdır. Əlbəttə, peyğəmbərlərlə əlaqədar Qurandan çıxarıla biləcək yüzlərlə əlamət var. Bu bölmədə isə, ən nəzərə çarpan xüsusiyyətlər ələ alınacaq.

### 1) Üstün əxlaq xüsusiyyətləri ilə digər insanlardan fərqlənər

Allahın seçib göndərdiyi hər peyğəmbər kimi, hz. İsa (ə.s) da bütün üstün əxlaq xüsusiyyətlərini üzərində daşıyar. Onu digər insanlardan fərqləndirən ən nəzərə çarpan fərq, yaşadığı cəmiyyət içində gözlənilməz şəkildə ortaya çıxan yüksək şəxsiyyətidir. Belə ki, xalq arasında heç rast gəlinməyən, insanların görməyə alışmadığı və görən kimi təsirlənəcəkləri əxlaqi xüsusiyyətlərə malikdir. Allaha olan etibarı və imanı ilə olduqca qətiyyətli, cəsarətli, cəmiyyətin təsiri altında qalmayan, əksinə hər kəsə təsir göstərən, güclü insandır. Necə ki, bütün peyğəmbərlərin üzərlərində daşıdıqları bu üstünlük ayələrdə belə bildirilir:

**Bunlar, öz qövmünə qarşı İbrahimə verdiyimiz dəlillərimizdir. Biz istədiyimiz kəsi dərəcə-dərəcə ucaldarıq... Biz ona İshaqı və Yaqubu bəxş etdik. Hər ikisini doğru yola yönəltdik. Bundan əvvəl Nuhu da doğru yola yönəltmişdik. Onun nəslindən olan Davudu, Süleymanı, Əyyubu, Yusifi, Musanı və Harunu da. Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq. Zəkəriyyanı, Yəhyanı, İsanı və İlyası da. Hamısı əməlisalehlərdən idilər. İsmaili, Əlyəsəni, Yunisi və Lutu da. Hamısını aləmlərdən üstün etdik. Onların atalarından, nəsillərindən və qardaşlarından bəzilərini də. Onları seçdik və düz yola yönəltdik. Bu, Allahın hidayətidir. Bununla O, qullarından istədiyi şəxsi doğru yola yönəldir... (Ənam surəsi, 83-88)**

Allah, peyğəmbərləri digər insanlara görə üstün xüsusiyyətlərlə yaratdığını yuxarıdakı ayələrdə açıqca bildirmişdir. Bu mövzu ilə əlaqədar Quranda daha bir çox nümunə var. Məsələn; **"...İbrahim (tək başına) bir ümmət idi"** (Nəhl surəsi, 120), **"güc və bəsirət sahibi olan qullarımız İbrahimi, İshaqı və Yaqubu..."** (Sad surəsi, 45), **"həqiqətən, onlar Bizim yanımızda seçilmişlərdən və yaxşı kimsələrdəndirlər"** (Sad surəsi, 47), **"...Onlar dedilər: "Bizi Öz iman gətirmiş qullarının çoxundan üstün tutan Allaha həmd olsun!"** (Nəml surəsi, 15) kimi ayələrdə bildirilən ifadələr, peyğəmbərlərə verilən üstünlükləri bizə bildirir. Hz. İsa (ə.s) da, Allahın seçilənlərdən etdiyi peyğəmbərlərdəndir. Bir ayədə belə buyurulur:

**Biz o elçilərin bəzisini digərlərindən üstün etdik. Onlardan bəzisi ilə Allah danışmış, bəzisini isə dərəcələrə yüksəltmişdir. Biz Məryəm oğlu İsaya açıq-aydın dəlillər verdik və onu müqəddəs Ruh (Cəbrail) ilə qüvvətləndirdik... (Bəqərə surəsi, 253)**

## 2) Peyğəmbərlərə məxsus üz ifadəsi ilə tanınacaq

Elçilərin istər elm, istərsə də, bədən cəhətdən üstün olduqları da Quranda bildirilir:

**...O dedi: "Həqiqətən, Allah sizin üzərinizə onu seçdi, elm və bədən cəhətdən onun gücünü artırdı. Allah Öz mülkünü istədiyi kəsə verir. Allah (rəhməti və gücü ilə) geniş olandır, biləndir". (Bəqərə surəsi, 247)**

Elm, ağıl, bədən və əxlaq cəhətdən üstün edilmiş bir insan olaraq hz. İsa (ə.s)-ın üzündə peyğəmbərlərə məxsus bir ifadə olacaq. Sahib olduğu güclü Allah qorxusunun və dərin imanının nuru, üzünə əks olunacaq. Həmçinin peyğəmbərlərə məxsus olan nurlu ifadə o qədər açıq olacaq ki, onu görənlər digər insanlarla müqayisədə çox üstün bir insanla qarşılaşdıqlarını anlayacaqlar. Lakin unutmamaq lazımdır ki, hər kəs bu açıq-aydın həqiqəti görməyə bilər. Bəzi insanlar duyduqları həsəd və kindən ötrü, bu əxlaqi üstünlüyü görməzlikdən gələ bilərlər. Daxilən xəbərdar olsalar da, bu həqiqəti anlamazlıqdan gələ bilərlər. Təkcə səmimi iman sahibləri, bu üstünlüyü görüb lazımınca qiymətləndirə biləcəklər.

Allah, hz. İsa (ə.s)-ın həm dünyada, həm də axirətdə: **"..."seçilən, şərəfli, mötəbər" və Allaha yaxınlaşdırılmış insan..."** (Ali İmran surəsi, 45) olduğunu bildirmişdir. Allahın ayəsinin bir təcəllisi olaraq, bütün peyğəmbərlər kimi, hz. İsa (ə.s) da ətrafındakı insanlar arasında möhtərəm, seçilən və şərəfli olmasıyla tanınacaq.

## 3) <u>Hikmət və natiqlik gücü çox böyükdür</u>

**Bunlar, Kitab, hikmət və peyğəmbərlik verdiyimiz kəslərdir... (Ənam surəsi, 89)**

Allah, müxtəlif qövmlərə təbliğ etmələri, onları xəbərdar edib qorxutmaları üçün, göndərdiyi peyğəmbərlərini hikmət sahibi də etmişdir. Hikmətli izahat, məqsədəuyğun danışıqlar, doğruya çağıran və pis əməldən uzaqlaşmağa dəvət edən rəftarlar, bütün peyğəmbərlərin ortaq xüsusiyyətləridir. Necə ki, Quranın daha bir çox ayəsində ayrı-ayrılıqda peyğəmbərlərə verilən hikmətə də diqqət çəkilir. Məsələn, hz. Davud barədə: **"...ona hikmət və valehedici izahat qabiliyyəti verdik"** (Sad surəsi, 20), hz. Yəhya barədə: **"...Biz ona hələ uşaq ikən hikmət bəxş etdik"** (Məryəm surəsi, 12), hz. Musa barədə: **"Musa yetkinləşib kamillik dövrünə çatdıqda Biz ona "hökm və hikmət", həmçinin elm bəxş etdik. Biz xeyirxah işlər görənləri belə mükafatlandırırıq..."** (Qəsas surəsi, 14), hz. Loğman barədə: **"Biz Loğmana, Allaha şükür etməsi üçün hikmət verdik"** (Loğman surəsi, 12), hz. İbrahim barədə: **"...Biz İbrahimin nəslinə də Kitab və hikmət bəxş etdik..."** (Nisa surəsi, 54) deyə bildirilmişdir.

Allahın bizə bildirdiyi: **"Allah istədiyi kəsə hikmət bəxş edir. Kimə hikmət verilmişsə, ona böyük xeyir nəsib edilmişdir..."** (Bəqərə surəsi, 269) ayəsinin tələbi, bütün peyğəmbərlərin hikmət verilərək mükafatlandırıldığıdır.

Hz. İsa (ə.s)-ın Allahın bir elçisi kimi hikmətlə mükafatlandırıldığına və bunu öz qövmünə də bildirdiyinə, Quranda belə diqqət çəkilmişdir:

**Allah deyəcəkdir: “Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışırdın. Sənə Kitabı, hikməti, Tövratı və İncili öyrətmişdim..." (Maidə surəsi, 110)**

**İsa aydın dəlillərlə gəldiyi zaman dedi: “Mən sizə hikmət gətirmişəm və barəsində ziddiyyətə düşdüyünüz bəzi şeyləri izah etmək üçün gəlmişəm. Allahdan qorxun və mənə itaət edin! (Zuxruf surəsi, 63)**

Bu ayələrdən açıqca görüldüyü kimi, hz. İsa (ə.s)-ı tanımaq üçün, digər bir əlamət də, onun edəcəyi; "hikmətli, məqsədəuyğun və çox təsirli danışıqlar" olacaq. Digər bütün mövzularda olduğu kimi, hikmətli danışıq da, peyğəmbərlərə məxsus çox diqqətçəkən xüsusiyyətdir. Quranı özlərinə rəhbər qəbul etmiş möminlər, hz. İsa (ə.s)-ın danışıqlarının çox hikmətli olduğunu və bunun təkcə Allahın seçdiyi elçilərə məxsus olduğunu anlayarlar. Göstərdiyi üstün ağıl, qoyduğu mükəmməl diaqnozlar, gətirdiyi çıxış yolları həmişə məqsədəuyğun olub, Allahdan xüsusi olaraq verilmiş bir hikmətin ən aydın əlamətlərini meydana gətirəcək. Beləliklə də, üstün şəxsiyyəti və ağlı açıqca nəzərə çarpacaq.

### 4) <u>Çox etibarlıdır</u>

Hər elçi göndərildiyi cəmiyyətə ilk növbədə: **"Həqiqətən, mən sizin üçün etibar bir elçiyəm"** (Şuəra surəsi, 107) deməyə başlayaraq özünü tanıtmışdır. Peyğəmbərlərin bu etibarlılıqları, Allahın kitabına və dininə tam tabe olmalarından qaynaqlanır. Heç bir vəziyyətdə doğru yoldan və haqq dinin sərhədlərindən kənara çıxmazlar. Təkcə Allahın rizasını qazanmaq istəmələrindən ötrü, heç kəsə boyun əyməzlər. Quranda demək olar ki, bütün peyğəmbərlərin, qövmlərinə özlərini bu xüsusiyyətləriylə tanıtdıqları bildirilir. Məsələn, hz. Musanın özünü qövmünə tanıtması Quranda belə bildirilir:

**Biz onlardan əvvəl Fironun qövmünü də sınadıq. Onlara möhtərəm bir elçi gəldi. O dedi: "Allahın qullarını mənə qaytarın. Həqiqətən, mən sizin üçün etibarlı bir elçiyəm". (Duxan surəsi, 17-18)**

Şübhəsiz ki, elçilərin bu mühüm xüsusiyyətlərini qövmləri həmişə təqdir edə bilməyiblər. Hətta çox vaxt elçilərlə əlaqədar yanlış zənlərə qapılıblar. Çünki öz cahil sistemlərini tərk edib onların dəvət etdiyi haqq dinə tabe olmaq istəməyiblər. Lakin aradan müəyyən müddət keçdikdən sonra elçilərin ən etibarlı insanlar olduqları qövmün daxilində də qəbul edilmişdir. Bu mövzuda nümunə olaraq, hz. Yusifi verə bilərik. Hz. Yusif, uzun müddət qövmün içində çətinliklərlə sınanmış; əvvəlcə kölə olaraq satılmış, sonra isə bir müddət zindanda qalmışdır. Allahın istədiyi vaxtda isə, etibarlı insan olduğu məlum olmuş, hökmdar tərəfindən dövlət xəzinələrinin başına gətirilmişdir:

**Hökmdar dedi: "Onu yanıma gətirin! Onu tabeliyimə qəbul edim". Onunla danışdıqda: "Sən bu gün yanımızda (artıq) mühüm məqam sahibi və etibarlı bir (məsləhətçi, idarəçi)sən" dedi. (Yusif surəsi, 54)**

Şübhəsiz ki, Quranda bildirilən peyğəmbərlərin bu xüsusiyyətləri Allahın bir elçisi olaraq hz. İsa (ə.s)-da da görüləcək. Hz. İsa (ə.s) dünyaya ikinci dəfə gəldikdə, Allahın dəyişməz qanunu olaraq xalq arasında etibarlılığı ilə diqqət çəkəcək. Allah, hz. Yusif və digər bütün elçilərinə olduğu kimi, hz. İsa (ə.s)-a da kömək edəcək və onun nə qədər etibarlı insan olduğunu insanlara göstərəcək.

## 5) <u>Allahın himayəsi altındadır</u>

**Bizim (elçi) göndərdiyimiz qullarımız haqqında bu Sözümüz əzəldən deyilmişdi: "Həqiqətən, onlara nüsrət (kömək və qələbə) bəxş ediləcək. Bizim ordularımızın mütləq qələbəsi labüddür". (Saffat surəsi, 171-173)**

Allah həmişə elçilərini digər insanlardan üstün etmişdir. Tarix boyu göndərilən hər peyğəmbər, Allahın köməyi ilə düşmənlərinə qarşı üstünlük qazanmış, onların qurduqları tələlərdən qorunmuşdur. Aldıqları hər qərar, tətbiq etdikləri hər üsul həmişə xeyirlə və müvəffəqiyyətlə nəticələnmiş, Rəbbimiz onları hər vəziyyətdə dəstəkləmişdir.

Dolayısilə Allahın elçisi hz. İsa (ə.s)-ı gözləyən möminlər üçün, yol göstərən digər bir əlamət də, onun hər işinin müvəffəqiyyətlə nəticələnməsi olacaq. Belə ki, aldığı hər qərar, tətbiq etdiyi hər üsul, özü və ətrafındakı möminlər üçün xeyirli nəticə verəcək. Hətta ilk baxışda çatışmazlıq kimi, görünən hadisələr də bir müddət sonra onların xeyirinə çevriləcək. Həmçinin hz. İsa (ə.s)-ın aldığı bütün qərarların ən doğru, ən məqbul olduğunu bu hadisələr isbat edəcək. Çünki Allah Quranda elçilərinin hər nə olursa olsun bütün çətinliklərə baxmayaraq, üstün gələcəklərini və onları qəti olaraq Öz köməyi ilə dəstəkləyəcəyini vəd etmişdir.

Allahın bu vədi sayəsində hz. İsa (ə.s)-ın kiçik-böyük hər işdə qazandığı müvəffəqiyyət və bərəkət həm düşmənlərinin, həm də yanındakı iman sahiblərinin diqqətini çəkəcək qədər aydın olacaq. Düşmənləri də, bu vəziyyətin fövqəladəliyini görəcək, lakin bunun Allahdan gələn kömək olduğunu təqdir edə bilməyəcəklər. Çünki onların məqsədi, "özləri kimi bir insan" hesab etdikləri bu mübarək insana qarşı üstün gəlməkdir. Lakin; **"sonra elçilərimizi və iman sahiblərini xilas edərik. İman sahiblərini xilas etmək Bizə vacibdir** " (Yunis surəsi, 103) ayəsində də bildirildiyi kimi, Allah bu mövzuda etdikləri hər şeyi nəticəsiz çıxardacaq və elçisinə kömək edəcək. Ona qurulan tələlər heç vaxt uğurlu nəticə verməyəcək.

## 6) Etdikləri üçün qarşılıq gözləməz

Bütün elçilərin daşıdığı ortaq bir xüsusiyyət də, etdikləri heç bir şey üçün qarşılıq gözləməmələridir. Etdikləri böyük xidmətlər qarşılığında gözlədikləri tək şey Allahın rizasıdır. Ətraflarındakı heç kəsdən bir qarşılıq, bir fayda tələb etməzlər. Necə ki, Quranda, bütün elçilərin bu xüsusiyyətə sahib olduqları və bunu sözlə də dilə gətirdikləri bildirilir:

**Ey qövmüm! Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq məni yaradandadır. Məgər anlamayacaqsınız? (Hud surəsi, 51)**

Elçilərin sahib olduqları bu üstün xüsusiyyət, hz. İsa (ə.s)-da da görüləcək. Allahın peyğəmbəri olaraq bütün insanları İslam dininə dəvət edəcək. Lakin etdiyi şeylərin qarşılığında heç bir maddi mənfəət və qarşılıq gözləməyəcək. Quranda bildirilən bütün elçilər kimi, etdiyi hər şeyin qarşılığını Allahdan gözləyəcək və bu xüsusiyyəti ilə də istər yaxın ətrafında, istərsə də içində olduğu cəmiyyətdə diqqət çəkəcək.

Lakin bu xüsus unudulmamalıdır ki, digər mövzularda olduğu kimi, bu mövzuda da onu, təkcə iman sahibləri təqdir edə bilərlər. İçində olduğu cəmiyyət, hz. İsa (ə.s)-ın bu xüsusiyyətini görsələr də, bəzi düşmənləri ona mane olmaq üçün, digər bütün peyğəmbərlərə atıldığı kimi, ona da müxtəlif böhtanlar ata bilərlər. Şübhəsiz ki, bu böhtanlar arasında onun "etdikləri qarşılığında mənfəət əldə etməyə çalışdığı" kimi ittihamların olması da mümkündür. Lakin Allah hər mövzuda işinin xeyirlə nəticələnməsinə icazə verdiyi kimi, bu mövzuda da inkarçıların böhtanlarının əsassızlığını ayrı-ayrılıqda ortaya çıxardar və elçisinə kömək edər.

### 7) Möminlərə qarşı şəfqətli və mərhəmətlidir

Peyğəmbərlərdə görülən ən mühüm xüsusiyyətlərdən biri də "mərhəmət və şəfqət"dir. Peyğəmbərlər həmişə yanlarındakı möminlərə qarşı çox şəfqətli və mərhəmətli olublar və onların dünyadakı və axirətdəki vəziyyətlərini düzəltmək üçün çalışıblar. Hz. İsa (ə.s)-ın əxlaqının ən nəzərə çarpan xüsusiyyətlərindən biri də möminlərə qarşı olan bu şəfqəti və mərhəməti olacaq. Allah, göndərdiyi elçilərdə çox sıx şəkildə görülən bu əxlaq üstünlüyünü Quranda belə tanıtmışdır:

**And olsun ki, sizə özünüzdən elə bir Elçi gəldi, sıxıntıya düşməyiniz ona ağır gəlir. O sizə qarşı düşkün, möminlərə qarşı isə, şəfqətli və rəhmlidir. (Tövbə surəsi, 128)**

Məhz hz. İsa (ə.s) da bu ayədə ifadə edildiyi kimi, ətrafındakı möminlərə qarşı olduqca "müşfiq və qoruyucu" rəftar göstərəcək və bu bənzərsiz səmimiyyət və mehribanlıq onun hz. İsa (ə.s) olduğunun ən aydın dəlillərindən birini meydana gətirəcək.

## Dünyada heç bir qohumu, tanıyanı, ailəsi olmamasıyla tanınacaq

Hz. İsa (ə.s) Quranda bildirilən peyğəmbər xüsusiyyətləri ilə tanına biləcək. Lakin bunlardan başqa onu insanlara tanıdan başqa amillər də olacaq. **Şübhəsiz ki, bunlardan ən əhəmiyyətlisi hz. İsa (ə.s)-ın dünyada bir ailəsinin, heç bir qohumunun, əvvəlcədən tanıdığı tək bir insanın olmamasıdır.**

Həqiqətən də, hz. İsa (ə.s) yenidən yer üzünə gəldikdə ətrafında özünü tanıyan heç kəs olmayacaq. Onun fiziki xüsusiyyətlərini, simasını və ya səs tonunu tanıyan tək bir insan da çıxmayacaq. Yer üzündə tək bir insan; "mən onu daha əvvəldən tanıyıram, filan vaxt görmüşdüm, onun ailəsi və yaxınları bu insanlardır" kimi bir iddia ilə çıxış edə bilməyəcək. Çünki onu tanıyan bütün insanlar bundan təxminən 2000 il əvvəl yaşamış və ölmüşdürlər. Anası hz. Məryəm, hz. Zəkəriya, illərlə yanında olmuş həvariləri, dövrün yəhudi qabaqcılları və bilavasitə hz. İsa (ə.s)-dan təbliğ almış insanlar vəfat ediblər. Dolayısilə ikinci dəfə yer üzünə gəldikdə, onun doğumuna, uşaqlığına, gəncliyinə və yetkinliyinə şahid olmuş tək bir insan olmayacaq və onun barəsində heç kim heç nə bilməyəcək.

Kitabın əvvəlki hissələrində də açıqladığımız kimi, hz. İsa (ə.s) Allahın "ol" əmri ilə atasız dünyaya gəlmişdir. Aradan əsrlər keçdikdən sonra isə, məlum olan heç bir qohumu olmaması çox normaldır. Allah, hz. İsa (ə.s)-ın bu vəziyyətini Quranda hz. Adəmin yaradılışına bənzədir və belə buyurur:

**Şübhəsiz ki, Allah qatında İsanın vəziyyəti Adəmin vəziyyəti kimidir. Allah onu torpaqdan yaratdı, sonra isə ona "Ol!" dedi, o da dərhal oldu. (Ali İmran surəsi, 59)**

Ayədə də ifadə edildiyi kimi, Allah hz. Adəmə **"ol"** demişdir və hz. Adəm yaradılmışdır. Məhz hz. İsa (ə.s)-ın ilk yaradılışı da, Allahın **"ol"** deməsiylə baş tutmuşdur. Hz. Adəmin ana və atası yoxdur, hz. İsa (ə.s)-ın isə, dünyaya gəldiyi ilk vaxtda isə, təkcə anası hz. Məryəm olmuşdur, lakin yer üzünə ikinci dəfə gəldikdə onun anası da həyatda olmayacaq. Aradan əsrlər keçdikdən sonra məlum olan heç bir qohumu olmadan yer üzündə olacaq.

Şübhəsiz ki, bu sayədə hz. İsa (ə.s) yer üzünə yenidən gəldikdə, onun hz. İsa (ə.s) olduğundan şübhə edilə biləcək vəziyyət yaranmayacaq. Saxta Məsihlik iddiası ilə çıxış edənlərin yalanları isə, asanlıqla aydın ola biləcək. Çünki bütün uşaqlığı insanlar arasında keçmiş, çox sayda uşaqlıq şəklinə sahib, özünü kiçik yaşlarından bəri tanıyan saysız insan olan, bir insanın hz. İsa (ə.s) olduğunu iddia etməsi olduqca məntiqsizdir.

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *(“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız

maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

### Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

### Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

### Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində

əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

### Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst,

yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

### İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. *(J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992)*

Təkamülçülər “*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər.

Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah’ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

**Göz və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda

həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

### Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah’ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah’ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

### Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli

sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində

düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

# Son söz

Şübhəsiz ki, hz. İsa (ə.s)-ın Allah qatından dünyaya yenidən göndəriləcək olması, çox böyük İlahi müjdədir. Hz. İsa (ə.s)-ın yenidən yer üzünə gəlməsiylə İslam əxlaqı bütün dünyaya hakim olacaq. O, Allahın bütün insanlara "xilaskar" kimi göndərdiyi mübarək bir insandır. Necə ki, dünyadakı qarışıqlıq və zülm mühitinin gücləndiyi dövrlərdə insanlar həmişə Allahdan bir **"yardımçı"** tələb etmiş və Allah da onların bu istəyini qəbul etmişdir:

**Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi xalqı zalım olan bu ölkədən çıxart, bizə Öz tərəfindən bir himayəçi göndər, bizə Öz tərəfindən bir yardımçı göndər!" deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda mübarizə aparmırsınız? (Nisa surəsi, 75)**

Daha əvvəl də ifadə etdiyimiz kimi, yaşadığımız dövrdə bizim üçün bu xilaskar, Quran əxlaqının hakimiyyətidir. Hz. İsa (ə.s) gəldiyi dövrdə isə, Allahın əmr etdiyi bu əxlaqı təbliğ edəcək və bunu dünyadakı bütün insanlara çatdırmaq üçün səy göstərəcək.

Bu mübarək dövrü və insanı gözləyənlərə düşən şey; hz. İsa (ə.s)-ın bütün möminlərə sahib çıxacağı kimi, ona sahib çıxmaları, tabe olmaları, özünün dəstəkçisi və müdafiəçisi olmaları və bu mübarək hadisəyə ən gözəl şəkildə hazırlanmalarıdır.

Belə mühüm bir qonağı qarşılamaq məsələsində göstəriləcək zəiflik və tənbəllik isə, əlbəttə, böyük vicdansızlıqdır. Allahın ayələrinə iman gətirən, dünyadakı hadisələri və Axırzamanın əlamətlərini ağlı və vicdanıyla qiymətləndirən heç bir insan bu mübarək qonağı hazırlıq görmədən gözləyə bilməz. Yaxud: "Hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gələcəyinə iman gətirirəm" dedikdən sonra, "lakin indi hazırlıq görməyim, daha sonra bu səhvimi düzəldərəm" düşüncəsinə də sahib ola bilməz.

Allahın göndərdiyi elçilərin ardınca gedənlər, onları qəlbən müdafiə edib dəstəkləyənlər və onların mübarək əxlaq xüsusiyyətlərini mənimsəyənlər isə, Allahın rizasını, rəhmətini və sonsuz cənnətini qazanmağı ümid edə bilərlər. Bu da Allahın iman gətirənlərə verdiyi qəti vədi və müjdəsidir:

**İman gətirib yaxşı işlər görənləri zülmətlərdən nura çıxartmaq üçün Allahın aydın ayələrini sizə oxuyan bir elçi göndərmişdir. Hər kəs iman gətirib saleh əməl işləsə, Allah onu içində əbədi qalacağı, ağacları altından çaylar axan Cənnət bağlarına daxil edər. Allah həqiqətən ona gözəl ruzi nəsib etmişdir. (Talaq surəsi, 11)**

Hz. İsa (ə.s), digər bütün peyğəmbərlər kimi, özünə, Allahın insanları doğru yola dəvət etmək vəzifəsini verdiyi seçilən bir quludur.

Lakin hz. İsa (ə.s)-ı digər peyğəmbərlərdən fərqləndirən bəzi xüsusiyyətlər var. Bunlardan ən əhəmiyyətlisi, onun hələ də ölməmiş, Allah qatına yüksəldilmiş və yer üzünə təkrar geri qayıdacaq olmasıdır.

Hz. İsa (ə.s) çarmıxa çəkilib öldürülməmiş və başqa səbəblə də ölməmişdir. Quranda onu asa və öldürə bilmədikləri qəti şəkildə bildirilir və Allahın onu Öz qatına yüksəltdiyi xəbər verilir. Heç bir ayədə hz. İsa (ə.s)-ın öldüyündən və ya öldürüldüyündən bəhs edilmir.

Bunlarla yanaşı, Quranda hz. İsa (ə.s) barəsində elə məlumatlar verilir ki, bunlar hələ gerçəkləşməmişdir və bu hadisələrin gerçəkləşməsi, təkcə hz. İsa (ə.s)-ın yer üzünə geri qayıtması ilə mümkün olacaq. Allahın Quranda xəbər verdiyi hadisələrin gerçəkləşəcəyinə heç bir şübhə yoxdur.

Bu kitabda, hz. İsa (ə.s)-ın ölmədiyinin, Allah qatına yüksəldiyinin və Axırzamanda yer üzünə yenidən göndəriləcəyinin dəlilləri Quran ayələri əsasında araşdırılmışdır.